Xalqın qəzeti!

# Xalq qəzeti

№ 33 (31002) 20 fevral 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Sülh Şurasının təsisçi dövlətləri sırasındadır

## *Prezident İlham Əliyev Vaşinqtonda Sülh Şurasının ilk iclasında iştirak edib*




**Fevralın 19-da Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində Sülh Şurasının ilk iclası keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə iclasda iştirak edib.

Əvvəlcə birgə foto çəkdirildi.

ABŞ Prezidenti Donald Tramp tədbirdə çıxış etdi.

Prezidentliyi dövründə 8 münaqişəyə son qoyduğunu deyən Donald Tramp vurğuladı ki, iki çox vacib ölkə arasında sülh əldə edib və bunu heç vaxt unutmayacaq.

ABŞ Prezidenti Azərbaycan və Ermənistan liderlərinə regionda yaranan sülhə görə təşəkkür edərək dedi: “Bilirsiniz, müharibə edəndə onun xərcləri sülhün dəyərindən 100 qat artıq olur. Orada sonda əyləşən cənabı (Prezident İlham Əliyevi - red.) görürük. O gülümsəyir. Otuz il mübarizədən sonra bu, aydın oldu, elə deyilmi? Otuz il müharibə gedib və biz onun öhdəsindən gəldik. Sizə çox minnətdaram, əla iş gördünüz. Siz və yeni dostunuz, ofisimə gəldiniz və dediniz, mən 22 il mübarizə aparmışam. Siz 23 ildir ki, fəaliyyətdəsiniz, eləmi? Lakin 22 il mübarizə aparmışam. Bax, onunla. Onun həmkarı isə dedi: “Mən də yeddi ildir rəhbərəm. Onunla mübarizə aparmışam”. Biz isə 24 saatın içərisində işi yerinə yetirdik. Çox yaxşı sülh alındı. Düşünürəm ki, onlar artıq dostdur. Mən bəlkə bunu söyləməli deyiləm. Fikrimcə, onlar artıq dostdur, elə deyilmi? Qalxın ayağa. Bunlar möhkəm iradəli insanlardır. Elə bilirsiniz asan idi? Yox, asan deyildi. İki sərt insandır, amma yaxşı insanlardır. Oval ofisdə idik. Onlar ikisi də gəldi. Biri otağın bir tərəfində, digəri o biri tərəfində.

*(ardı 2-ci səhifədə)*

## 100 il sonra “danışan” məxfi sənədlər



Səhifə ⇨ 12

## Rəqəmsal dələduzluğun gizli tilovları



Səhifə ⇨ 10

## Tarixi Sülh Şurası sammiti




### *Tramp və müttəfiqləri qlobal sabitliyin yeni formulunu yazır*

**Vaşinqtonda keçirilən və dünya siyasətində “Pax Americana”nın yenilənmiş forması kimi dəyərləndirilən Sülh Şurası görüşü müasir beynəlxalq münasibətlər sistemində əsaslı dönüş nöqtəsidir. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilən, Şərq və Qərb yarımkürələrinin ən nüfuzlu liderlərini bir araya gətirən məzkur zirvə görüşü ənənəvi beynəlxalq təsisatların, xüsusilə BMT Təhlükəsizlik Şurasının funksionallığını itirdiyi dövrdə alternativ qlobal idarəetmə mexanizmi təklif edir. Ağ Evin ev sahibliyi etdiyi toplantıda səslənən bəyanatlar, iştirakçıların tərkibi və müzakirə edilən sənədlər onu deməyə əsas verir ki, dünya nizamı artıq praqmatik maraqlar, konkret nəticələr və güclü liderlərin şəxsi razılaşmaları əsasında formalaşır.**

*(ardı 3-cü səhifədə)*

## C6: Vahid region, ortaq gələcək



Səhifə ⇨ 5

## Vaşinqton Bakı ilə İrəvanı barışdırır, Brüssel isə hələ də aralıqdan çıxmır



Səhifə ⇨ 5

## Dekolonizasiya prosesində yeni mərhələ



Səhifə ⇨ 6

## “İsveçrə ermənipərəstliyi” – Roma Papasından da üstün katolik olmaq?



Səhifə ⇨ 6

## Rusiyanın Ermənistanı “bir gecədə çökdürmək” məntiqi



Səhifə ⇨ 7

## Moskva təklif verir, Tbilisi rədd edir



Səhifə ⇨ 7

## Vaxt uzandıqca münaqişə düyünü bir az da sıxılır



Səhifə ⇨ 8

# Prezident İlham Əliyev Vaşinqtonda Sülh Şurasının ilk iclasında iştirak edib













(əvvəli 1-ci səhifədə)

Masa arxasında iki gözəl oturacaq var idi. Biri otağın bir yerində, digəri başqa yerində. Dedim onlara bəlkə bir-birinizə yaxın gələsiniz. Onlar bir az tərəddüd etdilər. Otuz iki il idi bir-birilərini məhv edirdilər. Dedim, bir-birinizə yaxın dayanın. Bir saat keçdi və onlar yan-yana oturdular. Razılaşma əldə etdik. Bir-birinin əlini sıxdılar, imzaladılar. Biz iki mühüm ölkə ilə sülhün əldə olunmasına imkan yaratdıq, heç vaxt unutmaram. Yavaş başladılar, sonra isə qəti addımlar atdılar. Siz özünüzlə çox fərəhlənə bilərsiniz. Gözəl hadisədir. Təşəkkür edirəm. Baxın. Otuz iki il... Sağ olun, çox sağ olun".

Sonra digər dövlətlərin nümayəndələrinin çıxışları dinlənildi.

İclasın sonunda Sülh Şurasının maliyyə intizamı və şəffaflığı prinsipləri haqqında qətnaməsi imzalandı.

***AZƏRTAC***

## Prezident İlham Əliyevin sosial media hesablarında Sülh Şurasının ilk iclası ilə bağlı paylaşım edilib




**Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclası ilə bağlı paylaşım edilib.**

## Konstitusiya Məhkəməsi Plenumunun iclası

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Məhkəmə iclasında Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusu əsasında Əmək Məcəlləsinin 144-cü maddəsinin 2 və 3-cü hissələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I və III hissələrinə, 71-ci maddəsinin II hissəsinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim İ.Nəcəfovun məruzəsini, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyası tərəfindən təqdim edilən mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, hüquq elmləri doktoru, professor A.Qasımovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Əmək Məcəlləsinin 144-cü maddəsinin 3-cü hissəsindəki "bu Məcəllənin 115–117 və 118-1-ci maddələrində nəzərdə tutulmuş əlavə məzuniyyətlərə görə kompensasiyanın verilməməsi" müddəası bərabərlik və normativ hüquqi aktların haqq-ədalətə əsaslanması prinsiplərinin tələbləri ilə uyğunsuzluq təşkil etdiyinə və ödənişli əmək məzuniyyəti hüququnu qeyri-mütənasib şəkildə məhdudlaşdırdığına görə Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I və III hissələrinə, 71-ci maddəsinin II hissəsinə və 149-cu maddəsinin I hissəsinə uyğun olmadığından tətbiqi dayandırılsın.

Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən işdən çıxan günədək işçinin istifadə etmədiyi Əmək Məcəlləsinin 115–117 və 118-1-ci maddələrində göstərilən əlavə məzuniyyətlərə görə kompensasiya ödənilməsinin təmin edilməsi məqsədilə həmin Məcəllənin 144-cü maddəsinin 2 və 3-cü hissələri Azərbaycan Respublikası Konstitusiyanın 25-ci maddəsinin I və III, 71-ci maddəsinin II və 149-cu maddəsinin I hissələrinin tələblərinə uyğunlaşdırılsın.

Məsələ qanunvericilik qaydasında həll edilənədək Azərbaycan Respublikası Konstitusiyasının 25 və 149-cu maddələrinin tələbləri nəzərə alınmaqla mövcud qeyri-bərabərliyin qarşısının alınması məqsədilə, əmək müqaviləsinə xitam verilərkən işçiyə bütün iş illərinin istifadə etmədiyi Əmək Məcəlləsinin 115–117 və 118-1-ci maddələrində göstərilən əlavə məzuniyyətlərinə görə, istifadə olunmamış əsas əmək məzuniyyəti üçün müəyyən edilmiş qaydada və məbləğdə hesablanan kompensasiyanın verilməsi təmin edilsin.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarı qüvvəyə minməsindən sonra əmək müqavilələrinə xitam verilməsi ilə bağlı yaranan münasibətlərə, habelə hazırda məhkəmələrin icraatında olan müvafiq işlərə şamil olunsun.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

***XQ***

## Azərbaycan tarixən Şərqlə Qərb arasında körpü rolunu oynayıb

**Azərbaycan Prezidenti İlham Əliyevin də vurğuladığı kimi, Cənubi Qafqazda yeni inteqrasiya və nəqliyyat dəhlizləri mərhələsi başlayıb. ABŞ-ın regionda artan fəallığı qlobal proseslərin tərkib hissəsi kimi qiymətləndirilir və bu maraq mövcud mərhələdə regional əməkdaşlıq mühitinin genişlənməsinə töhfə verən amillərdəndir. ABŞ-ın regiona yanaşması beynəlxalq ticarət yollarının təhlükəsizliyi, enerji marşrutlarının şaxələndirilməsi və qlobal bağlantıların gücləndirilməsi ilə bağlıdır.**





Ankara Siyasi Araşdırmalar Mərkəzinin eksperti Cenk Tamer medaiya açıqlamasında bunu bildirib.

Ekspert qeyd edib ki, ABŞ-ın xarici siyasətində praqmatik yanaşma üstünlük təşkil edir və bu yanaşma qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq modellərinin formalaşmasına yönəlib. Bu kontekstdə Cənubi Qafqazda həyata keçirilən layihələr regional sabitliyin möhkəmləndirilməsi və iqtisadi imkanların genişləndirilməsi baxımından əhəmiyyət daşıyır.

Ekspert vurğulayıb ki, region ölkələri üçün paralel olaraq regional əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi də xüsusi əhəmiyyət kəsb edir: "Türkiyənin də dəstəklədiyi 3+3 platforması region dövlətləri arasında dialoq, qarşılıqlı etimad və əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm formatlardan biridir. Bu platforma regional aktorların öz aralarında koordinasiyanı artırmasına və ortaq maraqlar əsasında fəaliyyət göstərməsinə imkan yaradır".

Cenk Tamerin sözlərinə görə, yeni geosiyasi şəraitdə Bakının həyata keçirdiyi balanslı və çoxtərəfli diplomatiya xüsusilə diqqət çəkir. Azərbaycan tarixən Şərqlə Qərb arasında körpü rolunu oynayıb və hazırda bu funksiyanı daha da gücləndirir. Bu amil Azərbaycanın regional və qlobal səviyyədə artan rolunu şərtləndirən əsas faktorlardandır.

"Azərbaycanın mövqeyi həm böyük güclər, həm də regional aktorlar üçün strateji əhəmiyyət daşıyır. Bu prosesdə Türkiyə ilə Azərbaycan arasında mövcud olan strateji tərəfdaşlıq və "bir millət, iki dövlət" prinsipi əsasında qurulan münasibətlər regional sabitliyin qorunması baxımından mühüm rol oynayır. Məhz bu əməkdaşlıq modeli Cənubi Qafqazda qarşılıqlı anlaşmanın, iqtisadi inteqrasiyanın və uzunmüddətli sülh mühitinin formalaşmasına töhfə verir", – deyə ekspert diqqətə çatdırıb.

# Hikmət Hacıyev: Sülh Şurasında liderlərin əl sıxmasının dərin rəmzi mənası var

## *7 milyard ABŞ dolları məbləğində Qəzzaya dair maliyyə layihəsində Azərbaycanın iştirakı nəzərdə tutulmur*




**Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclasında Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın əl sıxması dərin rəmzi məna daşıyır.**

Bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "X" sosial şəbəkəsindəki paylaşımda bildirilib.

"SÜLH sözünün böyük baş hərflərlə yazıldığı fonda Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri əl sıxır. Təsadüf kimi görünə bilən bu an dərin simvolik məna daşıyır. Azərbaycan Prezidenti İlham Əliyev qurucu üzv dövlət kimi Sülh Şurasının təsis iclasında iştirak edir. Sülh Şurasının Təsisçi Sədri kimi Prezident Donald Tramp bir daha Azərbaycan-Ermənistan sülh gündəliyini vurğuladı", - paylaşımda qeyd olunub.

***

**Azərbaycan təsisçi üzv dövlət kimi Sülh Şurasının məqsəd və məramlarını dəstəkləyir. Gələcəkdə Azərbaycan tərəfindən Sülh Şurası vasitəsilə Qəzzada sərmayə layihələrində iştirak nəzərdən keçirilə bilər.**

Bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün X sosial media hesabında yazıb.

Prezidentin köməkçisi, həmçinin qeyd edib: "Amma bir məsələyə aydınlıq gətirmək istərdik. Belə ki, Sülh Şurasının bugünkü iclasında səsləndirilən 7 milyard ABŞ dolları məbləğində Qəzzaya dair maliyyə layihəsində Azərbaycanın iştirakı nəzərdə tutulmur".

***

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "X" sosial şəbəkəsində Vardanyanla bağlı məhkəmə qərarını 30 illik münaqişənin məntiqi yekunu kimi qiymətləndirib.

"Bakı məhkəməsinin oliqarx Ruben Vardanyanla bağlı qərarı təkcə ədalətin bərpası deyil, həm də Azərbaycan xalqına böyük iztirablar gətirmiş təxminən 30 illik münaqişənin rəmzi və məntiqi yekunudur", - paylaşımda bildirilir.

*XQ*

# Azərbaycan–Gürcüstan birgə əməkdaşlıq müzakirəsi




**Azərbaycanın telekommunikasiya və poçt xidmətləri üzrə tənzimləyici qurumu İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin (İKTA) və Gürcüstanın rabitə tənzimləyici qurumu olan Kommunikasiya Komissiyasının ("ComCom") rəsmiləri arasında görüş olub.**

Görüşdə İKTA-nın Tənzimləmə departamentinin direktoru Tural Zərbəliyev son dövrlərdə Azərbaycan istiqamətində artan dələduzluq məqsədli zənglərlə bağlı narahatlıqları diqqətə çatdırıb.

Bildirilib ki, sözügedən zənglərin əksər hissəsi Azərbaycanın milli nömrələmə formatını təqlid edən və Gürcüstanın beynəlxalq telefon kodu 995 ilə təqdim olunan nömrələrdən həyata keçirilir. Müzakirələr zamanı dələduzluq hallarının qarşısının alınması məqsədilə təklif olunan həll yolları ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin regional telekommunikasiya təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcəyini vurğulayıblar.

*XQ*

# Tarixi Sülh Şurası sammiti




**(əvvəli 1-ci səhifədə)**

Prezident Trampın "Sülh Şurası istənilən ölkəyə açıqdır" bəyanatı və ardınca səsləndirdiyi "Biz, həqiqətən yaxşı iş görürük, səkkiz münaqişəyə son qoyulub" fikri mövcud administrasiyanın konfliktlərin həllinə yanaşma metodologiyasını nümayiş etdirir. Doqquzuncu münaqişənin həlli ilə bağlı səslənən "daha çətin oldu" etirafı isə diqqətləri dərhal Cənubi Qafqaz regionuna və Yaxın Şərqə yönəldir. Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtonda nümayiş etdirdiyi strateji mövqe və Sülh Şurası sammitində iştirakı rəsmi Bakının qlobal statusunu təsdiqləyən bariz göstəricidir.

Donald Trampın "səkkiz münaqişəyə son qoyduq" bəyanatının arxasında duran ən uğurlu nümunələrdən biri Azərbaycan və Ermənistan arasındakı münaqişənin həllidir. İlham Əliyev fenomenal diplomatik gedişləri və qətiyyətli hərbi-siyasi addımları sayəsində regionda onilliklər boyu davam edən işğala son qoyaraq Cənubi Qafqazda yeni reallıq yaratmağa nail olub. Trampın vurğuladığı sülh prosesi, sadəcə, atəşkəs sənədi imzalamaqla məhdudlaşmır, eyni zamanda, regionun qlobal nəqliyyat və logistika mərkəzinə çevrilməsini nəzərdə tutur. Azərbaycan liderinin siyasi iradəsi nəticəsində reallaşan layihələr Şərq və Qərb arasında etibarlı körpü rolunu oynayır. Bu amil Vaşinqtonun Bakıya olan strateji marağını artırır. Prezident Trampın İlham Əliyevi "əla lider" adlandırması və onunla şəxsi dostluq münasibətlərinə işarə etməsi Azərbaycanın suverenliyinə və müstəqil siyasətinə verilən ən yüksək qiymətdir. Həmin kontekstdə diqqət yetirilməli olan digər mühüm məsələ Qəzza sektorundakı vəziyyətin tənzimlənməsidir. Trampın qeyd etdiyi səkkiz münaqişə siyahısında Yaxın Şərq düyününün açılması xüsusi yer tutur. Qəzza sektoru Fələstin ərazisinin dar hissəsidir və burada uzun illər ərzində əsasən HƏMAS hərəkatı hakim mövqedə olub. Geosiyasi baxımdan Aralıq dənizi sahilində yerləşən ərazi İsrail ilə sərhədlərə malikdir və Təl-Əviv təhlükəsizlik mülahizələri səbəbindən bölgəni ciddi şəkildə nəzarətdə saxlayırdı. Lakin son dövrlər baş verən proseslər və Sülh Şurasının təşəbbüsləri nəticəsində Qəzzada hərbi qarşıdurma fazası yerini siyasi və humanitar bərpa mərhələsinə verib. Qəzza sektorunda baş verən siyasi, humanitar və təhlükəsizlik problemləri İsrail və Fələstin arasında uzun illər davam edən münaqişənin tərkib hissəsi olsa da, Tramp administrasiyasının yeni yanaşması ənənəvi həll metodlarından köklü şəkildə fərqlənir.

Mövcud yanaşmanın əsasını iqtisadi rifahın təhlükəsizlik üçün zəmin yaratması ideyası təşkil edir. Sülh Şurasının təklif etdiyi plan çərçivəsində Qəzza sektorunun tamamilə yenidən qurulması, beynəlxalq investisiyaların cəlb edilməsi və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması nəzərdə tutulur. Humanitar fəlakətin qarşısını almaq üçün Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri kimi körfəz ölkələrinin maliyyə dəstəyi ilə həyata keçirilən layihələr bölgəni terror yuvasından turizm və ticarət mərkəzinə çevirmək məqsədi daşıyır. Təhlükəsizlik məsələlərində isə İsrail ordusunun birbaşa iştirakı əvəzinə, region ölkələrinin və beynəlxalq müşahidəçilərin cəlb olunduğu yeni mexanizm tətbiq edilir. Trampın "biz həqiqətən yaxşı iş görürük" ifadəsi, məhz Qəzzada əldə edilən həssas, lakin ümidverici sabitliyə işarədir. Məqsəd Fələstin xalqına layiqli həyat şəraiti təmin etməklə yanaşı, İsrailin təhlükəsizlik narahatlıqlarını aradan qaldırmaqdır. Burada əsas məqam odur ki, radikalizmin kökünü kəsmək üçün hərbi güc tətbiqi ilə yanaşı, təhsil, səhiyyə və infrastruktur layihələrinin paralel şəkildə həyata keçirilməsi zəruridir. Trampın doqquzuncu münaqişə barədə söylədiyi fikirlər isə analitik dairələrdə Ukrayna müharibəsi kimi təfsir olunur. ABŞ Prezidentinin "düşünürdük o, ən asanı olacaq, amma daha çətin oldu" etirafı müasir müharibələrin proqnozlaşdırılmasının nə qədər mürəkkəb olduğunu göstərir. "Müharibə ilə nəyin asan, nəyin çətin olduğunu heç vaxt bilmirsən" tezisi, realpolitik məktəbin klassik nümunəsidir. Doqquzuncu münaqişənin həlli Sülh Şurasının ən böyük sınağı hesab olunur. Lakin toplantıda iştirak edən liderlərin həm Rusiya, həm də Ukrayna tərəfi ilə olan əlaqələri, vasitəçilik missiyasının uğurla nəticələnəcəyinə dair ümidləri artırır.

Donald Trampın yaratdığı Sülh Şurası İkinci Dünya müharibəsindən sonra formalaşmış və hazırda iflic vəziyyətinə düşmüş beynəlxalq təşkilatlara alternativ güc mərkəzi kimi çıxış edir. Beynəlxalq hüququn ikili standartlarla tətbiq edildiyi dövrdə, Trampın liderlik etdiyi koalisiya konkret nəticələrə hesablanmış addımlar atır. Sülh Şurasının fəlsəfəsi bürokratik əngəlləri aşaraq, liderlərin şəxsi iradəsi və qarşılıqlı etimadı üzərində qurulub.

Doqquzuncu münaqişənin həlli daha çox zaman və səy tələb edəcək, lakin Sülh Şurasının əzmi və iştirakçı liderlərin siyasi iradəsi bu çətinliyin də öhdəsindən gəlməyə imkan verəcək. Trampın bəyanatı onu göstərir ki, dünya artıq vahid mərkəzdən idarə olunan sistemdən çoxqütblü əməkdaşlıq sisteminə keçid edir. Həmin sistemdə əsas söz sahibi xalqının dəstəyini qazanmış güclü liderlərdir. Məhz buna görə Tramp burada olanları "əla insanlar" və "əla liderlər" adlandırır. Onların hər biri tarixin gedişatını dəyişmək gücünə malik şəxsiyyətlərdir.

Donald Trampın rəhbərliyi ilə formalaşan Sülh Şurası və onun Azərbaycan kimi etibarlı tərəfdaşları dünyanı daha təhlükəsiz və firavan gələcəyə aparan yolda həlledici rol oynayacaq. Səkkiz münaqişənin sona çatması sadəcə başlanğıcdır və qarşıda bəşəriyyəti daha böyük uğurlar gözləyir. Trampın bəyanatındakı nikbinlik və liderlərə olan inam, qlobal çağırışların həllində kollektiv səylərin vacibliyini bir daha təsdiqləyir. Sülh Şurasının qapılarının hamı üçün açıq olması sülh naminə əməkdaşlığın alternativsiz olduğunu göstərir. Bu prosesdən sonra baş verə biləcək hadisələr zəncirində iqtisadi inteqrasiyanın dərinləşməsi, sərhədlərin ticarət, turizm üçün daha şəffaf olması və mədəniyyətlərarası dialoqun güclənməsi gözlənilir. Sülhün dividendindən faydalanan xalqlar keçmiş düşmənçilikləri unudaraq gələcəyə baxmaq imkanı əldə edəcəklər. Dünya birliyi artıq quru bəyanatlardan yorulub və konkret nəticələr tələb edir ki, bunu da məhz Sülh Şurası təmin edir. Donald Trampın praqmatizmi, İlham Əliyevin strateji zəkası və digər liderlərin təcrübəsi birləşərək qlobal sabitliyin yeni formulunu yaradır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Milli QHT Forumu İsveçrə səfirinə açıq məktub ünvanlayıb

**Azərbaycan Milli QHT Forumu İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı səfiri Tomas Ştəliyə (Thomas Stähli) açıq məktub ünvanlayıb.**



Məktubda deyilir: "Biz Azərbaycan vətəndaş cəmiyyəti təsisatları olaraq, İsveçrə Konfederasiyasında sistemli şəkildə anti-Azərbaycan narrativinin formalaşdırılması cəhdlərini müşahidə edirik. İsveçrə parlamentinin hansısa "Sülh Forumu" adı altında ortaya atdığı bu narrativlər Ermənistanda revanşizmin alovlandırılmasına, Azərbaycanla Ermənistan arasında sülh prosesinə zərbə vurmağa xidmət edir. Azərbaycana qarşı nifrət üzərində qurulan iftira kampaniyası regionda sülh və etimad quruculuğunu zədələməyə, separatizmin yenidən təbliğinə yönəlib.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əleyhinə təxribatçı fəaliyyət, tarixin arxivinə göndərilmiş ritorika və terminologiyadan istifadə İsveçrə Konfederasiyasında adi hal almaqdadır. Bəzi İsveçrə parlamentarilərinin son vaxtlar Qarabağ məsələsini "bağlanmış" hesab etmədiyini tez-tez dilə gətirmələri, Erik Fontobelin və digərlərinin İrəvanda revanşistlərin "ofisləri"ndə görüşlər keçirmələri anlaşılmır. Qərargahı İsveçrədə yerləşən "Beynəlxalq Xristian Həmrəyliyi" təşkilatı isə Qarabağ məsələsini dini müstəvidə qələmə verməyə çalışır, Azərbaycana böhtan atır.

Biz bundan əvvəl də sizə üz tutaraq bildirmişdik ki, belə təşəbbüslər xüsusilə də İsveçrə kimi beynəlxalq hüquqa hörmət bəslədiyini iddia edən bir ölkənin parlamentində irəli sürüləndə, qəbul ediləndə və ya İsveçrə cəmiyyətinin bir hissəsi olan kilsə tərəfindən təşviq ediləndə, İsveçrə ərazisində keçiriləndə obyektivlik və bitərəflik prinsipinə zidd olaraq ikili standartların bariz nümunəsinə çevrilir. XXI əsrdə Avropanın mərkəzində məsələlərə etnik və dini təəssübkeşlik prizmasından yanaşılması qəbuledilməzdir. Xüsusilə regiondan kənar dairələrin məsələlərə birtərəfli, qərəzli və irqçi yanaşması yolverilməzdir. Biz bu cür yersiz müdaxilələri bir daha qətiyyətlə pisləyir, onları Azərbaycanla Ermənistan arasındakı normallaşma prosesinə zərbə hesab edirik.

İsveçrənin Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) 4 min nəfərə yaxın azərbaycanlı itkinin taleyini aydınlaşdırmaq əvəzinə, ölkəmizin suverenliyi, ərazi bütövlüyü əleyhinə addımlar atmış, o cümlədən vaxtilə Xankəndidə icazəsiz ofis açmışdı. BQXK özünün humanitar təşkilat olduğunu iddia etsə də, əslində, qəbuledilməz siyasi fəaliyyətlə məşğul olmuşdur. BQXK-nın mandatına zidd olan bu təlimatların mənbəyi haradır?

Biz BQXK-nın Azərbaycanın etibarından sui-istifadə edərək emblemi altında olan yük və təcili tibbi yardım avtomobilləri ilə qaçaqmalçılıqla məşğul olmasını, bu xüsusda həmin nəqliyyat vasitələrində aşkarlanan benzin, siqaret, mobil telefon qutularını da unutmamışıq. "Humanitar yardım" adı altında Azərbaycanın suveren ərazilərində qanunsuz ticarət dövriyyəsinin aparılmasına, fırıldaqçılığa niyə göz yumulub?

İsveçrənin Azərbaycandakı səfirliyi Emin Hüseynov adlı birini aylarla inzibati binasında gizlətməklə, İsveçrə Xarici İşlər Nazirliyinin nümayəndəsi Didye Burkhalterin müşayiəti ilə qadın paltarında ölkədən qaçırmaqla hansı məqsəd güdüb? Emin Hüseynovun bu gün Azərbaycan dövlətinə qarşı çirkin iftira kampaniyasında İsveçrə dövlətinin rolu nədir?

Bizim suallarımız çoxdur. Yuxarıda qeyd edilənlərlə əlaqədar biz - Azərbaycan Milli QHT Forumunun təmsilçiləri 100-lərlə Azərbaycan QHT-sini birləşdirən çətir təşkilat olaraq, Sizinlə görüşməyə hazırıq".

# Xəzər dənizində zəlzələ

**Fevralın 19-da Xəzər dənizində zəlzələ qeydə alınıb.**

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb.

Bildirilib ki, maqnitudası 3,6 olan zəlzələ yerli vaxtla saat 16:46-da qeydə alınıb.

Zəlzələlərin Tədqiqatı Bürosunun məlumatına əsasən, zəlzələ ocağının dərinliyi 70 kilometr olub.

*XQ*



# Leyla Əliyeva Tirana uşaq evi və “Tereza ana” Mərkəzində





**Leyla Əliyeva Tiranada fəaliyyət göstərən “Hannah və Rosafa” uşaq evini ziyarət edib.**

Uşaq evi valideyn himayəsindən məhrum olan və ya sosial təhlükə mühitində yaşayan azyaşlılar üçün nəzərdə tutulmuş dövlət müəssisəsidir.

Qeyd olunub ki, qurumun fəaliyyəti xüsusilə 0-6 yaşarası uşaqların mühafizəsi, tərbiyəsi və onlara hərtərəfli qayğının göstərilməsi istiqamətinə yönəlib. Bildirilib ki, müəssisədə uşaqlar erkən inkişaf dövründə ehtiyac duyduqları psixoloji dəstək, tibbi xidmət və mənəvi qayğı ilə əhatə olunur.

Sonra Leyla Əliyeva “Tereza ana” Universitet Xəstəxana Mərkəzi ilə tanış olub. Diqqətə çatdırılıb ki, Mərkəz bütün Albaniyada, o cümlədən Tiranada əsas dövlət universitet xəstəxanasıdır. Burada xəstələrə ixtisaslı kadrlar tərəfindən ən qabaqcıl texnologiyalardan istifadə olunmaqla yüksəksəviyyəli tibbi xidmətlər göstərilir. Qeyd olunub ki, ölkənin əsas onkoloji xidməti burada cəmlənərək, xəstələrə şüa, kimyaterapiya və mürəkkəb cərrahi müalicə imkanları təqdim edilir.

Mərkəzdə hər bir uşağın sağlamlığına həssaslıqla yanaşılır, onların müalicə prosesi şəfqətli yanaşma və rəngarəng mühitlə dəstəklənir.

*XQ*

# Azərbaycan Yaxın Şərqlə Qərb arasında dialoq mərkəzinə çevrilib

**Geosiyasi xətlərin rəqəmsal texnologiyalar və qlobal iqtisadiyyatın sürəti ilə kəsişdiyi müasir dünyada müxtəlif bölgələr və maraqlar arasında tarazlıq qura bilən ölkələr unikal strateji əhəmiyyət kəsb edir. Belə dövlətlərdən biri də rolu Cənubi Qafqazdan çox kənara çıxan Azərbaycandır. O, Şərq və Qərb arasında enerji, nəqliyyat dəhlizləri və mədəni əlaqələri birləşdirən əsas körpüyə çevrilir.**



Qlobal qeyri-sabitlik və dəyişikliklər fonunda Azərbaycan xarici siyasət praqmatizmini, iqtisadi dinamikanı və strateji düşüncəni birləşdirmək, region üçün yeni bir reallıq formalaşdırmaq və daha geniş beynəlxalq nizama təsir göstərmək qabiliyyətini nümayiş etdirir. Onun hərəkətləri kiçik, lakin bacarıqla idarə olunan bir dövlətin qlobal birlik üçün necə diqqət mərkəzinə çevrilə biləcəyini, əməkdaşlıq, təhlükəsizlik və davamlı inkişaf üçün imkanlar aça biləcəyinin nümunəsinə çevrilir.

AZƏRTAC iraqlı politoloq və tədqiqatçı, beynəlxalq münasibətlər və təhlükəsizlik (Fletçer Məktəbi, Tufts Universiteti) üzrə fəlsəfə doktoru (PhD) və The Shaikh Group analitik qrupda siyasi zabit, Yaxın Şərqdə siyasət və təhlükəsizlik üzrə ekspert Massaab əl-Aluzi ilə eksklüziv müsahibəni təqdim edir.

**– Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemindəki yerini necə qiymətləndirirsiniz?**

– Müstəqillik qazandığı vaxtdan bəri Azərbaycan həm əhəmiyyətini qoruyub saxlayıb, həm də onu sürətlə gücləndirib və bu, təsiredicidir. Məsələ təkcə beynəlxalq nizamdakı qlobal dəyişikliklərdə deyil, həm də ölkə rəhbərliyinin ardıcıl, strateji və uzaqgörən mövqeyindədir. Birincisi, Azərbaycan Türk dünyasında ən mühüm əlaqə nöqtəsidir – bu rol onu unikal edir. Onun coğrafi mövqeyi Mərkəzi Asiyadan qlobal bazarlara təbii sərvətlər üçün tranzit dövlət kimi olduqca vacibdir. Bu, həm geostrateji, həm də geoiqtisadi baxımdan çox böyük perspektivlər açır. Bundan əlavə, müdrik şəkildə qurulmuş çoxsaylı ittifaqlar sayəsində Azərbaycan inamla Qafqaz regionunda əhəmiyyətli bir oyunçuya çevrilir və onun inkişafına və təhlükəsizliyinə təsir göstərir.

**– Azərbaycanın Avropa və Yaxın Şərqin kəsişməsində mühüm bir oyunçuya çevrildiyini demək olarmı? Azərbaycanın xarici siyasətinin hansı aspektləri onu dünyanın müxtəlif bölgələri üçün tələb olunan tərəfdaşa çevirir?**

– Şübhəsiz ki, Azərbaycan Avrasiyada əsl diqqət mərkəzinə çevrilib. Onun xarici siyasətə praqmatik yanaşması öz maraqlarını hər şeydən üstün tutan ağıllı, balanslı bir dövlətin nümunəsidir. Regiondakı bir çox digər ölkələrdən fərqli olaraq, Azərbaycan ideologiyadan daha çox real maraqlara əsaslanaraq hərəkət etməyə üstünlük verir, bu da ona rifah və beynəlxalq arenada hörmət qazandırıb. Bu, Bakını münaqişə mənbəyinə deyil, əsl diplomatik mərkəzə çevirib.

**– Avropanın və qonşu regionların enerji təhlükəsizliyinin gücləndirilməsinə Azərbaycanın töhfəsini necə qiymətləndirirsiniz?**

– Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra Avropa enerji ehtiyatlarını şaxələndirmək ehtiyacını əvvəlkindən daha kəskin şəkildə hiss edir. Azərbaycan Mərkəzi Asiyadan təbii ehtiyatların qlobal bazarlara, xüsusən də Avropa ölkələrinə təhlükəsiz və səmərəli şəkildə çata biləcəyi bir körpüyə çevrilir. Başqa sözlə, Avropa Rusiyadan daha az asılı olacaq, onun enerjisi isə Azərbaycandan təhlükəsiz şəkildə daxil olacaq. Bu, təkcə enerjiyə deyil, həm də beynəlxalq bazarların sabitliyinə çox böyük töhfədir. Azərbaycan burada həqiqətən də əhəmiyyətli və strateji rol oynayır.

**– Şərq ilə Qərb arasında nəqliyyat və logistika dəhlizlərinin inkişafı ilə bağlı Azərbaycanın təşəbbüsləri nə dərəcədə əhəmiyyətlidir?**

– Bu yaxınlara qədər Mərkəzi Asiya bir sıra səbəblərə görə qlobal iqtisadiyyatdan əsasən təcrid olunmuşdu və bu da onun inkişafını ləngidirdi. Bunlardan ən ciddi olanı Rusiyanın siyasəti idi, o Avropanı enerji asılılığında saxlamağa çalışırdı. Digər marşrutlar da məhdudlaşdırılmışdı. Bu vəziyyətdə Azərbaycan tunelin sonunda əsl işıq oldu, təhlükəsiz və etibarlı bir marşrut təklif etdi. Onun Xəzər dənizindəki coğrafi mövqeyi və əlverişli sərhədləri ölkəni strateji tranzit mərkəzinə çevirir. Bundan əlavə, söhbət yalnız neft və qazdan getmir, məhsul, istehlak malları, texnologiyalar və avadanlıqların Azərbaycan vasitəsilə Mərkəzi Asiyaya daşınması, xüsusən də bu ölkələrdə iqtisadi artım fonunda, qarşıdakı illərdə getdikcə daha vacib olacaq.

**– Azərbaycan Qərb, Şərq ilə İslam dünyası arasında dialoqun gücləndirilməsində hansı rol oynaya bilər? Daha balanslı və çoxqütblü dünya nizamının formalaşması üçün Azərbaycan kimi ölkələr nə dərəcədə vacibdir?**

– Azərbaycan müsəlman ölkəsində uğurlu idarəetmənin parlaq nümunəsidir və bütün İslam dünyası üçün ilham mənbəyi ola bilər. Dünyəvilik, sabitlik və rifahın məharətlə birləşməsi ölkəni digər müsəlman dövlətləri üçün cəlbedici edir. Bu mənada, Bakı İslam və qalan dünya arasında dialoqu və qarşılıqlı anlaşmanı gücləndirən bir körpü olmaq üçün unikal mövqedədir.

**– Ötən ilin avqust ayında Vaşinqtonda liderlərin görüşündən sonra Bakı ilə İrəvan arasında sülh prosesinin irəliləyişini necə qiymətləndirirsiniz? ABŞ-ın təşəbbüsü münaqişənin həllinə nə dərəcədə töhfə verir və qalan ən çətin məsələlər hansılardır?**

– Sülh prosesinin dinamikası ümidvericidir. Azərbaycanın proaktiv diplomatiyası, ABŞ təşəbbüsü kimi konstruktiv beynəlxalq yardımla birlikdə, Cənubi Qafqazı qarşıdurma bölgəsindən əməkdaşlıq məkanına çevirmək üçün real fürsət yaradır.

**– ABŞ-ın vitse-prezidentinin Bakıya səfərini bu ölkənin Cənubi Qafqazda əsas oyunçu kimi artan rolu kontekstində necə qiymətləndirərsiniz? Vaşinqton Azərbaycanın regional sabitlik üçün strateji əhəmiyyətini qəbul edəcəkmi?**

– ABŞ-ın vitse-prezidentinin Bakıya səfəri Azərbaycanın Vaşinqtonun strateji maraqları üçün artan əhəmiyyətini açıq şəkildə nümayiş etdirir. Ölkənin xarici siyasəti onun regiondakı rolunu kökündən dəyişdirib və unikal strateji mövqeyi ilə gücləndirilmiş geosiyasi əhəmiyyətə çəki artırıb. ABŞ, şübhəsiz ki, bu dəyişiklikləri dərk edir və başa düşür ki, Bakının təsiri yalnız artacaq. Səfər münasibətləri gücləndirmək və əməkdaşlığa dərinlik qatmaq, o cümlədən yüksəksəviyyəli şəxsi qarşılıqlı əlaqələri gücləndirmək istiqamətində daha bir addımdır ki, bu da münasibətləri daha da etibarlı və davamlı edir.

# Xocalının Xanabad kəndi də məskunlaşdı



**Fevralın 19-da Xocalı rayonunun Xanabad kəndinə ilk köç həyata keçirilib. İlkin mərhələdə 154 nəfərdən ibarət 38 ailə qayıdıb.**

Kənddə mövcud yaşayış evləri əsaslı şəkildə təmir olunub, yaşayış məntəqəsi 24 saat fasiləsiz olaraq təbii qaz, elektrik enerjisi və içməli su ilə təmin edilib, sakinlərin rahat yaşayışı üçün hərtərəfli şərait yaradılıb.

Xatırladaq ki, Xanabad kəndinə həyata keçirilən bu köç nəzərə alınmaqla, ümumilikdə, Xocalı rayonu üzrə artıq 1 şəhər və 8 kəndə keçmiş məcburi köçkünlərin köçü təmin edilib.

*XQ*

# Prezidentin köməkçisi Xalq şairini mənzilində ziyarət edib



**Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Xalq şairi Nəriman Həsənzadəni 95 illik yubileyi münasibətilə mənzilində ziyarət edib.**

Bu barədə A.Ələkbərov özünün sosial media hesabında paylaşım edib. "Dəyərli Xalq şairimiz Nəriman Həsənzadəni 95 illik yubileyi münasibətilə ürəkdən təbrik edirik!

Böyük söz ustasına möhkəm cansağlığı, ruh yüksəkliyi və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. Qəlbinizin nuru daim sözünüzə işıq saçsın. Doğum gününüz mübarək!" – paylaşımda qeyd olunub.

*XQ*

# Daxili işlər naziri gəncləri xidmətə qəbul edib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 19-da respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 175 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*XQ*

# YAP Masallı təşkilatının toplantısı



**Dünən Masallı Regional “ASAN xidmət” mərkəzində Yeni Azərbaycan Partiyası Masallı Rayon Təşkilatının yaradılmasının 33 illiyi ilə əlaqədar “Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır” mövzusunda toplantı keçirilib.**

YAP rayon təşkilatının sədri Seyfəddin Əliyev ümummilli lider Heydər Əliyevin banisi olduğu, tarixi zərurəti cavablandırmış Yeni Azərbaycan Partiyasının keçdiyi siyasi mübarizələrlə dolu şərəfli yoldan danışıb. O bildirib ki, xalqın çağırışı ilə böyük siyasətə qayıdıb tarixi xilaskarlıq missiyasını üzərinə götürmüş Ulu öndərin yaratdığı Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycan dövlətinin qorunub möhkəmləndirilməsinin aparıcı siyasi qüvvəsi olub.

Qısa müddətdə formalaşıb “dünənin, bu günün və gələcəyin” partiyasına çevrilən YAP bu gün ən şanlı tarixini yaşayır. Tarixin ciddi sınaqlarından çıxmış Yeni Azərbaycan Partiyası Heydər Əliyev yolunun davamçısı və indiki sədri İlham Əliyevin rəhbərliyi ilə son 23 ildə bir çox tarixi nailiyyətlərə imza atmaqla daha da möhkəmlənib, sıralarını genişləndirib. Ötən illər ərzində ölkəmizdə siyasi sabitliyin davamlı inkişafın təminatçısı olmuş YAP xalqın böyük əksəriyyətinin etimadını qazanıb.

Mərasimdə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov qeyd edib ki, Yeni Azərbaycan Partiyası xalqın mənafelərinə xidmət etmək, ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün zamanın tələblərinə uyğun olaraq cəmiyyətdə avanqard siyasi qüvvəyə çevrilib. Milli Məclisin deputatı Məşhur Məmmədov bildirib ki, partiya ötən illərdə bütün qüvvə və bacarığını xalqa xidmətə yönəldərək, tarixi uğurlara imza atıb.

Masallı şəhər 1 nömrəli tam orta məktəb ərazi partiya təşkilatının sədri, şəhid anası Mehriban Sultanova, Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva, Mahmudavar ərazi partiya təşkilatının sədri Xanım Əliyeva, Xırmandalı ərazi partiya təşkilatının sədri Məhəmməd Yusifov və başqaları YAP üzvü olduqlarından şərəf duyduqlarını, masallılıların Ulu öndərin siyasi fəaliyyətini uğurla davam etdirən Prezident İlham Əliyevin ətrafında bundan sonra da sıx birləşəcəyini söyləyiblər.

Məclisin sonunda Masallı rayonunun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, təşəkkürnamələr, qiymətli hədiyyələr, eləcə də partiya sıralarına yeni qəbul olunan gənclərə üzvlük vəsiqəsi təqdim edilib.

*Əlihüseyn ŞÜKÜROV,*
*Masallıda çıxan “Yeni həyat” qəzetinin baş redaktoru*

# C6: Vahid region, ortaq gələcək

## *Bakıda formalaşan yeni geosiyasi arxitektura*

**Qlobal sistemin transformasiya mərhələsinə daxil olduğu, güc mərkəzləri arasında rəqabətin dərinləşdiyi və çoxtərəfli institutların effektivliyinin sual altına düşdüyü bir şəraitdə regional platformalar strateji sabitliyin əsas dayaqlarından birinə çevrilir.**

Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə keçirilən "C6: Vahid region, ortaq gələcək – strateji dialoqun gücləndirilməsi" beynəlxalq konfransı məhz bu kontekstdə yeni regional siyasi arxitekturanın intellektual əsaslarının formalaşdırılması cəhdi kimi qiymətləndirilməlidir. Tədbirdə C6 ölkələrinin aparıcı beyin mərkəzlərini təmsil edən ekspertlər, analitiklər və tədqiqatçıların iştirakı konfransın keyfiyyətini və təsirini daha da gücləndirdi.

C6 formatının meydana çıxması dəyişən geosiyasi reallıqların məhsuludur. Son illərdə həm Mərkəzi Asiyada, həm də Cənubi Qafqazda müşahidə olunan dinamika göstərir ki, region dövlətləri artıq təhlükəsizlik və inkişaf məsələlərini yalnız kənar güclərin prizmasından deyil, öz aralarında koordinasiya yolu ilə həll etməyə daha çox meyil göstərirlər. C6 daha çox ortaq maraqların uzlaşdırılması, strateji mövqelərin koordinasiyası və regional gündəliyin formalaşdırılması üçün nəzərdə tutulmuş mexanizmdir. Belə bir model xüsusilə böyük güclər arasında rəqabətin artdığı, qlobal sistemin parçalanma meyillərinin gücləndiyi bir mərhələdə region dövlətləri üçün optimal seçim sayılır.

Bakıda keçirilən konfransın açılışında ekspert icmasının rolunun xüsusi vurğulanması isə C6-nın intellektual-siyasi platforma kimi nəzərdə tutulduğunu göstərir. Müasir mərhələdə davamlı regional əməkdaşlıq üçün analitik əsaslandırma, konseptual çərçivə və uzunmüddətli strateji baxış tələb olunur. Beyin mərkəzlərinin, strateji araşdırma institutlarının və müstəqil ekspert şəbəkələrinin prosesə cəlb edilməsi bu baxımdan yeni mərhələnin əlamətidir.

XXI əsrin regional inteqrasiyaları funksional əməkdaşlıq mexanizmlərinə əsaslanır. Əvvəlcə dialoq və məsləhətləşmə formalaşır, sonra isə bu dialoq konkret sektorlar üzrə daimi mexanizmlərə çevrilir. "Yumşaq institusionallaşma" çərçivəsində hüquqi baxımdan sərt çərçivələr yaradılmadan, davamlı əlaqələndirmə mexanizmləri formalaşdırılır. Ekspert platformaları, sektorlar üzrə işçi qruplar, koordinasiya edilmiş mövqelər və mütəmadi siyasi dialoq belə bir institusionallaşmanın elementləridir.

* * *

Konfrans çərçivəsində birinci paneldə müzakirəyə çıxarılan əsas məsələ C6-nın gələcək siyasi taleyi ilə birbaşa bağlı idi. "C6 formal institutlara ehtiyac duyurmu?" sualı regional arxitekturanın hansı istiqamətdə inkişaf edəcəyini müəyyən edən strateji seçimdir. Hazırkı mərhələdə




C6 çevik və qeyri-formal mexanizm kimi üstünlüklərə malikdir. Sərt hüquqi öhdəliklərin olmaması dövlətlərə öz çoxvektorlu xarici siyasətlərini qorumağa imkan verir. Xüsusilə Rusiya, Çin, Qərb və Türkiyə kimi aktorların regiona marağının artdığı bir dövrdə formal bloklaşmadan uzaq durmaq strateji balans üçün vacibdir. Əslində C6 çərçivəsində artıq müəyyən mexanizmlər formalaşıb. Dövlət başçıları səviyyəsində məşvərət görüşləri siyasi istiqaməti müəyyənləşdirir. Ekspert şəbəkələri bu siyasi iradəni analitik əsaslandırma ilə təmin edir. İqtisadi və nəqliyyat platformaları isə praktiki əməkdaşlıq üçün konkret sahələr yaradır.

Əsas strateji sual koordinasiyanın regional sərhədləri aşaraq beynəlxalq platformalara daşınıb-daşınmayacağıdır. Əgər C6 ölkələri BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və digər çoxtərəfli strukturlarda müəyyən məsələlər üzrə ortaq mövqe nümayiş etdirə bilsələr, bu, formatın keyfiyyətcə yeni mərhələyə keçidi demək olacaq. Belə bir sinxronizasiya regional subyektivliyin güclənməsi anlamına gəlir. Çünki beynəlxalq münasibətlər sistemində aktor olmaq üçün ortaq mövqe, koordinasiya edilmiş diplomatiya və kollektiv davranış tələb olunur.

İkinci panel zahirən iqtisadi məsələlərə həsr olunsa da, mahiyyət etibarilə C6-nın geoiqtisadi strategiyası üzərində quruldu. Müasir beynəlxalq münasibətlər sistemində iqtisadi əlaqəlilik siyasi təsir, strateji sabitlik və regional subyektivlik alətinə çevrilib.

Trans-Xəzər və Orta Dəhliz ətrafında aparılan müzakirələrin "əməkdaşlıq, yoxsa rəqabət?" sualı ilə təqdim olunması xüsusi əhəmiyyət kəsb edir. Region daxilində paralel marşrutların mövcudluğu ilk baxışda rəqabət elementləri yarada bilər. Lakin koordinasiya və funksional bölgü həyata keçirilərsə, bu marşrutlar bir-birini tamamlayan elementlərə çevrilə bilər. Bakı Xəzər hövzəsinin qərb sahilində yerləşən logistika və enerji qovşağı kimi Mərkəzi Asiya ilə Cənubi Qafqaz və Avropa arasında strateji körpü rolunu oynayır. Qeyd etməliyik ki, Azərbaycanın təşəbbüskarlığı olmadan Trans-Xəzər marşrutunun effektiv işləməsi çətin olardı. Eyni zamanda, Bakı üçün bu proses regional liderlik ambisiyalarının iqtisadi əsasla möhkəmləndirilməsi deməkdir.

Üçüncü panel C6 gündəliyinin ən mürəkkəb və siyasi baxımdan ən həssas istiqamətini önə çıxarırdı. Əgər iqtisadi əməkdaşlıq qarşılıqlı fayda üzərində qurulursa, təhlükəsizlik məsələləri isə qarşılıqlı etimad və strateji hesablama tələb edir. Qlobal sistemdə parçalanma meyillərinin artdığı, regional münaqişələrin dərinləşdiyi və böyük güclər arasında rəqabətin sərtləşdiyi bir mərhələdə Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin təhlükəsizlik arxitekturasını yenidən düşünməsi qaçılmazdır.

Region eyni vaxtda bir neçə təhdid spektri ilə üz-üzədir. Sərhəd problemləri və tarixi mübahisələr hələ də tam aradan qalxmayıb. Radikalizm və terrorizm riski xüsusilə Əfqanıstan faktorunun yaratdığı qeyri-müəyyənlik fonunda aktuallığını qoruyur. Enerji infrastrukturu və nəqliyyat marşrutları isə geosiyasi rəqabətin potensial hədəfinə çevrilə bilər. Bütün bunların fonunda böyük güclərin regionda təsir uğrunda mübarizəsi əlavə risk qatmanı yaradır.

Region ölkələri sərt hərbi ittifaqlara qoşulmadan təhlükəsizlik sahəsində koordinasiya imkanlarını genişləndirməyə çalışırlar. C6 ölkələri Rusiya ilə tarixi və təhlükəsizlik əlaqələrini saxlayır, Çinlə iqtisadi əməkdaşlığı genişləndirir, Türkiyə ilə mədəni və strateji bağları gücləndirir, eyni zamanda, Qərb institutları ilə tərəfdaşlığı davam etdirir. Əgər region vahid platforma daxilində koordinasiya edə bilsə, xarici aktorlarla münasibətlərdə daha güclü danışıqlar mövqeyi formalaşdıra bilər.

Azərbaycanın C6 çərçivəsində iştirakı təhlükəsizlik baxımından yeni regional konfiqurasiya yaradır. Cənubi Qafqaz və Mərkəzi Asiya indiyə qədər əsasən ayrı geosiyasi məkanlar kimi qiymətləndirilirdi. Bakı isə bu iki məkanı birləşdirən təhlükəsizlik və nəqliyyat xəttinin mərkəzində dayanır. Azərbaycanın postmüharibə mərhələsində artan hərbi-siyasi çəkisi və enerji infrastrukturu üzərində nəzarəti onu regionlararası koordinasiyada mühüm aktora çevirir.

Əgər ortaq təhdidlər üzrə məlumat mübadiləsi, sərhəd təhlükəsizliyi üzrə əməkdaşlıq və enerji marşrutlarının qorunması istiqamətində mexanizmlər formalaşarsa, bu, regionun öz təhlükəsizlik arxitekturasını tədricən daxildən qurması demək olacaq. Postmüharibə mərhələsində Azərbaycanın suverenlik diskursu daha aydın və prinsipial xarakter alıb. Dövlət öz ərazi bütövlüyünü təmin etdikdən sonra regional siyasətdə də daha sərbəst və inamlı mövqe nümayiş etdirir.

"Vahid region, ortaq gələcək" şüarının real siyasi strategiyaya çevrilməsi mümkündür və Bakı konfransı məhz bu transformasiyanın ilkin konturlarını nümayiş etdirdi. Konfrans çərçivəsində aparılan müzakirələr göstərdi ki, bu transformasiya üç əsas istiqamətdə həyata keçirilə bilər: minimal institusional baza və davamlı mexanizmlərin yaradılması, iqtisadi və tranzit layihələrinin siyasi koordinasiya ilə sinxronlaşdırılması və təhlükəsizlik sahəsində bloklaşmadan strateji əməkdaşlıq. Hər üç istiqamət birlikdə C6-nın dialoq mərhələsindən konkret fəaliyyət və təsir mexanizminə keçidini təmin edə bilər.

Son olaraq qeyd edək ki, əgər bu proses davamlı mexanizmlərlə, iqtisadi layihələrin koordinasiyası və təhlükəsizlik sinxronizasiyası ilə dəstəklənərsə, C6 tədricən Avrasiya məkanında yeni regional güc mərkəzinin həm intellektual, həm də siyasi bazasını formalaşdıracaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Vaşinqton Bakı ilə İrəvanı barışdırır, Brüssel isə hələ də aralıqdan çıxmır

## *Finland polis zabiti neytrallığa və sülhə dəstək göstərə biləcəkmi?*

**Avropa İttifaqı Şurası fevralın 17-də Satu Koyvunu Aİ-nin Ermənistandakı Müşahidə Missiyası – EUMA-nın rəhbəri vəzifəsinə təyin edib. "Armenpress"in verdiyi xəbərə görə, bu barədə Aİ Şurası məlumat yayıb. S.Koyvu vəzifə səlahiyyətlərinin icrasına 2026-cı il fevralın 20-dən etibarən başlayacaq və missiyanın əvvəlki rəhbəri Markus Ritteri əvəz edəcək.**

Aİ Şurasının açıqlamasında o da vurğulanır ki, mülki missiya Aİ-nin Cənubi Qafqaz regionunda sülhün və sabitliyin dəstəklənməsi istiqamətində səylərinin mühüm tərkib hissəsidir: "Missiyanın məqsədi Ermənistan–Azərbaycan sərhədinin Ermənistan tərəfində vəziyyətin yerində monitorinqini aparmaq və bu barədə məlumat vermək, həmçinin, həmin ərazilərdə təhlükəsizliyin təmin olunması istiqamətində fəaliyyət göstərməkdir".

**DOSYE:** Satu Koyvu Finlandiya polisinin yüksək rütbəli zabitidir. O, milli və beynəlxalq səviyyədə 35 ildən artıq iş təcrübəsinə malikdir. Koyvu BMT və Avropa İttifaqının Fələstin ərazilərində, Ruandada, Namibiyada və Kiprdə fəaliyyət göstərən missiyalarında rəhbər vəzifələrdə çalışıb və geniş beynəlxalq idarəçilik təcrübəsi qazanıb. O, BMT-nin Kiprdəki sülhməramlı qüvvəsi olan UNFICYP-də baş polis müşaviri və BMT polis komponentinin rəhbəri vəzifəsində işləyib. Sonuncu təyinatadək o, Finlandiya Milli Polis İdarəsində, ölkənin ikinci böyük şəhəri olan Espoo şəhər polisinin insan resursları şöbəsinin rəisi vəzifəsində xidmət edib.

Qeyd edək ki, Aİ-nin adı mülki olsa da, özü yarımhərbi şəxslərdən, keçmiş polis əməkdaşlarından ibarət olan müşahidə missiyası 2023-cü ilin fevral ayında 100 müşahidəçi ilə iki il müddətinə Ermənistanda yerləşdirilib. 2023-cü ilin dekabr ayında Aİ Xarici İşlər Nazirləri Şurası missiyanı 209 müşahidəçiyə qədər genişləndirmək qərarına gəlib. Daha sonra Kanadadan bir nümayəndə də missiyaya qoşuldu və buna cavab olaraq rəsmi Bakı haqlı olaraq EUMA-nın NATO missiyasına çevrildiyini elan edib. 2025-ci il yanvarın 30-da Aİ Şurası missiyanın mandatının daha iki il müddətinə, yəni 2027-ci il fevralın 19-dək uzadılması barədə qərar qəbul edib. Missiya Ermənistan–Azərbaycan sərhədində patrul xidməti həyata keçirir, təhlükəsizlik sahəsində vəziyyəti monitorinq edir və yerindəki durum barədə məlumatlandırma aparır. EUMA-nın baş ofisi Yexeqnadzorda yerləşir və Cermuk, Yexeqnadzor, Martuni, Qafan, Gorus və İcevanda da 6 məntəqəsi var.

* * *

Rəsmi İrəvan indiyədək birmənalı şəkildə Aİ-nin mülki missiyasının münaqişədən zərər çəkmiş Ermənistan bölgələrində əhalinin təhlükəsizliyinin təmin olunmasına və yerlərdə etimad mühitinin möhkəmləndirilməsinə xidmət etdiyini bildirirdi. Ancaq hazırda bölgədə vəziyyət köklü şəkildə dəyişib. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında saziş paraflanıb. Bununla da regionda keyfiyyətcə yeni mərhələnin əsası qoyulub. Sənədin VII maddəsində tərəflərin qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəkləri qeyd olunub. Eyni zamanda, tərəflərin sərhədin delimitasiyası və sonrakı demarkasiyasının başa çatmasına qədər, sərhəd bölgələrində




təhlükəsizlik və sabitliyin təmin olunması məqsədilə, hərbi sahə də daxil olmaqla, qarşılıqlı razılaşdırılmış təhlükəsizlik və etimad-quruculuğu tədbirləri həyata keçirəcəkləri əksini tapıb. Bu mənada, Aİ Şurasının EUMA-ya yeni rəhbər təyin etməsi regionda formalaşmış reallıqlar fonunda müzakirə doğuran qərardır. Çünki son altı ayın faktiki mənzərəsi göstərir ki, sərhəddə atəşkəs pozuntuları qeydə alınmır, genişmiqyaslı insidentlər baş vermir və ümumilikdə nisbi sabitlik mövcuddur. Vaşinqton sazişi isə bu sabitliyi siyasi-hüquqi müstəviyə daşıyaraq regionda keyfiyyətcə yeni mərhələnin əsasını qoyub.

Belə bir şəraitdə haqlı sual yaranır: əgər sərhəddə real eskalasiya riski müşahidə olunmursa və tərəflər birbaşa dialoq, delimitasiya və demarkasiya prosesinə kökləniblərsə, o zaman üçüncü tərəf missiyasının əvvəlki formatda fəaliyyətinə nə dərəcədə ehtiyac qalır? Üstəlik, qeyd etdiyimiz kimi, paraflanmış sülh sazişinin müvafiq maddəsində tərəflərin qarşılıqlı sərhəddə hər hansı üçüncü qüvvəni yerləşdirməmək öhdəliyi açıq şəkildə əksini tapıb. Bu müddəa regionda təhlükəsizlik arxitekturasının artıq kənar aktorların iştirakı ilə deyil, məhz Bakı ilə İrəvan arasında razılaşdırılmış mexanizmlər əsasında qurulmalı olduğunu göstərir. Bu baxımdan, Aİ Şurasının missiyaya yeni rəhbər göndərmək əvəzinə, onun mandatına yenidən baxması və mərhələli şəkildə fəaliyyətinə xitam verilməsi məsələsini gündəmə gətirməsi daha məntiqli görünərdi. Çünki sülh sazişindən sonra prioritet qarşılıqlı etimadın birbaşa mexanizmlərlə möhkəmləndirilməsi, sərhəd təhlükəsizliyinin isə ikitərəfli razılaşdırılmış tədbirlər vasitəsilə təmin olunmasıdır. Xarici müşahidə institutunun uzunmüddətli qalması isə regionun daxili məsuliyyət modelinə keçidini ləngidə bilər.

Digər tərəfdən, reallıq ondan ibarətdir ki, Aİ Şurası fərqli qərar verib, missiyanın fəaliyyətini davam etdirmək niyyətini nümayiş etdirir. Bu halda əsas məsələ yeni rəhbərin yanaşması olacaq. Satu Koyvunun peşəkar təcrübəsi genişdir və onun fəaliyyətinin sırf mülki mandat çərçivəsində, neytral və balanslı şəkildə qurulması vacibdir. Əvvəlki rəhbər Markus Ritterin dövründə missiyanın bəzi açıqlamaları və davranışları regionda birmənalı qarşılanmırdı, zaman-zaman tərəfsizliklə bağlı suallar doğururdu. Yeni mərhələdə belə həssas məqamlar xüsusilə nəzərə alınmalıdır. S.Koyvudan əsas gözlənti ondan ibarətdir ki, o, missiyanın fəaliyyətini siyasi ritorikadan uzaq, texniki və obyektiv müstəvidə qursun. O, sərhəddə formalaşmış nisbi sabitliyi risk altında göstərmək əvəzinə, mövcud sülh mühitini təşviq edən yanaşma sərgiləməlidir. Missiyanın fəaliyyəti tərəflər arasında birbaşa dialoqa kölgə salmamalı, əksinə, qarşılıqlı etimadın möhkəmlənməsinə dolayı töhfə verməlidir. Yeni rəhbər anlayış nümayiş etdirməlidir ki, region artıq postmünaqişə deyil, postsaziş mərhələsindədir. Bu isə davranış və ritorikanın da dəyişməsini tələb edir. Koyvu üçün ən doğru xətt sülh sazişinin ruhuna hörmətlə yanaşmaq və fəaliyyətini həmin çərçivəyə uyğunlaşdırmaqdır. Yalnız bu halda Aİ missiyası bərqərar olmuş sülhün möhkəmlənməsinə real və müsbət töhfə verə bilər.

Nəhayət, Aİ missiyası həqiqətən, sülhə töhfə vermək iddiasındadırsa, o zaman onun fəaliyyəti Vaşinqton sazişinin ruhuna uyğunlaşdırılmalı, tərəflər arasında birbaşa qurulan etimad mexanizmlərinə kölgə salmamalıdır. Əks halda, formal olaraq mülki xarakter daşısa da, missiyanın mövcudluğu siyasi mübahisə predmetinə çevrilə bilər. Region artıq postmünaqişə mərhələsindən postsaziş mərhələsinə keçid edir. Bu mərhələdə əsas söz və məsuliyyət iki dövlətə məxsusdur. Xarici aktorların rolu isə təşviqedici və tamamlayıcı xarakter daşımalı, birbaşa təhlükəsizlik komponentinə alternativ kimi çıxış etməməlidir. Buna görə də Aİ missiyasının gələcək fəaliyyəti yeni reallıqlara adekvat şəkildə yenidən qiymətləndirilməlidir.

***Səxavət HƏMİD***
***XQ***

# “İsveçrə ermənipərəstliyi” – Roma Papasından da üstün katolik olmaq?

## “Sülh ölkəsi”nin barışı pozmaq niyyətindəki anti-Azərbaycan motivlər

**Özünü sülh ölkəsi kimi göstərən, əbədi bitərəfliyini elan edən İsveçrə heç də ampluasına uyğun davranmır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Münxendə təxribatçı jurnalist Emin Hüseynova sərrast cavabı fonunda açıqladığı fikir, Hüseynovun qadın paltarında İsveçrə səfirliyində gizləndiyini vurğulaması diqqəti yenidən bu ölkənin üzərinə cəmləyib. Həm də ona görə cəmləyib ki, İsveçrənin Azərbaycan–Ermənistan sülh gündəliyini pozmaq cəhdləri günümüzün reallığıdır.**

Ondan başlayaq ki, İsveçrə ermənipərəst qüvvələrin daim “aktiv” olduğu məmləkət statusundadır. Görünür, ölkə bu statusda Fransanı qabaqlamağa iddialıdır. Bəzən belə təəssürat yaranır ki, kimlərsə, məşhur deyimdəki kimi, Roma Papasından daha çox katolikliyə can atırlar. Bu canatmada isə Ermənistandakı revanşist qüvvələri fəallaşdırmaq məramı var. Bəli, İsveçrədə Azərbaycanın 44 günlük müharibədəki müqəddəs Zəfərlə öz torpaqlarını 30 ilədək sürən işğaldan qurtarmasını, habelə 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyünü və suverenliyini bərpa etməsini həzm edə bilməyən qaraguruhun məqsədi həmin revanşist və şovinistləri daim “işlək” durumda saxlamaqdır. Bu mənada ölkənin oxşarlığı var. Hansı ölkə ilə oxşarlıq, məsələyə qayıdacağıq. Hələlik isə...

Yada salaq ki, İsveçrə Milli Şurasının üzvü, açıq şəkildə anti-Azərbaycan mövqeyi ilə seçilən, mütəmadi şəkildə ölkəmiz əleyhinə yarıtmaz fikirlər səsləndirən Erix Vontobel bu il fevralın əvvəlində İrəvana səfər etmiş və orada mətbuat konfransı keçirmişdi. O, konfrans zamanı Qarabağdan 2023-cü ilin sentyabrından sonra getmiş ermənilərlə 2024-cü ilin oktyabrındakı görüşünü xatırlatmış və onları “zorla köçürülmüş şəxslər” kimi qələmə vermişdi. Məlumdur ki, E.Vontobel 2024-cü ilin oktyabrında İsveçrə Xarici İşlər Nazirliyinə “Qarabağ üçün sülh forumu: ermənilərin qayıdışına dəstək” adlı petisiya təqdim etmişdi. Əlbəttə, petisiya qəbul olunmamışdı.

Məlumat üçün bildirək ki, 26 muxtar bölgədən – kantonlardan və yarımkantonlardan ibarət federal respublika olan İsveçrədə qanunverici hakimiyyəti iki palatalı Federal Məclis həyata keçirir. Federal Məclis Milli Şuradan və Kantonlar Şurasından ibarətdir. Təxribatçı əməllərini diqqətə çatdırdığımız E.Vontobel Milli Şuranın 200 üzvündən biridir. Amma o, ermənipərəst mövqeyində tək deyil...

O da məlumdur ki, Qarabağ ermənilərinin geri qayıtmaq hüququnu dəstəklədiyini bəyan edən, əslində, işçi qrupu statusuna malik İsveçrə parlament komitəsi ötən il mayın 26-da Berndə ilk iclasını keçirmiş və İsveçrənin Azərbaycan nümayəndələri ilə Qarabağ erməniləri arasında dialoq üçün neytral platforma təşkil etmək kimi mənasız öhdəliyini təsdiqləmişdi. Mənasız ona görə ki, söhbət öhdəlikdən yox, aşkar ermənipərəstlikdən gedir. İclasda Ermənistanın sabiq xarici işlər naziri, hazırda özünün revanşist düşüncələri ilə yadda qalan Vardan Oskanyanın iştirakı fikrimizin təsdiqidir. Yeri gəlmişkən, 19 üzvdən ibarət parlament komitəsi İsveçrə Parlamentinin hər iki palatası tərəfindən qəbul edilmiş məcburi qətnamədən sonra yaradılıb. Qətnamə Federal Şuraya “Qarabağ üçün İsveçrə Sülh Təşəbbüsü” (Swiss Peace Initiative for Nagorno Karabakh) çərçivəsində beynəlxalq dialoq mexanizmlərini təşviq etməyi tapşırıb. Bu təşəbbüs isə Qarabağ ermənilərinin təhlükəsiz və ləyaqətli qayıdışı üçün şərtlərin müzakirəsinə yönəlib.



Bir sözlə, İsveçrədə ermənipərəstlik, habelə anti-azərbaycançılıq, bir növ, strukturlaşmış mexanizmə malikdir ki, haqqında söz açdığımız Roma Papasından daha artıq katoliklik elə budur. Görəsən, ölkənin bu yolu tutmasının səbəbi nədir? Müxtəlif səbəblər var və onları vurğulayacağıq. Hələlik isə İsveçrədə qeydə alınmış daha bir nalayiq təşəbbüs üzərində dayanaq.

Deməli, 2024-cü il noyabrın 5-də Cenevrə kantonu parlamentinin bir sıra ermənipərəst üzvləri tərəfindən “Dağlıq Qarabağın ilhaqı və Azərbaycanın siyasi məhbuslarının azadlığa buraxılması” adlı 24.321 saylı qətnamə layihəsi hazırlamışdı. Həmin layihə 2025-ci ilin avqustunda İsveçrə parlamentinin yuxarı palatası olan Kantonlar Şurasının Xarici Əlaqələr Komitəsi tərəfindən rədd edilmişdi ki, prosesdə Azərbaycanın İsveçrədəki səfirliyinin apardığı məqsədyönlü fəaliyyət mühüm rol oynamışdı. Bununla da 2025-ci ilin iyunundan intensivləşmiş və ölkəmizə qarşı bir neçə cəbhədə oynanılan hibrid siyasi oyun iflasa uğramışdı.

Buna qədər isə İsveçrədə fəaliyyət göstərən SOCAR-ın adının hallandığı “xarici nəzarətdə olan şirkətlərin müharibələri maliyyələşdirməsi” adlı qətnamə layihəsinin parlamentin gündəliyinə salındığını bilirik. 2024-cü ildə rədd olunmuş, ermənipərəst Stefan Müller-Altermatt tərəfindən yenidən gündəmə gətirilmiş və Azərbaycana qarşı siyasi təzyiq yaratmaq məqsədi daşıyan bu layihənin səs çoxluğu ilə yenidən rədd edildiyini də həmçinin. Həmin Müller-Altermattın İsveçrə hökumətinə “Cənubi Qafqazda sülh strategiyası və Ermənistanın müdafiəsi” mövzusunda sorğu ünvanladığından, bu sorğunun gündəlikdən çıxarıldığından da xəbərdarıq. Bu sıraya, habelə, “ədalətli iqlim və enerji siyasəti” adı altında SOCAR və TAP kimi şirkətlərin fəaliyyətini məhdudlaşdırmağa yönəlmiş referendum təşəbbüsünü əlavə etmək mümkündür.

Göründüyü kimi, ermənipərəstlik və anti-Azərbaycan fəaliyyət üzrə, sanki ayrıca gündəliyə məxsus İsveçrədə bu gündəliyin ən müxtəlif tərəfləri var. İstər-istəməz, düşünürük ki, bütün bunlar yalnız ayrı-ayrı şəxslərin sərsəm düşüncə məhsulları deyil. Belə bir durumda ehtimal şəklində anons etdiyimiz səbəblər və oxşarlıq üzərində dayanaq və bildirək ki, İsveçrə parlamentinin tutduğu yol və səsləndirdiyi tezislər Ermənistandakı revanşist və şovinist kəsimi aktivləşdirmək niyyəti güdən Rusiya propaqandasının tezisləri ilə üst-üstə düşür. Elə isə ilk ehtimalımız budur ki, İsveçrədə kimlərsə öz aləmlərində ölkəyə yaxın və Rusiya ilə işbirliyində olan Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı ofisinin fəaliyyətinin dayandırılmasının qisasını almağa girişiblər. Nəzərə alaq ki, sözügedən ofis 2025-ci ilin martında fəaliyyətini dayandırmışdı. Azərbaycana qarşı hücumlar da bundan sonra intensivlik qazanmışdı ki, həmin hucümlardan bəhs etdik. Deməli, ehtimalımızın doğruluq faizi yüksəkdir.

Bir halda ki, əvvəldə Emin Hüseynov məsələsindən, daha doğrusu, Mehriban xanım Əliyevanın ona Münxendəki tutarlı cavabından söz açdıq, bu məqamın üzərində bir qədər ətraflı dayanaq. Çox da uzaq olmayan keçmişə nəzər salaraq, belə qənaətə gəlmək olar ki, İsveçrə amilinin anti-Azərbaycan fəaliyyət baxımından, belə demək mümkünsə, öncüllük hekayəsi yalnız bu günlərin olayı deyil.

Bəli, İsveçrə anti-Azərbaycan ünsürlər üçün mərkəzdir. Zamanında həmin Emin Hüseynov ölkənin xarici işlər naziri və prezidenti olmuş Didye Burkhalterin sayəsində Azərbaycandan çıxarılmış, ikincinin vergi borcları ödənmişdi. Nəzərə alaq ki, 2017-ci ildən sonra siyasətdən uzaqlaşmış Burkhalterin ATƏT sədri olduğu dövrdə işğalçı Ermənistanla işğala məruz qalmış Azərbaycan arasında fərq qoymaması və sair əməlləri yaxşı xatirimizdədir.

Necə deyərlər, taylı tayını tapar. Bu mənada, Emin Hüseynov–Didye Burkhalter tandemi təəccüblü qarşılanmamalıdır. Axı onların hər ikisi eyni “amala” xidmət edirlər. Deməli, indi ölkəmizə qarşı mənfi təmayüllərin kökü var. Belə bir durumda İsveçrə kimi sülh egidalı olduğunu bəyan edən bir ölkənin tutduğu yola yalnız təəssüflənmək qalır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Dekolonizasiya prosesində yeni mərhələ

## Müstəmləkəçilik siyasəti xalqların düşüncəsinə sarsıdıcı yaralar vurub

**Fevralın 19-da Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə “Neokolonializm və qlobal bərabərsizlik” adlı beynəlxalq konfrans keçirilib. Konfransda ilk dəfə müstəmləkə ərazilərinin yerli əhalisi ilə birbaşa işləyən antropoloqlar və psixoterapevtlər, müstəmləkəçiliyə həsr edilmiş Virtual Muzeyin yaradılmasında iştirak etmiş ekspertlər, eləcə də həmin ərazilərdə fəaliyyət göstərən müstəqillik hərəkatlarının rəhbərləri, həmçinin neokolonializm sahəsində ixtisaslaşmış tədqiqatçılar iştirak ediblər.**

Tədbir çərçivəsində müxtəlif sosial və mədəni kontekstlərdə müstəmləkəyə məruz qalmış xalqların travmatik və sosial təcrübələri, müstəmləkə güclərinin qanunsuz fəaliyyətindən qaynaqlanan struktur problemlər və davam edən bərabərsizlik hallarının birbaşa öyrənilməsi, eləcə də bu təcrübələrin sənədləşdirilməsi, təhlili və beynəlxalq müstəviyə çıxarılması üçün məlumatlara əlçatanlığın təmin olunması məsələləri ətrafında müzakirələr aparılıb.



**Bakı Təşəbbüs Qrupunun (BTQ) icraçı direktoru Abbas Abbasov** konfransda çıxışı zamanı qeyd etdi ki, BTQ müstəqillik hərəkatlarının müstəmləkəçiliklə mübarizəsinə dəstək verir: “Son 2 il ərzində 35-dən çox beynəlxalq konfrans və tematik tədbir təşkil edilib, təxminən 150 tədqiqat aparılıb, 40-dan artıq hesabat və üç kitab nəşr edilib. Həmçinin Birləşmiş Millətlər Təşkilatına və onun qurumlarına alternativ hesabatlar və bəyanatlar təqdim olunub”. A.Abbasov sözlərinə əlavə etdi ki, BTQ ilə müstəqillik hərəkatları arasında uğurlu əməkdaşlıq sayəsində xarici ərazilərin və hələ də müstəmləkə idarəçiliyi altında əziyyət çəkən regionların dekolonizasiyası istiqamətində əhəmiyyətli nəticələr əldə olunacaq.



**Qvadelupun Azadlığı Naminə Xalq Birliyinin (UPLG) baş katibi, Beynəlxalq Dekolonizasiya Cəbhəsinin Qvadelup bölməsi üzrə koordinatoru Jan-Jakob Bisep** çıxışında bildirdi ki, cəmiyyətlərdə sosial münasibətlər, siyasi proseslərdən və hakimiyyət strukturlarından qaynaqlanaraq insanların həyat şəraitinə və ümumi rifahına dərin təsir göstərir. Onun sözlərinə görə, müasir dövrdə müharibə anlayışı güc balansının pozulması və uzun müddət toplanmış siyasi gərginliklərin fundamental nəticəsi kimi ortaya çıxır: “Fransanın sabiq prezidenti Fransua Hollandın ifadə etdiyi kimi, münaqişə dövrlərində siyasi fəzilət bəzən bəd niyyətlərin və ideoloji sapmaların təzyiqi altında sınağa çəkilir. Bu səbəbdən, ədalətsiz strukturlaşmalara, bəzi ictimai sistemlərdə mövcud olan istismar və kolonialist miraslara qarşı mübarizəni davam etdirmək vacibdir ki, daha ədalətli və tarazlı cəmiyyətlər qurmaq mümkün olsun”.



Konfransda Fransanın Əlcəzairdə törətdiyi soyqırımı siyasətinə də toxunulub. **Antropoloq, Əlcəzair Universitetində politologiya sahəsində elmi tədqiqatçı Hişem Daud** bildirdi ki, Əlcəzair Fransanın uzunmüddətli və son dərəcə qəddar müstəmləkəçiliyinə məruz qalmış ölkələrdən biridir: “Burada zorakılıq həm də gündəlik və psixoloji xarakter daşıyırdı. İşgəncələr fiziki yaralar yaradırdısa, davamlı mənəvi təzyiq və ləyaqətin alçaldılması müstəmləkə siyasətinə məruz qalan xalqlarda dərin travmalar buraxırdı. Müasir psixologiya və antropologiya sahəsində aparılan tədqiqatlar bu təsirləri nəsildən-nəslə ötürülən travma kimi təsvir edir”.



**Kesmonds Beynəlxalq Universitetinin rektoru, psixoterapevt, psixoloq və təhsil eksperti Atanqa Dezmond Funvi** XQ-yə eksklüziv açıqlamasında qeyd etdi ki, neokolonializm siyasətinin günümüzdə davam etdiyi dövrdə bundan əziyyət çəkən xalqların BTQ-nin təşkilatçılığı ilə vahid platformada bir araya gəlməsi və reallıqların işıqlandırılması artıq öz töhfəsini verir: “Vahid platformalar çərçivəsində aparılan dialoq və müzakirələr problemlərin səsləndirilməsi ilə məhdudlaşmır, eyni zamanda ortaq strategiyaların formalaşdırılmasına, qarşılıqlı dəstək mexanizmlərinin qurulmasına və beynəlxalq institutlar qarşısında koordinasiyalı mövqe nümayiş etdirilməsinə imkan yaradır. Bu isə öz növbəsində neokolonial yanaşmalara qarşı hüquqi və siyasi mübarizənin daha sistemli xarakter almasına şərait yaradır”. Onun fikrincə, gənc nəslin tarixi ədalətsizliklər barədə obyektiv məlumatlandırılması, milli kimliyin və mədəni irsin qorunması istiqamətində atılan addımlar gələcəkdə daha müstəqil və dayanıqlı cəmiyyətlərin formalaşmasına zəmin yaradır.



**Dekolonial tədqiqatlar sahəsində multidisiplinar tədqiqatçı, “Qara Sivilizasiya” Muzeyinin kuratoru Natali Elizabet Mba Bikoro** XQ-yə şərhində bildirdi ki, kolonial irs bu gün də institutlarda, incəsənət məkanlarında və ictimai şüurda müxtəlif formalarda mövcudluğunu qoruyur: “Bu baxımdan dekolonial yanaşma susdurulmuş səsləri eşitmək, alternativ məlumat tanımaq və bərabərhüquqlu mədəni dialoqu bərpa etmək baxımından yüksək dəyərləndirilməlidir. Muzeylər və mədəniyyət institutları da prosesdə xüsusi rol oynayır. Sərgilər və kuratorluq layihələri vasitəsilə artefaktların nümayişi ilə yanaşı, həm də hekayələrin reallıq kontekstində təqdimatı, mənimsənilmiş irsin qaytarılması və kollektiv yaddaşın yenidən qurulması mümkün olacaq. Bu isə cəmiyyətlərə öz tarixi ilə üzləşmək və onu ədalətli şəkildə dəyərləndirmək imkanı yaradacaq”.

**Okeaniya Müstəqillik Hərəkatının məsləhət şurasının üzvü Orian Sinqon Trolü** XQ-yə açıqlamasında söylədi ki, dekolonizasiya mövzusunda baş tutan beynəlxalq konfranslar müstəmləkə qurbanı olan xalqlarda azadlıq ruhunu daha da gücləndirir: “Məsələn, Okeaniya regionunda öz müqəddəratını təyinetmə hüququ uğrunda mübarizə getdikcə güclənir. Uzun illər davam edən xarici idarəçilik modelləri yerli icmaların sosial-iqtisadi inkişafına, ənənəvi idarəetmə institutlarına və mədəni kimliyinə ciddi təsir göstərib. Bu baxımdan müstəqillik ideyası region xalqları üçün öz resursları üzərində nəzarətin təmin olunması, yerli dəyərlərin qorunması və gələcək nəsillər üçün dayanıqlı inkişaf modelinin qurulması anlamına gəlir”.

Orian Sinqon Trolü, həmçinin onu da vurğuladı ki, beynəlxalq hüququn prinsipləri, xüsusilə də xalqların öz müqəddəratını təyinetmə hüququ müasir dünya nizamının əsas sütunlarından biridir: “Lakin bu hüququn praktik reallaşdırılması üçün beynəlxalq ictimaiyyətin obyektiv və ardıcıl mövqeyi mühüm əhəmiyyət daşıyır. Region ölkələri və qlobal tərəfdaşlar arasında açıq dialoq, şəffaf referendum mexanizmləri və insan hüquqlarına hörmət sabit və ədalətli keçidin əsas şərtləridir. Okeaniyada artan vətəndaş fəallığı və gənclərin prosesə qoşulması müstəqillik ideyasının daha geniş ictimai dayaqlara malik olduğunu göstərir”.

Beləliklə, konfransda səsləndirilən fikirlər onu söyləməyə əsas verir ki, müstəmləkəçilik mirası siyasi və iqtisadi strukturlarla yanaşı, xalqların kollektiv psixologiyasında da dərin izlər buraxıb. Zorakılıq, ayrı-seçkilik və sistemli ədalətsizlik şəraitində formalaşmış cəmiyyətlərdə travmatik təcrübələr nəsildən-nəslə ötürülür.



Bu təsirlər isə sosial etimadsızlıq, milli kimlik böhranı, özünüqiymətləndirmə hissinin zəifləməsi və uzunmüddətli ictimai gərginliklər şəklində büruzə verir. Ona görə də dekolonizasiya prosesi, sadəcə, siyasi müstəqilliklə yekunlaşmamalıdır. Tarixi ədalətin, kollektiv yaddaşın bərpası, mədəni identikliyin gücləndirilməsi və psixoloji sağalma istiqamətində kompleks və davamlı addımlar atılmalıdır.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Moskva təklif verir, Tbilisi rədd edir

**Bu günlərdə Rusiya Abxaziya ərazisindən keçməklə Gürcüstanla dəmir yolu əlaqəsinin bərpası imkanını yenidən gündəmə gətirib. Bu barədə bu ölkənin baş nazirinin müavini Aleksey Overçuk açıqlama verib. O bildirib ki, Qafqazda pozulmuş bütün nəqliyyat xətlərinin açılması istiqamətində iş aparılır və bu çərçivədə Rusiya ilə Gürcüstan arasında Abxaziya vasitəsilə dəmir yolu əlaqəsinin bərpası variantı nəzərdən keçirilir. Marşrut regionda nəqliyyat-logistika bağlılığının gücləndirilməsi üzrə "böyük vəzifənin" bir hissəsi kimi nəzərdə tutulub.**



Bu layihənin reallaşması birbaşa Gürcüstanın mövqeyindən asılıdır. Rəsmi Tbilisinin mövqeyi isə sərt olub. O, həm dəmir yolu rəhbərliyi, həm də parlament səviyyəsində hər hansı danışıqların aparılmadığını bildirib. Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvili qeyd edib ki, münasibətlərin və nəqliyyat əlaqələrinin bərpası yalnız Gürcüstanın ərazi bütövlüyünün tanınması və işğal olunmuş ərazilərin işğaldan azad olması şərtilə mümkündür.



Qeyd edək ki, Tbilisinin bu məsələdəki mövqeyi həm siyasi, həm də milli təhlükəsizlik amilləri ilə bağlıdır. Birincisi, dəmir yolu xəttinin işə düşməsi işğal olunmuş ərazilərdə Rusiya hərbi kontingentinin logistik imkanlarının artmasına və mövqelərinin daha da möhkəmlənməsinə şərait yaradır. İkincisi, Rusiyanın Abxaziyanın "müstəqilliyini" tanıması səbəbindən sərhəd və gömrük nəzarətinin qondarma rejim tərəfindən həyata keçirilməsi ehtimalını artırır. Bu isə Gürcüstanın suverenlik hüquqlarının birbaşa pozulmasıdır.

Tbilisinin maraqlarına toxunan başqa bir bir həssas məqam da var. Bu, sektorun statusu ilə bağlıdır. Rəsmi Tbilisi haqlı olaraq tələb edir ki, dəmir yolu xətti SSRİ dövründə olduğu kimi "Gürcüstan dəmir yolunun Abxaziya sektoru" adlandırılsın. Məsələnin texniki və maliyyə tərəfini də unutmaq olmaz. Uzun illərdir baxımsız qalan, infrastrukturu talan edilmiş və strateji körpüləri, tunelləri sıradan çıxmış Oçamşir–Zuqdidi xətti hazırda yalnız köhnə xəritələrdə mövcuddur. İqtisadi hesablamalara görə, bu xəttin sıfırdan qurulması üçün tələb olunan 300–500 milyon dollarlıq investisiya siyasi legitimlik problemi həll olunmadıqca investorlar üçün də böyük risk daşıyır. Həmçinin layihənin Poti limanı vasitəsilə həyata keçirilən dəniz ticarətini zəifləməcəyi və dövlət gəlirlərinə zərər vuracağı qorxusu da iqtisadi ekspertlər tərəfindən mütəmadi olaraq vurğulanır.

Mövzu ilə bağlı **gürcüstanlı siyasətçi Vüqar İsayev** bildirdi ki, rəsmi Tbilisi üçün iqtisadi mənfəət və regional tranzit dividendləri dövlət bütövlüyü prinsiplərini, milli suverenliyin toxunulmazlığını əsla üstələyə bilməz: "Gürcüstan rəhbərliyinin nümayiş etdirdiyi iradə Rusiya ilə hər hansı kommunikasiyanın yalnız və yalnız beynəlxalq hüquq normaları, dövlətlərin suverenliyi və tanınmış sərhədlərin toxunulmazlığı çərçivəsində mümkün olduğunun rəsmi bəyanıdır. Gürcüstan tərəfi başa düşür ki, Abxaziya üzərindən keçən dəmir yolu xəttinin Rusiyanın şərtləri daxilində bərpası, faktiki olaraq, işğalın legitimliyini tanımaq, münaqişənin dondurulmuş vəziyyətdən işğalçı dövlətin xeyrinə həllinə yol açmaqdır".

Ekspertin sözlərinə görə, Tbilisinin prinsipial mövqeyi həm də iqtisadi təhlükəsizlik doktrinası ilə sıx bağlıdır: "Gürcüstanın dövlət strategiyasında iqtisadi layihələr suverenliyi möhkəmləndirməli, onu zəiflətməməlidir. Abxaziya dəmir yolu marşrutunun açılması ilə bağlı Moskvanın irəli sürdüyü təşəbbüslər Gürcüstanın daxili siyasi və hüquqi arxitekturasına qarşı yönəlmiş "yumşaq güc" alətidir. Bu yolun açılması Gürcüstanın gömrük və sərhəd rejimi üzərində nəzarətini itirməsi ilə nəticələnə bilər. Beynəlxalq hüquq normalarına görə, dəmir yolu xətti dövlət sərhədindən keçdiyi andan həmin ölkənin yurisdiksiyasına tabe olmalıdır. Lakin Rusiya tərəfi Abxaziyanı "müstəqil tərəf" kimi masaya oturtmağa çalışmaqla, Gürcüstanın öz ərazisi üzərindəki konstitusion hüquqlarını heçə saymağa cəhd edir. Bu isə Tbilisinin "qırmızı xətti"dir. Şübhəsiz ki, bu, nəqliyyat layihəsindən çox, suverenlik və beynəlxalq hüquq məsələsidir və Gürcüstanın maraqlarına xidmət etmir".

V. İsayev onu da bildirdi ki, Gürcüstanın mövqeyi strateji əhəmiyyət daşıyır: "Ölkənin Poti və Batumi kimi dəniz limanları, habelə beynəlxalq əhəmiyyətli Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi ölkəni qlobal nəqliyyat qovşağına çevirib. Abxaziya xəttinin nəzarətsiz açılması bu limanların tranzit yük həcmini azalda, Gürcüstanın tranzit asılılığını Şimal istiqamətinə yönəldə bilər. Gürcüstan hökuməti yaxşı anlayır ki, legitimlik tanınmadan həyata keçirilən hər bir layihə işğal zonasında qeyri-qanuni rejimlərin ömrünün uzadılmasına xidmət edəcək".

Bəs Gürcüstanın açıq, milli maraqlarına söykənən mövqeyinə baxmayaraq, Rusiyanın Abxaziya vasitəsilə dəmir yolu marşrutunun bərpasını tez-tez gündəmə gətirməsinə səbəb nədir? Əslində, Rusiyanın Abxaziya üzərindən keçən dəmir yolu xəttinə maraq göstərməsi təsadüfi deyil. Bu seçim təkcə logistikaya deyil, həm də geosiyasi və təhlükəsizliyə əsaslanır. Eyni




zamanda, regionun nəqliyyat arxitekturası uğrunda gedən rəqabətlə bağlıdır.

Uzun illərdir ki, Ermənistanın dəmir yolu infrastrukturu Rusiya Dəmir Yollarının törəmə müəssisəsi olan "Cənubi Qafqaz Dəmir Yolları" tərəfindən idarə olunur. Moskvanın bu ölkədə həlledici söz sahibi olmasını təmin edirdi. Lakin 2025-ci ilin avqustunda regionun nəqliyyat mənzərəsini kökündən dəyişən mühüm bir hadisə baş verdi. Zəngəzur üzərindən keçməsi planlaşdırılan və Rusiyanın iştirakı olmadan nəzərdə tutulan TRIPP marşrutu üzrə sazişin imzalanması vəziyyəti alt-üst etdi. Qərb strukturları ilə daha sıx inteqrasiya olunan və Avropa bazarına birbaşa çıxışı prioritetləşdirən bu marşrut, Moskvanı regionda formalaşan yeni nəqliyyat modellərindən tamamilə kənarda qalmaq təhlükəsi ilə üz-üzə qoydu. Məhz bu layihə Kremli Cənubi Qafqazda sülh prosesində və kommunikasiyaların açılmasında "ofsayd" vəziyyətinə düşməmək üçün öz alternativ "marşrutlarını" axtarmağa məcbur etdi.

Rusiyaya görə, Abxaziya üzərindən keçən dəmir yolu xətti ideal rəqabət alətidir. Çünki bu marşrut Moskvanın hərbi və siyasi mövcudluğunu saxladığı, faktiki nəzarət etdiyi ərazidən keçir və təhlükəsizlik baxımından Kreml üçün daha əlverişlidir. Moskvanın Abxaziya istiqamətində fəallığı da məhz bu strateji rəqabətdə mövqeyini qorumaq, Cənubi Qafqazda mərkəzi oyunçu statusunu saxlamaq və Qərb yönümlü regional inteqrasiya modellərinə qarşı alternativ yaratmaq cəhdidir. Yəni "mən də varam, regionda söz sahibiyəm". Tarixi təcrübə sübut edir ki, Şimal qonşumuz üçün nəqliyyat xətləri, sadəcə, iqtisadi arteriya deyil, ilk növbədə, siyasi təsir rıçağıdır. Onların "böyük vəzifə" dedikləri planın təməlində iqtisadi səmərəlilikdən çox, geosiyasi hökmranlıq dayanır. Lakin rəsmi Tbilisinin sərt və prinsipial mövqeyi, habelə regionda formalaşan yeni beynəlxalq tranzit modelləri bu təşəbbüsün reallaşmasını çətinləşdirən əsas amillər kimi qalmaqdadır.

Beləliklə, Abxaziya üzərindən dəmir yolu təşəbbüsü iqtisadi maraqlardan çox, geosiyasi idarəetmə məntiqinə əsaslanan strateji bir rəqabət alətidir. Hazırkı şəraitdə bu təşəbbüs real nəqliyyat layihəsindən daha çox, regionda nüfuz uğrunda gedən genişmiqyaslı geosiyasi mübarizənin tərkib hissəsi kimi qalmaqdadır. Yeni beynəlxalq nəqliyyat dəhlizi (TRIPP) kontekstində Moskvanın bu cəhdləri bələyindəcə ölü doğulmuş bir layihə təsiri bağışlayır və yaxın onilliklərdə reallaşması qeyri-mümkün görünür. Cənubi Qafqazın nəqliyyat gələcəyi isə işğalçı modellər üzərində deyil, ölkələrin ərazi bütövlüyünə hörmət və şəffaf beynəlxalq əməkdaşlıq üzərində qurulacaqdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Rusiyanın Ermənistanı "bir gecədə çökdürmək" məntiqi

## *Yaxud Şoyqunun dedikləri, TRIPP və Kremlin "dəmir (yolu) əyləci"*

**Ermənistanın Baş naziri Nikol Paşinyanın ölkəsinin dəmir yollarının Rusiya şirkətinin nəzarətində olmasının potensial tərəfdaşları qorxuya salmasına, regional layihələrə maneçilik törətməsinə dair fikri Kremlətrafı dairələrdə sərt etirazlar doğurub. Bir müddət əvvəl Rusiya Baş nazirinin müavini Aleksey Overçuk bununla əlaqədar mövqeyini bildirmişdi. İndi isə məsələyə diqqət yetirən ölkənin Təhlükəsizlik Şurasının katibi, sabiq müdafiə naziri Sergey Şoyqudur. Özü də söhbət son dərəcə sərt və daha detallı diqqətdən gedir.**

O da məlumdur ki, Azərbaycan və Ermənistan arasında ötən il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Birgə Bəyannamənin "Tramp marşrutu", yaxud qısaca TRIPP məntiqinə görə, Azərbaycanın digər ərazilərindən Naxçıvana quru yolu nəzərdə tutulur. Bu marşrut avtomobil yolu ilə yanaşı, özündə daha mühüm olan dəmir yolu seqmentini birləşdirir. Bilavasitə TRIPP-ə qarşı cəbhə açmayan Kreml rəsmilərinin üzərində dayandıqları başlıca mətləb məhz dəmir yoludur. O mətləb ki, kökündə Rusiya amili var. Axı Ermənistanın dəmir yolları Moskvanın tabeliyindədir və Şoyqunun diqqətə çatdıracağımız fikirləri sözügedən tabeliyin dərinliyindən xəbər verir. O qədər dərin ki, Rusiyanın onu Ermənistana təsir rıçağına çevirməsi mümkündür. Bu rıçaq isə Kremlə həm də anti-TRIPP davranışı üçün tutacaq nöqtə qazandırır.

Əlqərəz, S.Şoyqunun sözlərindən gəlinən qənaət budur ki, rəsmi İrəvanın dəmir yolu şəbəkəsinin idarəçiliyinin həm Rusiya, həm də Ermənistana dost ölkəyə verilməsi məsələsini müzakirəyə çıxarması yolverilməzdir. Onun fikrincə, bu, mövcud sferada Rusiyanı əvəzləmək cəhdidir və belə bir cəhd İrəvana baha başa gələ bilər: "Ermənistan hakimiyyətinin dəmir yollarının idarə edilməsində Rusiyanı əvəzləmək istəyi yanlış qərardır, onların qurduğu sistem "bir gecənin içində çökə bilər".

S.Şoyqu digər ölkələrin dəmir yolu idarəçiliyi sahəsindəki səriştəsi barədə mühakimə yürütmək niyyətində olmadığını da bildirib. Lakin əminliklə vurğulayıb ki, Ermənistanda uzun müddətdir ən çətin şəraitdə fəaliyyət göstərən Rusiya dəmir yolu daşıyıcısını hansısa başqa şirkətin tamamilə əvəzləməsi real görünmür. Amma məsələ təkcə bunda deyil.



Moskva, eyni zamanda, İrəvanın nüvə məsələlərində ABŞ-la əməkdaşlıq planlarından narahatdır. Ona görə də Şoyqu buna dair bir neçə gün əvvəl açıqlama verdiyini xatırladıb. Rusiya rəsmisinin bu xatırlatması onu göstərir ki, Kreml dəmir yolu ilə nüvə məsələsini eyni prizmadan qiymətləndirir və hər ikisini yanlış sayır. Ən başlıcası isə Şoyqu yanlışlığın nəyə gətirib çıxaracağına dair ritorik sual səsləndirir ki, bu sualı, müəyyən mənada, şantaj kimi də qiymətləndirmək mümkündür: "Beləliklə, diplomatik dildə desək, bu cür yanlış düşünülmüş qərarlar sıravi Ermənistan vətəndaşlarının bədəlini ödəməli olacağı təhlükəli sınaqlara gətirib çıxara bilərmi?"

S.Şoyqunun fikirlərindən gəlinən nəticə budur ki, Rusiyanın Ermənistanın dəmir yolları şəbəkəsindən uzaqlaşdırılması nəticəsində yaranacaq durumun fəsadlarını ikincinin özünə dost bildiyi heç bir ölkə qarşılaya bilməz. Bu səbəbdən o, rəsmi İrəvanın mühüm qərarlar qəbul edərkən, müstəsna olaraq, öz vətəndaşlarının maraqlarından çıxış edəcəyinə ümid bəslədiyini bildirib. İstər-istəməz, suallar yaranır: Rusiya Ermənistanın dəmir yolu şəbəkəsindən uzaqlaşdırılsa, nə baş verər? Yəni, doğrudanmı, Şoyqunun diplomatik hədə-qorxusu blef deyil? Suallara cavab olaraq bəzi məqamlara, həmçinin, rusiyalı rəsminin növbəti fikirlərinə nəzər salaq. Deməli, S.Şoyqu bildirib ki, təxminən 20 ildir Rusiya dəmir yollarının özəyi sayılan "Cənubi Qafqaz Dəmir Yolları" (CQDY) konsessiya müqaviləsinin şərtlərini, o cümlədən, investisiyalarla bağlı öhdəlikləri məsuliyyətlə yerinə yetirib. Nəticədə ötən müddətdə Ermənistanın dəmir yolları sisteminə, habelə, vaqon-lokomotiv parkına 30 milyard rubldan çox, təxminən 400 milyon dollara yaxın investisiya yatırılıb. Yəni ortada belə bir rəqəm varsa, Paşinyan mövcud sahədə anti-Rusiya xətti yürüdə bilməz.

Üstəlik, Şoyqu İrəvanla bağlanmış müqavilənin CQDY-nin konsessiyaçı kimi aktivlərə sahibliyini, onların istifadəsini, idarə olunmasını, istismarı, saxlanılması, təmir və lazımi təkmilləşdirmə işlərinin aparılmasını nəzərdə tutduğunu deyib: "Sazişin imzalanması zamanı Rusiya tərəfi Ermənistan dəmir yolu sisteminin 1200-dən çox daşınmaz əmlakı və 12500-dən çox daşınar aktivi üçün məsuliyyəti öz üzərinə götürüb".

Şoyqunun diqqət yetirdiyi başqa məqamlar da var. O bildirib ki, son 20 ildə sözügedən konsessiya müqaviləsi sayəsində Ermənistan büdcəsinə vergi şəklində 15 milyard rubldan çox, təxminən 200 milyon dollara yaxın vəsait daxil olub və 520 kilometrdən çox dəmir yolu təmir edilib, halbuki CQDY QSC tərəfindən idarə olunan şəbəkənin istismar uzunluğu təxminən 700 kilometrdir.

Yəni Rusiya nəinki saziş öhdəliklərini yerinə yetirib, həmçinin, lazım olduğundan da artıq işlər görüb. Amma bu da hələ son deyil. "Şpal"ların 50 faizi dəyişdirilib, 50-dən çox struktur, o cümlədən 38 körpü və iki tunel təmir və bərpa olunub. İki illik statistikaya baxsaq, mənzərə belədir: orta hesabla CQDY QSC ildə 500 mindən çox sərnişin (onlardan təxminən 360 mini yerli daşımalardır) və 1,6 milyon tondan çox yük daşıyır", - deyən Şoyqu CQDY-nin Ermənistan iqtisadiyyatına verdiyi töhfəni yüksək qiymətləndirib və ölkənin ehtiyacları üçün lazım olan bütün yüklərin bu şirkət tərəfindən daşındığını vurğulayıb.

Bundan başqa, Şoyqu açıqlamasında CQDY-nin Ermənistandakı missiyasının stratejiliyindən söz açıb. O deyib ki, dəmir yolu həm də dənizə çıxışı olmayan ölkə üçün quru nəqliyyat əlaqələrini təmin edən müstəsna vasitədir. Elə bir vasitə ki, Şoyqunun fikrincə, Ermənistanın sosial strukturuna da təsir gücünə malikdir: "Bütün bunların arxasında insanlar, şirkət işçiləri dayanır. Hazırda şirkət işəgötürən kimi 2500-dən çox insanın məşğulluğuna təminat verir. Yeri gəlmişkən, onların demək olar ki, hamısı Ermənistan sakinləri və vətəndaşlarıdır. Onlar bütün lazımi sosial müavinətləri alırlar".

S.Şoyqu SSRİ-nin dağılmasından sonra Ermənistanın dəmir yolu sisteminin ciddi böhran yaşadığını yada salıb. Onun sözlərinə görə, həmin vaxt infrastruktur kəskin şəkildə pisləşmişdi, dəmir yolunun bir çox hissəsi qar uçqunları və torpaq sürüşmələri səbəbindən işləmirdi. Daha sonra baş verənlər məlumdur. Yəni "Rusiya Dəmir Yolları" və "Cənubi Qafqaz Dəmir Yolları" ("Rusiya Dəmir Yolları"nın xüsusi yaradılmış törəmə müəssisəsi) arasında Ermənistanın dəmir yolu sisteminin 2038-ci ilə qədər "Cənubi Qafqaz Dəmir Yolları"-na verilməsi barədə konsessiya müqaviləsi 2008-ci ilin fevralında imzalanmışdı.

Sonda yenidən Baş nazir Paşinyanın açıqlamasına qayıdaq. Paşinyan Ermənistanın dəmir yolları üzrə konsessiya hüququnu həm Rusiyaya, həm də ölkəsinə dost olan bir dövlətə satmasını təklif edərkən, Qazaxıstan, BƏƏ və Qətərin adını çəkmişdi. Şoyqunun bildirdikləri və əsaslandırdıqları məqamlar onu deməyə əsas verir ki, Kreml Ermənistanda dəmir yolları xüsusundakı rıçağını heç kəsə güzəştə getmək niyyətində deyil və əslində, buna təbii yanaşmaq mümkündür. O anlamda ki, 2018-ci ildə Nikolun hakimiyyətə gəlməsi ilə Ermənistana təsir vasitələrini əldən verən Moskva indi ən mühüm vasitə olan dəmir yolu üzərindəki konsessiyadan əlini çəkmək istəmir.

Digər tərəfdən, Şoyqu, faktiki olaraq, onu da bildirir ki, heç bir dövlət Rusiyanın Ermənistandakı dəmir yolu üstünlüyünü pulla satın ala bilməz. Heç şübhəsiz, onun sadaladıqları nüansların ümumi maliyyə dəyərini hesablasaq, ortaya fantastik rəqəm çıxacaq. Belə olan halda, bir müddət əvvəl Ermənistan dövlətinin təmsilçiləri tərəfindən verilmiş Rusiyanı TRIPP layihəsindən kənarda tutmaqla bağlı açıqlama da mənasızlaşır. Müvafiq surətdə, Moskvanın qlobal marşrutda iştiraka dair mövqeyini nəzərə almaq zərurəti yaranır. Hadisələrin gələcək axarı necə olacaq, bunu zaman göstərəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Gözlənilməz ssenarilər



## I MƏQALƏ

### Tarixi tezis

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 15-də Serbiyaya səfəri çərçivəsində aparılan müzakirələrdə bir tarixi tezis irəli sürmüşdür. Dövlət başçısı Belqradda Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin iştirakı ilə iki ölkə arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasında ifadə etmişdir: “Balkanlarda, Cənubi Qafqazda və daha geniş regionda vəziyyət çox sürətlə inkişaf edir, bir çox gözlənilməz ssenarilər mövcuddur”.

Bu fikrin əhəmiyyətini KİV dərhal dərk etmişdir və onu geniş yaymışdır. Bununla yanaşı, Azərbaycan liderinin vurğuladığı və müasir qlobal geosiyasətin bir nömrəli məsələsi olan xüsusiyyət ikinci bir məqamın fonunda daha vacib görünür. Prezident İlham Əliyev fikrinə davam edərək çox mühüm bir mesajı dünyaya çatdırmışdır. Azərbaycan dövlət başçısı demişdir ki, “Ona görə də fikir mübadiləsi, məlumat mübadiləsi aparmaq, baş verənlərlə bağlı müəyyən təhlillər etmək üçün hazır və daimi əlaqədə olmalıyıq ki, hədəfimizə maksimum dərəcədə çataq”.

Ayrı-ayrı regionlarda və bütövlükdə dünyada geosiyasi situasiyanın XXI əsrdə çox sürətlə dəyişdiyindən əksəriyyət bəhs edir. Bu çərçivədə “gözlənilməz ssenarilər” daha vacib və proqnostik aspekti olan fikir təsiri bağışlayır. Çünki burada artıq əksəriyyətin qəbul etdiyi geosiyasi dinamikanın mümkün praktiki nəticələri sferasına keçid vardır. Yəni dünya miqyasında (o cümlədən, regionlarda və regionlararası məkanda) vəziyyətin sürətlə inkişaf etməsinin hazırda ən aktual tərəfi gözlənilməz, lakin mümkün ola bilən ssenarilərin reallaşması ehtimalının yüksək olması ilə bağlıdır. Məsələnin siyasi-diplomatik fəaliyyət kontekstində önəmli cəhəti bununla əlaqəlidir.

Siyasi nəzəriyyə prizmasından baxsaq, məsələnin bu cür qoyuluşunun realpolitika baxımından əhəmiyyətini görə bilərik.

**Birincisi,** “gözlənilməz ssenari” həmişə özündə qeyri-müəyyənliyi, riskləri, öncədən nəticəni görməməyi və digər yayğın anlamları ehtiva edir. Dövlətçilik isə həmişə dəqiq, aydın, şəffaf, öncədən proqnozlaşdırıla bilən situasiyalara üstünlük verir. Gözlənilməz ssenarilər proseslərin mövcud gedişini poza bilir. Bu halda sonrakı vəziyyətin necə olacağı məlum olmur. Dövlət belə gedişlə “qapalı neqativ situasiyalara” düşə bilir. Yəni ölkə bir-birinin ardınca eyni neqativ şəraitə yuvarlanır. Belə mənzərə istənilən dövlətin müstəqilliyi və suverenliyini şübhə altına alır.

**İkincisi,** siyasətdə bütün hallarda son olaraq, ümumiyyətlə, aktiv siyasi aktorların fəaliyyətləri ciddi rol oynayır. Liderlər isə bu prosesdə daim aparıcı olurlar.

Deməli, təməldə gözlənilməz ssenarilərin yaranmasında siyasi liderlərin davranışları, sistemli fəaliyyətləri və həyata keçirdikləri konseptual kursların mahiyyəti həlledici rol oynayır. Buradan məntiqi olaraq üçüncü mühüm məqam meydana gəlir.

**Üçüncüsü,** gözlənilməz geosiyasi ssenarilərin meydana gəlməsində başqa faktorlardan öncə siyasi liderlərin öncədən görülə bilinməyən davranışları (unpredictable behavior of leaders) təsirli olur. Əslində, “öncədən görülə bilinməyən davranışlar” da “gözlənilməzlik” kateqoriyasının semantik sahəsinə daxildir.

Bu qısa nəzəri müqayisələrdən Azərbaycan Prezidentinin tarixi “Belqrad tezisi”nin əsas daxili məntiqi bağlılığı haqqında təsəvvür əldə edə bilərik.

### Geosiyasətdə liderlik məsuliyyəti

Prezident İlham Əliyevin vurğulanan tezisində real vəziyyətin təqdimatı ilə ona liderlərin hansı münasibət göstərməsi semantik vəhdətdədir. Burada söhbət sadəcə iki fikrin bir-birini tamamlamasından getmir. Azərbaycan lideri fundamental məntiqi əlaqə səviyyəsində ifadə edir ki, hazırkı riskli, gözlənilməz ssenarilər birbaşa siyasi liderlərin aldıqları qərarlar, apardıqları siyasi kurslar və atdıqları praktiki addımlarla sıx bağlıdır. Bu, artıq müasir dünya siyasətinə fərqli yanaşmadır.

Çünki real geosiyasi mənzərə ilə siyasi liderlərin məsuliyyəti, etik keyfiyyətləri, konstruktiv psixoloji xüsusiyyətləri və bütün bunların vəhdət halında fəaliyyətdə özünü göstərməsi zərurəti ön plana çıxarılır. Məhz buna görədir ki, Azərbaycan Prezidenti gözlənilməz ssenarilərin fonunda “fikir mübadiləsi, məlumat mübadiləsi aparmaq, baş verənlərlə bağlı müəyyən təhlillər etmək üçün hazır və daimi əlaqədə olmalıyıq” müddəasını ayrıca vurğulayır. Və ardınca dərhal başlıca səbəbi ifadə edir: “hədəfimizə maksimum dərəcədə çataq”!

Azərbaycan Prezidentinin bu yanaşmasının əsas mahiyyəti və məramı vurğulanan xüsusiyyətlərdən alınır: gözlənilməz ssenarilərin üstünlük təşkil etdiyi geosiyasi situasiyalarda liderlik məsuliyyəti dövlətçilik və milli maraqlar kontekstində önə çıxmalıdır! Hər bir lider yalnız fərd olaraq bu istiqamətdə fəaliyyətlə kifayətlənməməlidir, çünki müasir dünya elədir ki, liderlik məsuliyyəti də artıq kollektiv məsuliyyət formasında müsbət nəticəverici ola bilər. Buradan ən azı 2 istiqamətdə çox mühüm qənaət əldə etmək mümkündür.

Birincisi, müasir geosiyasət “kollektiv liderlik məsuliyyəti” anlayışının semantik sahəsini müəyyən etmək zərurətini meydana çıxarır.

İkincisi, Azərbaycanın regionlararası miqyasda oyundəyişdirici gücə çevrilməsi, “iki dünya müharibəsi arasında sıxışdırılması”na baxmayaraq sülhyaradıcı olaraq qalması və sabitliyi təminetmədə başlıca regional güc olması, Bakının faktiki olaraq “regionun diplomatik paytaxtlarından biri” olması və digər nailiyyətlərin konseptual siyasi-diplomatik kökü aydın olur.

Deməli, Prezident İlham Əliyev bir qısa tezisdə əslində müasir siyasət üçün çox əhəmiyyətli olan və sistemli fəaliyyət tələb edən kursu ifadə etmişdir. Azərbaycan dövlətinin milli maraqları baxımından məsələnin bir neçə xüsusiyyəti üzərində dayanaq.

### Kollektiv liderlik məsuliyyəti

Kollektiv siyasi liderlik dövlətlər alyansından, onların kollektiv fəaliyyətindən fərqlənir. Əlbəttə, dövlətlər kollektiv fəaliyyətə liderlərin kollektiv birgə səyləri sayəsində nail ola bilərlər. Bu anlamda dövlətlərin kollektiv fəaliyyətində lider faktoru prinsipial rol oynayır. Bu kontekstdə liderlərin kollektiv məsuliyyəti faktorunun da yeri və rolu vardır. Ancaq gözlənilməz ssenarilərin reallaşması ehtimalının yüksək olduğu bir dövrdə “kollektiv liderlik məsuliyyəti” yeni məna çalarları alır. Burada ön plana liderliyin fəzilətliyi məsələsi çıxır. Fəzilətlilik etik anlayışdır, lakin siyasətdə də onun təsiri böyük olur.

Xüsusilə, müasir qlobal geosiyasi dinamikanı tədqiq edən alimlər hesab edirlər ki, qlobal miqyasda beynəlxalq hüquq işləmirsə, böyük güclər əsas olaraq öz şəxsi maraqlarına üstünlük verirlərsə, bütün dünyada siyasi liderin şəxsi potensialı, onun psixoloji özəllikləri, kommunikabelliyi, rasional siyasi məqsədi ilə şəxsi diplomatik keyfiyyəti arasındakı nisbət kimi faktorlar başlıca rol oynamağa başlayır.

Bu baxımdan siyasi liderlər arasındakı münasibətlərin xarakteri bütövlükdə situasiyanı dəyişə bilər və dövlətlər arasında münasibətlərdə yeni mərhələnin əsasını qoyar. ABŞ prezidenti tez-tez dövlətlərarası münasibətlərdən danışarkən “dostumdur”, “yaxşı insandır”, “böyük hörmətim var” kimi ifadələri təsadüfən işlətmir. Bu onu göstərir ki, ABŞ kimi qüdrətli bir dövlət fəaliyyətində müasir beynəlxalq hüququn normalarını əsas götürmür. Əksinə, onlardan imtina edib, yeni normalar yaratmağa çalışır.

BMT faktiki olaraq rudimentdir. Digər böyük güclər də eyni məntiqlə hərəkət edirlər. Onilliklərdir ki, müxtəlif siyasi liderlər BMT-də islahatların zəruriliyindən bəhs edirlər. Ancaq real addımlar atılmır. İndi BMT baş verən hadisələrə gecikmiş reaksiya verən və hər dəfə də “üzü danlanan” quruma çevrilmişdir.

Belə alınır ki, müasir qlobal geosiyasətdə başlıca meyar mövcud hüquqi normalar, beynəlxalq münasibətlər sistemini əsas qəbul edib, onun fonunda fəaliyyət göstərməkdən ibarət deyildir. Belə bir mərhələdə hər bir dövlət üçün liderin gücü önə çıxır.

Bundan başqa, dövlətlərarası əlaqələrdə ortaq maraqların formalaşdırılması və qarşılıqlı etimadın əsas yer tutması kimi məsələlər də daha aktual olur. Lider hər bir situasiyada səmimi, xoşniyyətli və etibarlı olmalıdır. Fərdi olaraq liderin məsuliyyəti bu kimi şəxsi keyfiyyətlərin üzərində bərqərar ola bilər. Kollektiv liderlik məsuliyyətinin mənəvi və siyasi qaynağı bu məqamla əlaqəlidir.

### Müharibələrlə əhatələnmiş region

Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz regionunun geosiyasi vəziyyəti kollektiv liderlik məsuliyyəti anlayışı prizmasında çox düşündürücü görünür. Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin “The National” nəşrinə müsahibəsində “Azərbaycan özünü İran və Rusiya arasında “iki dünya müharibəsi arasında” sıxılmış kimi hiss edir” deməsi, Prezident İlham Əliyevin yuxarıda vurğuladığımız konseptual xarakterli fikirlərinin məntiqi nəticələrindən biridir. Həmin kontekstdə “Vəziyyət proqnozlaşdırılmazdır və bununla əlaqədar yarana biləcək bütün təhdid və çağırışları düzgün qiymətləndirmək çətin olacaq” (H.Hacıyev) ümumiləşdirməsi Azərbaycan dövlət başçısının irəli sürdüyü tarixi tezisin semantikasından gəlinən qənaətdir.

Bunlar Azərbaycanla bağlı konkret geosiyasi mənzərənin 2 aspektini aktuallaşdırır. Birincisi, Azərbaycan ölkə olaraq iki təhlükəli müharibə arasında qalmamaq üçün hansı addımları ata bilər?

İkincisi, bu işdə Azərbaycan müttəfiqləri və tərəfdaşları ilə birgə (kollektiv məsuliyyətdən yaranan kollektiv fəaliyyət) hansı kursu reallaşdıra bilər?

Özlüyündə hər iki aspekt üzrə rəsmi Bakının artıq kifayət qədər uğurlu təcrübəsi vardır. Azərbaycan lideri Rusiya və İran istiqamətlərində elə siyasət yeridir ki, onlar, hər şeydən öncə, İlham Əliyevin etibarına, söz bütövlüyünə, ədalətliliyinə və qarşılıqlı faydalı əməkdaşlığa səmimi hazır olmasına tam inanırlar. Rusiya və İran tərəfdən olan bir sıra qərəzli hərəkətlərin qarşısını ilk növbədə məhz Azərbaycan liderinin ədaləti, səmimiyyəti və qarşılıqlı faydalı əməkdaşlığa hazırlığı alır. Rusiya indi Azərbaycanın strateji müttəfiqidir, İran rəhbərliyi isə son zamanlar Prezident İlham Əliyevin mövqeyinə uyğun olan münasibətlər göstərməkdədir.

Burada Azərbaycan liderinin davamlı olaraq həyata keçirdiyi konstruktiv regional əməkdaşlıq platformalarını ayrıca vurğulamaq lazımdır. Onların heç birindən nə Rusiya, nə də İranın kənarda saxlanması elementi yoxdur. Əksinə, hər 2 böyük qonşunun Azərbaycanın təşəbbüsü olan müxtəlif layihələrdə geniş iştirakı diqqətdə saxlanılır, onlar dəvət edilirlər. Lakin Tehran və Moskvanın bu xoşniyyətli və faydalı təşəbbüslərə necə yanaşmaları özlərindən asılıdır.

Məsələn, “3+3”də, enerji resurslarının daşınmasında, müxtəlif iqtisadi layihələrdə və ya Zəngəzur dəhlizinin işlənməsində Moskva və Tehran Azərbaycan tərəfdən həmişə diqqətə alınmışdır və indi də dəyişən bir məqam yoxdur.

Bütün bunlar bir liderin şəxsi keyfiyyətləri - kreativ fəaliyyət potensialı, səmimi, ədalətli və xoşniyyətli addımları ilə fərdi məsuliyyətinin yüksək olduğunu aydın göstərir. Bu ciddi faktordur və təcrübə göstərir ki, Rusiya və İran rəhbərliyinə əsaslı təsir etməkdədir! Məhz buna görə də hər iki dövlətin müharibə alovu içərisində və Qərblə böyük ixtilafda olmalarına baxmayaraq, Azərbaycana qarşı hər hansı ciddi pozucu addım atmırlar.

Eyni zamanda, hər iki ölkə rəhbərliyinin dolayısı ilə dövlətimizin maraqlarına uyğun olmayan müəyyən təxribatçı davranışlar da etdiyini inkar etmək olmaz. Həm də reallıq ondan ibarətdir ki, geosiyasi, siyasi, hərbi, informasiya, təhlükəsizlik kontekstində hər şeyin Azərbaycandan asılı olduğunu düşünmək sadəlövhlük olardı. Məhz buradan Prezident İlham Əliyevin ifadə etdiyi anlamda liderlərin kollektiv məsuliyyəti anlayışının nəzəri-konseptual və praktiki aspektlərinin sintezinin zərurəti aydın görünür.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Fevralın 17–18-də İsveçrənin Cenevrə şəhərində keçirilən ABŞ–Rusiya–Ukrayna üçtərəfli danışıqları nəticə etibarilə uğursuz oldu və mövqelərin institusional şəkildə qarşı-qarşıya qoyulması ilə yadda qaldı. ABŞ nümayəndəsi Stiv Uitkoffun vasitəçiliyi ilə BMT-nin Avropa bölməsinin yerləşdiyi “Palais des Nations” binasında keçirilən danışıqların strukturu göstərdi ki, tərəflər fərqli strateji məqsədlər uğrunda mübarizə aparırlar.**

# Vaxt uzandıqca münaqişə düyünü bir az da sıxılır

## *Ukrayna məcburi seçim hədəfində*



İlk günün əsas mövzusu mümkün atəşkəsin texniki mexanizmləri və monitorinq sisteminin yaradılması idi. ABŞ tərəfi beynəlxalq müşahidə mexanizminin formalaşdırılması ilə bağlı konkret model təqdim etdi və Ukrayna Prezidenti Volodimir Zelenski sonradan təsdiqlədi ki, tərəflər atəşkəsə nəzarət mexanizmi üzrə razılaşmaya “yaxınlaşıblar”. Zelenski bu məsələdə müəyyən irəliləyişin əldə olunduğunu qəbul etsə də, əsas siyasi ziddiyyətlərin açıq qaldığını vurğuladı. Bu, faktiki olaraq, onu göstərir ki, danışıqların hərbi-texniki komponenti siyasi komponentdən ayrılaraq ayrıca müzakirə olunur və bu, ABŞ diplomatiyasının mərhələli sabitləşdirmə strategiyasının elementidir.

V.Zelenski danışıqların keçirildiyi vaxt xarici nəşrə müsahibəsində dedi ki, Ukrayna xalqı ordunun şərqdəki Donbas bölgəsindən birtərəfli çıxarılmasını və vilayətin Rusiyaya verilməsini nəzərdə tutan sülh sazişini qəbul etməyəcək. O qeyd etdi ki, amerikalı nümayəndə heyəti Stiv Uitkoff və Cared Kuşner onu Rusiyanın müharibənin dayandırılmasını istədiyinə inandırmağa çalışıblar. Amma Zelenski buna skeptik yanaşaraq onlara öz xalqının "uğursuz tarix" kimi qəbul edəcəyi sülh baxışını irəli sürməyə məcbur etməməyi məsləhət görüb: “ABŞ Prezidenti Donald Trampın sülh naminə güzəştlərə açıq şəkildə Rusiyanı deyil, məhz Ukraynanı çağırması ədalətsizlikdir. Tramp üçün Ukraynaya təzyiq göstərmək böyük Rusiyaya nisbətən daha asan ola bilər, lakin davamlı sülhə gedən yol qələbəni Rusiya Prezidenti Vladimir Putinə vermək deyil”.

ABŞ nümayəndələri bu mövqeyi nəzərə aldıqlarını bildirsələr də, Rusiya tərəfi, xüsusilə prezidentin köməkçisi Vladimir Medinski Ukrayna qüvvələrinin Donbasın Rusiyanın iddia etdiyi ərazilərindən çıxarılması tələbini qoydu. Bu tələb dərhal Ukrayna tərəfindən rədd edildi. Zelenski Medinskinin bu təklifinə sərt formada cavab verdi: “Ukrayna Donbası təcavüzkar dövlət olan Rusiyanın nəzarətinə təslim edə bilməz. Amerikaya güclü ölkə kimi bütün hörmətimizi nəzərə alaraq, təhlükəsizlik zəmanətlərinə ehtiyacımız var. Amma heç kim Putinin geri qayıtmayacağına təminat verə bilməz”.

Danışıqların ikinci günündə görüşün cəmi 2 saat çəkməsi faktiki olaraq tərəflər arasında kompromisin mümkün olmadığını göstərdi. Zelenski açıq şəkildə bəyan etdi ki, ərazi məsələsində irəliləyişə nail olmağın ən yaxşı yolu Putinlə şəxsi görüşdür. O, komandasına gələcəkdə Cenevrədə liderlər səviyyəsində görüşün təşkilini tapşırdığını dedi. Zelenski, həmçinin danışıqların növbəti raundunun bu ay ərzində keçirilməsini təklif etdi. Bu bəyanat Ukraynanın taktiki səviyyədə texniki razılaşmalara hazır olduğunu, lakin strateji səviyyədə status-kvonun dəyişdirilməsinə razı olmadığını nümayiş etdirdi.

Əslində, mövcud situasiya onu deməyə əsas verir ki, Ukrayna istəməsə də gec-tez ərazi güzəştinə gedəcək. Buna səbəb Kiyevdə siyasi fikir ayrılıqlarının olmasıdır. Bir tərəf Donbas məsələsində güzəştlərə yol verən Kirill Budanovun, digər tərəf isə ərazi güzəştlərinin yolverilməzliyi ilə bağlı prezidentin mövqeyini dəstəkləyir. Bu isə Ukrayna liderinin daxildə mövqeyinin zəiflədiyini və onun yaxın çevrəsində çəkişmələrin artdığını göstərir.

***

Rusiya nümayəndə heyətinin rəhbəri Medinski danışıqları “çətin, lakin işgüzar” kimi xarakterizə edib. Bu ifadə diplomatik kontekstdə kompromisin əldə olunmadığını, lakin tərəflərin dialoqdan imtina etmədiyini göstərən standart formuldur. Medinskinin mövqeyi Kremlin strateji xətti ilə tam uyğun idi. Moskva hərbi üstünlüyünü siyasi dividendlərə çevirməyə çalışır və danışıqları hərbi strategiyanın davamı kimi istifadə edir. Rusiya tərəfi ərazi məsələlərində güzəştə hazır olmadığını açıq şəkildə nümayiş etdirdi və bu, faktiki olaraq danışıqların əsas siyasi nəticəsinin olmamasını qaçılmaz etdi.

Bu prosesdə ən diqqətçəkən məqam ABŞ-ın tutduğu mövqedir. Görünür, rəsmi Vaşinqton artıq bu müharibəyə idealist yanaşmır. Ağ Evin nümayəndəsi Stiv Uitkoffun ilk günün yekununda bildirmişdi ki, dialoq üçün real əsas yaranıb. Bu, əslində, strateji realizmin ifadəsidir. ABŞ anlayır ki, müharibənin uzanması nə Rusiyanı çökdürür, nə də Ukraynaya həlledici qələbə qazandırır. Əksinə, bu münaqişə Vaşinqtonu daha böyük geosiyasi rəqibi olan Çinlə qarşıdurmada zəiflədir. Məhz buna görə də ABŞ Prezidenti Donald Tramp açıq şəkildə bəyan etdi ki, “Ukrayna tez bir vaxtda razılığa gəlməlidir”. Vaşinqton artıq müharibənin idarəolunan şəkildə dayandırılmasında maraqlıdır.

Bu reallıq həm də onu göstərir ki, bu müharibə heç vaxt yalnız Ukrayna ilə Rusiya arasında olmayıb, əslində, post-soyuq müharibə dövrünün təhlükəsizlik arxitekturası uğrunda mübarizədir. NATO-nun genişlənməsi, Rusiyanın özünü yenidən böyük güc kimi təsdiqləmək cəhdi və ABŞ-ın qlobal liderliyini qorumaq istəyi bu münaqişənin əsas struktur səbəbləridir.

Cenevrə danışıqları bir həqiqəti açıq şəkildə ortaya qoydu: müharibələr yalnız cəbhədə deyil, siyasi iradə səviyyəsində qazanılır və ya itirilir. Bu gün Ukrayna cəbhədə müqavimət göstərir, Rusiya mövqelərini qoruyur, ABŞ isə nəticəni müəyyən edəcək geosiyasi çərçivəni formalaşdırır. Bu o deməkdir ki, müharibənin sonu böyük güclərin razılığa gəlməsi ilə müəyyən olunacaq.

***Tacir SADIQOV***
***XQ***

## *Ekspert rəyi*



**Tofiq ABBASOV,**
**politoloq**

Üçtərəfli müzakirələr, gözlənildiyi kimi, tərəflərin bir-birinə qarşı barışmaz mövqe nümayiş etdirməsi ilə yekunlaşdı. Stiv Uitkoffun moderatorluğu ilə keçən bu təmaslar sülhə nail olmaqdan ziyadə, mövcud siyasi və hərbi uçurumun nə qədər dərin olduğunu bir daha üzə çıxardı. Baxmayaraq ki, ilk gündə atəşkəsin texniki detalları və beynəlxalq monitorinq qruplarının fəaliyyəti barədə müəyyən "yaxınlaşma" qeydə alındı, Volodimir Zelenskinin bəyanatları göstərdi ki, hərbi-texniki razılaşmalar hələ siyasi həll demək deyil.

Danışıqların ikinci gününün cəmi 2 saat çəkməsi və tərəflərin masanı nəticəsiz tərk etməsi faktiki olaraq diplomatik çıxılmaz vəziyyətin təsdiqi idi. Rusiya nümayəndə heyəti, xüsusilə Vladimir Medinski, hərbi üstünlüyü ərazi iddialarına çevirmək xəttini davam etdirərək Ukraynanın kapitulyasiyasına bərabər tələblər irəli sürdü. Digər tərəfdən, Donald Tramp administrasiyasının Ukraynanı daha çox güzəştə sövq etməyə çalışması Kiyev üçün həm xarici təzyiq, həm də daxili siyasi gərginlik deməkdir.

Mövcud mənzərə göstərir ki, yaxın perspektivdə tərəflərin real barışığa nail olması ehtimalı olduqca aşağıdır. Münxen Təhlükəsizlik Konfransında Avropa liderlərinin, xüsusən Almaniya kansleri Mertsin sərt və aqressiv çıxışı göstərir ki, Avropa hələ də Rusiyanın tam zəiflədilməsi strategiyasına sadiqdir və bu, ABŞ-ın savaşı "dondurma" planı ilə ziddiyyət təşkil edir. Moskva isə öz növbəsində Avropanı deyil, məhz Vaşinqtonu yeganə legitim tərəf-müqabili hesab edərək bütün sövdələşmələri Ağ Evlə koordinasiya etməyə çalışır. Nəticə etibarilə, Cenevrə görüşü müharibənin taleyini həll etmədi, sadəcə, böyük güclərin yeni dünya nizamı uğrunda apardıqları mübarizənin növbəti bir mərhələsi kimi tarixə düşdü.

# Rəşt–Astara dəmir yolu "Şimal – Cənub" dəhlizinin önəmli həlqəsinə çevriləcək

**"Şimal–Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin tərkib hissəsi olan Rəşt–Astara dəmir yolu layihəsinin praktiki icrasına 2026-cı il aprelin 1-dən start veriləcək. Rusiyanın energetika naziri Sergey Tsivilyov Rusiya ilə İran arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclası çərçivəsində jurnalistlərə açıqlamasında bildirib ki, layihənin icrasını ləngidən bütün mübahisəli məsələlər, o cümlədən torpaq qeydiyyatı və zəruri güzəştlərin əldə olunması ilə bağlı çətinliklər artıq aradan qaldırılıb. Onun sözlərinə görə, layihənin başlanmasına dair yekun razılaşmanın aprelin 1-də Rusiyada keçiriləcək Nəqliyyat Həftəsi zamanı imzalanması nəzərdə tutulur.**



Qeyd edək ki, İran ərazisində 162 kilometrlik bu xəttin tikintisi dəhlizin qərb qolunda illərdir mövcud olan əsas boşluğu aradan qaldıracaq və Rusiyadan başlayaraq Azərbaycan üzərindən İran və Hindistan istiqamətinə uzanan tranzit zəncirini tam funksional vəziyyətə gətirəcək.

Məlum olduğu kimi, "Şimal–Cənub" dəhlizi Avrasiya məkanında ən strateji nəqliyyat layihələrindən biri hesab olunur. Marşrutun əsas məqsədi yükdaşımaları Süveyş kanalından keçən dəniz yolları ilə müqayisədə daha qısa müddətə və daha sərfəli xərclə həyata keçirməkdir. Bu layihənin reallaşması isə xüsusilə Azərbaycan üçün əlavə strateji imkanlar açır.

Yeri gəlmişkən, Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsində "təbii körpü" funksiyasını yerinə yetirir. Ölkənin əlverişli coğrafi mövqeydə yerləşməsi ona əlavə üstünlüklər qazandırır. Respublika həm Şərq–Qərb, həm də Şimal–Cənub marşrutlarının kəsişməsində yerləşir. Məhz bu mövqe Azərbaycanın regional logistika mərkəzi kimi çıxış etməsinə imkanı verir.

Rəşt–Astara dəmir yolunun tamamlanması Azərbaycanın tranzit rolunu daha da gücləndirəcək. Çünki Rusiya və İran arasında yük axınları məhz Azərbaycan üzərindən keçən xətlə daha sistemli, daha sürətli və daha sabit şəkildə təşkil ediləcək.

### Azərbaycanın gözləntiləri

Rəşt–Astara dəmir yolu xəttinin istifadəyə verilməsi Azərbaycanın iqtisadi maraqları baxımından bir neçə istiqamətdə mühüm nəticələr doğura bilər.

**Birincisi,** tranzit həcmlərinin artması birbaşa olaraq ölkəyə əlavə gəlirlər deməkdir. Tranzit rüsumları, dəmir yolu xidmətləri, terminal əməliyyatları, yükdaşıma xidmətləri və logistik xidmətlərdən əldə olunan gəlirlər Azərbaycanın qeyri-neft sektoruna yeni nəfəs verə bilər.

**İkincisi,** yük axınlarının artması daxili logistika və xidmət bazarını genişləndirəcək. Bu isə təkcə dəmir yolu sektoruna deyil, paralel olaraq anbar təsərrüfatına, daşınma şirkətlərinə, sığorta və maliyyə xidmətlərinə, gömrük-logistika xidmətlərinə də əlavə tələbat yaradacaq.

**Üçüncüsü,** dəhliz üzrə artan yük həcmi Azərbaycanın regionlarında, xüsusilə cənub zonasında iqtisadi aktivliyi gücləndirə bilər. Astara və ətraf rayonlar yeni logistika qovşaqlarının formalaşması üçün daha əlverişli məkana çevrilir. Bu da əlavə iş yerləri, xidmət sektorunun böyüməsi və regional inkişaf üçün real imkan deməkdir.

Xatırladaq ki, Azərbaycanın logistik infrastrukturunda inkişafına dövlət səviyyəsində diqqət göstərilir. Hazır baza və artan potensial Azərbaycan son illər tranzit-logistika sahəsində ardıcıl investisiyalar hesabına regionda ən hazırlıqlı ölkələrdən biri kimi mövqeyini möhkəmləndirib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası, modernləşdirilmiş dəmir yolu şəbəkəsi və beynəlxalq avtomobil magistralları ölkənin tranzit imkanlarını ciddi şəkildə artırıb.

Azərbaycanın tranzit üstünlüyünü artıran əsas faktorlardan biri də ölkənin eyni zamanda "Orta Dəhliz" üzərində yerləşməsidir. Yəni Azərbaycan bir tərəfdən Şimal–Cənub marşrutunun əsas halqasıdır, digər tərəfdən isə Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə Çin–Mərkəzi Asiya–Xəzər–Cənubi Qafqaz–Avropa xəttində əsas tranzit mərkəzlərdən biridir.

Bu iki dəhlizin paralel inkişafı Azərbaycanın geoiqtisadi çəkisini artırır. Çünki dünya ticarətində yeni reallıq formalaşıb. Alternativ marşrutlara tələbat artır, risklər çoxalır, nəqliyyat təhlükəsizliyi isə strateji prioritetə çevrilir. Belə bir şəraitdə Azərbaycan kimi sabit, infrastruktur baxımından hazırlıqlı və proqnozlaşdırılan ölkələr daha çox diqqət çəkir.

Bundan əlavə, regional risklərin artdığı dövrdə tranzit marşrutlarının diversifikasiyası dünya ticarətinin əsas çağırışlarından biridir. Azərbaycan bu çağırışlara cavab verən ölkələrdən biri kimi çıxış edir. Həm Qara dəniz istiqaməti, həm Xəzər üzərindən daşımalar, həm də İran–Rusiya xətti üzrə yük axınlarının idarə olunması ölkənin strateji əhəmiyyətini daha da artırır.

*Ekspert rəyi*



**Eldəniz ƏMİROV,**
**iqtisadçı**

Şimal–Cənub dəhlizi ilə bağlı bir mühüm məqam xüsusi vurğulanmalıdır: bu layihənin taleyi İran və Rusiyanın Qərblə münasibətlərindən birbaşa asılıdır. Dəhlizin tam potensialla işləməsi üçün, ilk növbədə İran–Qərb, xüsusilə İran–ABŞ münasibətlərində gərginliyin azalması və müsbət dinamikanın formalaşması vacibdir. Mövcud qarşıdurma həllini tapmadıqca layihə ətrafında gözləntilər məhdud qalacaq.

Bununla yanaşı, məsələ yalnız İran amili ilə bitmir. Şimal–Cənub dəhlizinin əsas təşəbbüskarlarından biri Rusiya Federasiyası olub. Layihənin ideyası hələ ötən əsrin sonlarında "Şimal–Cənub dialoqu" formatında, Asiya ilə Avropa arasında ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə ortaya çıxmışdı. Sonradan bu təşəbbüs konkret nəqliyyat dəhlizi modelinə çevrildi. Lakin Rusiya ilə Qərb arasında baş verən geosiyasi qarşıdurmalar layihənin uzun müddət passiv vəziyyətdə qalmasına səbəb oldu.

Azərbaycan bu coğrafiyada mühüm tranzit mövqeyə malikdir. Şərq–Qərb marşrutu da, Şimal–Cənub xətti də ölkəmizin ərazisindən keçir. Bununla belə, Şimal–Cənub dəhlizinin əsas hissəsi İran və Rusiya ərazisindən keçdiyi üçün həmin ölkələrə tətbiq edilən sanksiyalar layihənin inkişafına ciddi təsir göstərir. Bu sanksiyalar təkcə maliyyə axınlarını məhdudlaşdırmır, həm də investor etimadını zəiflədir və infrastrukturun qurulmasını ləngidir.

Bununla belə, Rusiya–Ukrayna müharibəsi və ya sanksiyalar səbəbindən dəhlizin tamamilə dayandırılması mümkün deyil. Əksinə, tərəflər mövcud potensialdan qismən də olsa istifadə etməyə və infrastrukturu mərhələli şəkildə formalaşdırmağa çalışırlar. Bu kontekstdə İran–Rəşt–Astara dəmir yolunun tikintisi xüsusi əhəmiyyət daşıyır. Layihə əslində daha əvvəl tamamlanmalı idi və Rusiya bu istiqamətdə maliyyə öhdəliyi götürmüşdü.

Azərbaycan isə öz ərazisində dəhlizin infrastrukturunu böyük ölçüdə formalaşdırıb və tranzit imkanlarını genişləndirib. Hazırda Rusiya tərəfi İran ərazisində infrastrukturun qurulmasına dəstək verməyə çalışır və bununla bağlı rəsmi bəyanatlar səsləndirir.

Nəticə etibarilə, Şimal–Cənub dəhlizinin gələcəyi geosiyasi sabitlikdən, xüsusilə İran və Rusiyanın Qərblə münasibətlərinin normallaşmasından asılı olaraq qalır. Bu şərtlər formalaşdığı təqdirdə layihə region üçün strateji tranzit platformasına çevrilə bilər.

***Musa BAĞIRLI***
***XQ***

# Kanada şirkətinin Quba–Xəzəryanı regionunda neft axtarışı

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Kanadanın "Gran Tierra Energy Inc." şirkəti arasında ölkəmizin Quba–Xəzəryanı regionunda yerləşən qurudakı perspektiv sahəsi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü sazişi imzalanıb. Sənədə SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Gran Tierra Energy Inc." şirkətinin prezidenti və baş icraçı direktoru Gary Guidry imza atıblar.**



Sazişin şərtlərinə əsasən, layihənin operatoru qismində çıxış edəcək Kanada şirkəti 65 faiz iştirak payına malik olacaq. Geoloji kəşfiyyat iş proqramına qravimetrik məlumatların toplanması, 3D seysmik tədqiqatların aparılması və müqavilə sahəsinin karbohidrogen potensialının üzə çıxarılmasına yönəlmiş kəşfiyyat quyularının qazılması daxildir. Saziş Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minəcək.

Yeri gəlmişkən, "Gran Tierra Energy Inc." Kanadanın, əsasən, Cənubi Amerikada (Kolumbiya və Ekvador) fəaliyyət göstərən, neft və qaz kəşfiyyatı və hasilatı ilə məşğul olan müstəqil enerji şirkətidir. Şirkət 2025-2026-cı illərdə Azərbaycanın Quba–Xəzəryanı regionunda, xüsusən dəniz və quruda karbohidrogen potensialının öyrənilməsi və işlənməsi layihələrində iştirak etmək üçün SOCAR ilə əməkdaşlığa başlayıb.

Qeyd edək ki, Quba–Xəzəryanı perspektiv neft-qaz zonası Azərbaycanın şimal-şərqində, Böyük Qafqazın şimal-şərq yamacından Xəzər dənizinə qədər uzanan, Mezokaynozoy yaşlı çöküntülərdə yüksək neft-qaz potensialına malik tektonik ərazidir. Siyəzən-Xızı zonası da daxil olmaqla, buradakı Yura və Təbaşir dövrü süxurları neft-qaz toplanma obyektlərinin zənginliyi ilə seçilir. Elə tektonik quruluşun mürəkkəbliyi ilə seçilən bu ərazidə aparılmış tədqiqatların nəticələrinə əsasən, bölgədə, xüsusilə Siyəzən monoklinalında və ona bitişik ərazilərdə qazılmış bir neçə struktur-kəşfiyyat quyusunda neft və qaz əlamətlərinin aşkar edilməsi də bunu təsdiqləyir. Eyni zamanda, yeni seysmik kəşfiyyat məlumatları bu zonanın dərinlik quruluşunun və neft-qazlılıq potensialının daha dəqiq müəyyənləşdirilməsinə imkan verir.

***XQ***

# Borc idarəçiliyində qənaət və sabitlik əldə edilib

**Maliyyə Nazirliyində keçirilən kollegiya iclasında dövlət borcunun idarə edilməsi barədə hesabat müzakirə edilib. 2022–2025-ci illər üçün yenilənmiş Borc Strategiyasında müəyyən edilmiş hədəflər uğurla həyata keçirilib. Müzakirələrdə qeyd olunub ki, ötən il xəzinə vəsaitlərinin səmərəli istifadəsi nəticəsində dövlət borcuna xidmət xərclərində 300,1 milyon manat qənaət edilib. Eyni zamanda, qısamüddətli istiqrazlar uzunmüddətli istiqrazlarla əvəz olunmaqla borc portfelinin ödəniş müddəti uzadılıb və dövlət istiqrazlarının orta ödəmə müddəti 3,3 ilə çatdırılıb. Bundan başqa, beynəlxalq maliyyə institutları ilə təqribən 235 milyon ABŞ dolları həcmində yeni kredit sazişləri bağlanması da baş tutub.**

*Beynəlxalq maliyyə qurumları bu uğuru yüksək qiymətləndirir*

Bu amillər dövlət borcunun faiz xərclərini azaltmağa və ümumi riskləri minimuma endirməyə xidmət edir. Yenilənmiş borc strategiyasının mühüm göstəricilərinə görə, dövlət borcunun ÜDM-ə nisbəti 30 faizdən yuxarı olmamalıdır, birbaşa xarici dövlət borcu isə 10 milyard ABŞ dollarını keçməməlidir. Eyni zamanda kredit şoklarına qarşı həssaslığı azaltmaq üçün dəyişkən faizli borcun payı ümumi portfeldə 50 faizdən aşağı saxlanmalıdır. Əsas məqsədlər sırasına daxili borcalmanın genişləndirilməsi, xarici borcun tədricən azaldılması və istiqrazların orta ödəniş müddətinin uzadılması daxildir.

Rəsmi açıqlamalara əsasən, ötən ilin təkrar maliyyələşdirmə əməliyyatları çərçivəsində qısamüddətli istiqrazlar uzadılıb və borc portfelinin strukturu müsbət yöndə təkmilləşdirilib. Bu addımın mənası ondan ibarətdir ki, gələcəkdə borcun ödəniş vaxtları uzandıqca maliyyə yükü stabilləşir, faiz riskləri azalır. Borc portfelində belə struktur dəyişikliyi beynəlxalq təcrübədə də məqbul sayılır. Azərbaycanda hazırda daxili borc xarici borcdan əhəmiyyətli dərəcədə böyükdür ki, bu da milli maliyyə bazarlarının gücləndirilməsi və xarici valyuta valyutası volatilliyinin azaldılması baxımından faydalıdır.

Borc göstəricilərinin inkişafını qiymətləndirən beynəlxalq qurumlar da ölkənin siyasətini yüksək dəyərləndirirlər. 2025-ci ilin ortalarına olan məlumatlara görə, Azərbaycanın dövlət borcu təxminən 19,6 faiz səviyyəsində olub ki, bu da 30 faizlik hədərlə müqayisədə xeyli aşağıdır. Belə ki, Moody's agentliyi məlumat yayıb ki, orta maliyyə strategiyalarının davam etdirilməsi nəticəsində Azərbaycanın borcu həm təhlükəsizlik baxımından kifayət qədər az, həm də bənzər ölkələrlə müqayisədə xeyli aşağı səviyyədədir.

Düşünülmüş borc siyasətinin makroiqtisadi təsirləri aydındır. Dövlət borcunun ÜDM-də payının azlığı büdcəyə əlavə sərbəstlik verir, faiz xərclərinin azalması sosial və infrastruktur layihələrinə daha çox vəsait ayırmağa imkan yaradır. Məsələn, Beynəlxalq Valyuta Fondu (BVF) 2025-ci ilin məruzəsində də qeyd edib ki, Azərbaycanın ümumi dövlət borcunun ÜDM-dən nisbəti son illərdə 22-23 faiz aralığında hərəkət edib və 30 faiz hədəfini nəzərə alaraq sabit olaraq qalır. Eyni zamanda bu məlumatlar dövlət siyasətinin effektivliyini göstərir.

Müstəqil analitiklər də eyni qənaətdədirlər: Azərbaycan 2018-2025-ci illərdə xarici borcunu 8,9 milyard dollardan 4,9 milyard dollara endirərək iqtisadi müstəqilliyni çoxdan bəyan edib. Bu, fiskal intizamın nəticəsi sayılır və xarici reytinq qurumları tərəfindən də müsbət qiymətləndirilir.



Məhz intizamlı fiskal idarəetmə Azərbaycanın kredit reytinqlərinin yüksəlməsində rol oynayıb. Məsələn, 2025-ci ildə həm Fitch, həm də Moody's Azərbaycana investisiya dərəcəsinə yaxın reytinq verərək (BBB- və Baa3) prosesin stabil fondlarının güclü olması və disiplinli idarəetmə sayəsində baş verdiyini vurğulayıb.

Region ölkələri fonunda da Azərbaycanın vəziyyəti münbit sayılır. Azərbaycanın dövlət borcunun səviyyəsi həm qonşu ölkələrdən aşağıdır, həm də neft-export edən ölkələr arasında risk azlığı ilə seçilir. Aydındır ki, bu nailiyyətlərin davam etdirilməsi üçün borc strategiyasına əməl olunması mühümdür. Kollegiya iclasında da gələcək planlar çərçivəsində 2026–2030-cu illər üçün borc strategiyasının hazırlanması və beynəlxalq təcrübənin tətbiqi barədə təlimatlar verilib.

Nəticə etibarilə, borc xərclərinə qənaət və borc profilinin tədricən düzəldilməsi dövlət büdcəsində sərbəst resursların artmasına və Azərbaycanın maliyyə sabitliyinin güclənməsinə xidmət edir. Borc strategiyasının uğurları bir tərəfdən beynəlxalq reytinq yüksəlişi ilə təsdiq olunur, digər tərəfdən ölkəyə gələcək iqtisadi maneələri daha az itki ilə aşmağa imkan verir. Məqsədlərə əsasən formalaşdırılmış bu siyasət böhrana davamlılığı artırmaqda yardımçı olur.

*Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalar İctimai Birliyinin sədri**

Maliyyə Nazirliyinin Kollegiya iclasında səsləndirilən məqamlar dövlət maliyyəsinin keyfiyyət transformasiyasını ifadə edən mühüm göstəricilərdir. Hesab edirəm ki, bu, sadəcə texniki optimallaşdırma deyil, eyni zamanda strateji borc idarəetməsinin yeni mərhələsidir.

Dövlət borcuna xidmət xərclərinə qənaət edilməsi və qısamüddətli istiqrazların uzunmüddətli istiqrazlarla əvəz olunması, şübhəsiz ki, həm keyfiyyət dəyişiklikləri, həm də makroiqtisadi təsirlər yaradır. İlk növbədə burada yenidən maliyyələşdirmə risklərinin azalması ön plana çıxır. Qısamüddətli istiqrazların payı yüksək olduqda dövlət borcu tez-tez yeniləmək məcburiyyətində qalır və bu, faiz dərəcələrinin dəyişkənliyinə həssaslığı artırır. Uzunmüddətli alətlərə keçid isə bu təzyiqləri zəiflədir və borc portfelini daha sabit edir.

İkinci mühüm məqam büdcə planlaşdırılmasında sabitliyin güclənməsidir. 300 milyon manatlıq qənaət yalnız nominal azalma deyil, eyni zamanda borca xidmət strukturunun optimallaşdırılması deməkdir. Bu isə orta müddətdə büdcə xərclərinin volatilliyini azaldır və sosial, infrastruktur və investisiya layihələri üçün daha geniş fiskal manevr imkanları yaradır.

Eyni zamanda daxili maliyyə bazarının dərinləşdirilməsi aspekti xüsusi vurğulanmalıdır. Uzunmüddətli dövlət qiymətli kağızlarının payının artması özəl sektor üçün də uzunmüddətli maliyyə alətlərinin formalaşmasına stimul verir. Bu, kapital bazarının inkişafı və institusional investor bazasının genişlənməsi baxımından mühüm addımdır.

2022–2025-ci illər üçün Borc Strategiyasının hədəfləri kontekstində Azərbaycanın borc idarəetmə modeli bir sıra üstünlüklər formalaşdırır. Dövlət borcunun ÜDM-ə nisbətinin 30 faizdən aşağı saxlanılması və xarici borcun məhdudlaşdırılması ölkənin konservativ və ehtiyatlı borc siyasəti apardığını göstərir. Bu yanaşma regional praktika ilə müqayisədə aşağı borc yükü və fiskal təhlükəsizlik "yastığı" yaradır.

Bu prosesdə Maliyyə Nazirliyinin institusional rolu xüsusi əhəmiyyət kəsb edir. Nazirlik yalnız borclanmanı həyata keçirən qurum deyil, eyni zamanda fiskal risklərin qiymətləndirilməsi və idarə olunması üzrə mərkəzi funksiyanı icra edir.

Nəticə etibarilə, hazırkı siyasət Azərbaycanda reaktiv borc idarəetməsindən proaktiv və strateji idarəetmə modelinə keçidi şərtləndirir. Bu yanaşma ortamüddətli dövrdə fiskal dayanıqlılığın qorunması, makroiqtisadi sabitliyin möhkəmləndirilməsi və investor etimadının artırılması baxımından mühüm strateji əhəmiyyət daşıyır.

***Nurlan ABDALOV***
***XQ***

# Rəqəmsal dələduzluğun gizli tilovları

*Belə kiberhücumlardan necə qorunmaq olar?*



**Azərbaycan Baş Prokurorluğunun fevralın 18-də vətəndaşlara ünvanladığı rəsmi xəbərdarlıq və eyni tarixdə ölkənin aparıcı maliyyə qurumlarından olan Kapital Bankın müştərilərinə müraciəti respublikada kibercinayətkarlıq risklərinin yeni mərhələyə keçdiyini diqqətə çatdıran ciddi siqnal oldu. Bu müraciətlər təsadüfi xarakter daşımır, əksinə, rəqəmsal transformasiyanın sürətləndiyi, elektron xidmətlərin genişləndiyi və maliyyə əməliyyatlarının böyük hissəsinin onlayn müstəviyə keçdiyi bir dövrdə təhlükələrin də paralel şəkildə artdığını nümayiş etdirir.**

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı dövlət idarəçiliyində səmərəliyin artırılması, biznes mühitinin liberallaşdırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi baxımından mühüm rol oynasa da, bu proses, eyni zamanda, yeni risk arxitekturası formalaşdırır. Rəqəmsal mühitdə təhlükə fiziki məkanla məhdudlaşmır, sərhəd tanımır və çox zaman anonim xarakter daşıyır. Bu isə kibercinayətkarlığı ən mürəkkəb və dinamik təhdidlərdən birinə çevirir. Eyni zamanda, müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı cəmiyyətin bütün sahələrinə müsbət təsir göstərsə də, paralel olaraq kiberdələduzluq risklərini də artırır.

Şəxsi məlumatların oğurlanması, onlayn dələduzluq, fişinq hücumları, kiberzorakılıq və zərərli proqram təminatlarının yayılması həm fərdlər, həm də dövlət və özəl qurumlar üçün ciddi təhlükə yaradır. Bu baxımdan kibercinayətkarlıqla mübarizə milli təhlükəsizlik, iqtisadi sabitlik və vətəndaşların hüquqlarının qorunması üçün strateji əhəmiyyət daşıyır. Kibercinayətlərin əsas xüsusiyyətlərindən biri onların çox vaxt istifadəçilərin məlumatsızlığı və diqqətsizliyi nəticəsində baş verməsidir. Texniki müdafiə mexanizmləri vacib olsa da, insan amili kibertəhlükəsizliyin ən zəif həlqəsi olaraq qalır. Məhz bu səbəbdən kibercinayətkarlıqla mübarizədə maarifləndirici tədbirlər xüsusi rol oynayır.

## Rəqəmsallaşma və kibercinayətkarlıq

**Kibertəhlükəsizlik üzrə mütəxəssis Oqtay Hacıyevin** sözlərinə görə, son illər Azərbaycanda bank və dövlət xidmətlərinin, eləcə də elektron ticarətin sürətlə genişlənməsi müşahidə olunur. Onlayn ödəniş sistemləri, mobil bankçılıq, rəqəmsal identifikasiya, məsafədən kredit və kart sifarişi kimi xidmətlər getdikcə vətəndaşların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilir.

Lakin rəqəmsal platformaların genişlənməsi ilə kiberdələduzluğa da yeni şərait yaradılır. Şəxsi məlumatların oğurlanması, fişinq hücumları, saxta sosial media profilləri, zərərli proqram təminatları və sosial mühəndislik üsulları ilə həyata keçirilən aldatma halları artıq qlobal tendensiyanın tərkib hissəsi kimi Azərbaycanda da artım dinamikasına səbəb olur.

Ekspertin fikrincə, kibercinayətlərin əsas xüsusiyyətlərindən biri onların texniki zəiflikdən daha çox insan amilinə əsaslanmasıdır. Müasir kiber hücumların əksər hissəsi istifadəçinin diqqətsizliyi, məlumatsızlığı və emosional manipulyasiyaya məruz qalması nəticəsində baş verir. Bu baxımdan insan amili kibertəhlükəsizlik zəncirinin ən zəif həlqəsi olaraq qalır. Bu, son dövrlər bank kartlarının ələ keçirilməsi ilə bağlı dələduzluq hallarının artmasında özünü büruzə verir. Dələduz qrupu müxtəlif bəhanələrlə vətəndaşlara bank filiallarından və ya rəqəmsal kanallardan kart əldə etməyi məsləhət bilir, daha sonra isə müəyyən ödəniş qarşılığında həmin kartları və kart məlumatlarını alaraq cinayət əməliyyatlarında istifadə edir.

Belə bir kiberdələduzluq bir neçə ciddi təhlükə yaradır. Bu, özünü daha çox fərdi məlumatların tam ötürülməsi ilə diqqət çəkir. Belə ki, kartın və ona aid məlumatların üçüncü şəxsə verilməsi, faktiki olaraq, maliyyə identifikatorunun ötürülməsi deməkdir. Bu isə hesaba tam giriş imkanı yaradır. Bundan başqa, qanunsuz yollarla əldə olunan vəsaitlərin izlərinin itirilməsi məqsədilə bu kimi kartların digər şəxslərin istifadəsinə verilməsi dələduza həmin hesabdakı vəsaitdən istədiyi kimi istifadə etmək hüququ verir. Bu isə istifadəçiyə məxsus bütün bank hesablarının təhlükə ilə üzləşməsi və onun son nəticədə maliyyə itkisinə səbəb olması deməkdir.

Kibercinayətkarlığa qarşı mübarizədə hüquqi məsuliyyət amili mühüm önəm daşıyır. Belə ki, mövcud qanunvericiliyə görə, kart sahibi öz kartı ilə həyata keçirilən əməliyyatlara görə cavabdehdir. Kartın üçüncü şəxsə verilməsi hüquqi öhdəlik yaradır və həmin kart vasitəsilə törədilən qanunsuz əməliyyatlara görə cinayət məsuliyyəti riski formalaşır. Eyni zamanda, belə bir vəziyyət maliyyə təhlükəsizliyi ilə yanaşı, həm də hüquqi təhlükəsizlik məsələsi kimi diqqət çəkir.

Müasir kibercinayətkarlığın geniş yayılmasının əsas səbəblərindən biri də sosial mühəndislik amili ilə bağlıdır. Bu metod təkcə texniki zəifliklərlə yanaşı, insan psixologiyasını da hədəfə alır. Təcili təhlükə hissi yaratmaq, yüksək qazanc vədi vermək, dövlət qurumu və ya bank əməkdaşı kimi təqdim olunmaq, sosial şəbəkə vasitəsilə emosional manipulyasiya kimi amillər istifadəçinin müdafiə mexanizmlərini zəiflətməyə yönəlir.

O.Hacıyevin sözlərinə görə, respublikada kibercinayətkarlığın geniş yayılması daha çox saxta bank zəngləri və SMS-lər, fişinq linkləri vasitəsilə kart məlumatlarının toplanması, sosial şəbəkələrdə investisiya və kriptovalyuta adı altında dələduzluq, "kartınızı təsdiqləyin" və ya "hesabınız bloklanacaq" tipli mesajlara əsaslanır. Bu hücumların qarşısının alınması isə birbaşa maarifləndirmə səviyyəsindən asılı olur.

## Kibertəhlükəsizlik və özünüqoruma fəndləri

Bu gün kibercinayətkarlıq artıq fərdi səviyyədə maddi zərər problemindən çox, makroiqtisadi və milli təhlükəsizlik məsələsi kimi qiymətləndirilir. Ekspertlər bildirirlər ki, əgər vətəndaşların bank sisteminə etimadı zəifləyərsə, nağdsız ödənişlərin artım tempi, eləcə də rəqəmsal bankçılığın inkişafı ləngiyə, kölgə iqtisadiyyatının riskləri isə güclənə bilər. Bütün bunlar yekunda xarici investorların risk qiymətləndirmələrinin aşağı düşməsi ilə nəticələnər.

Rəqəmsal iqtisadiyyatın inkişafı üçün əsas şərtlərdən biri etibarlı kibertəhlükəsizlik ekosistemidir. Bu ekosistem yalnız texniki həllərlə deyil, həm də hüquqi mexanizmlər, institusional koordinasiya və ictimai maarifləndirmə ilə formalaşır. Azərbaycan Baş Prokurorluğunun və Kapital Bankın yazının əvvəlində diqqətə çatdırılan çağırışları da maarifləndirmənin artıq prioritet istiqamətə çevrildiyini göstərir. Sosial videoçarxlar, vizual kampaniyalar, real hadisələr əsasında hazırlanan ictimai mesajlar isə səmərəli təsir vasitəsi kimi kibertəhlükəsizliklə mübarizədə maarifləndirmə baxımından önəmli rol ynayır.

Kibercinayətkarlıqla mübarizə təkcə hüquq-mühafizə orqanlarının və ya bankların məsuliyyəti deyil. Bu, eyni zamanda, dövlət -bank -cəmiyyət əməkdaşlığı modelini tələb edir. Dövlətin üzərinə hüquqi bazanı gücləndirmək, kiberinsidentlərə operativ reaksiya mexanizmlərini inkişaf etdirmək və kibertəhlükəsizlik mərkəzlərinin fəaliyyətini genişləndirmək kimi vəzifələr düşür.

Bank sektorunun qarşısında süni intellekt əsaslı fırıldaqçılıq aşkarlama sistemlərinin tətbiqinin gerçəkləşdirilməsi, risklərin təhlili mexanizmlərini təkmilləşdirməsi və müştəri məlumatlandırma kampaniyalarının həyata keçirilməsi əsas məqsədlər sırasında durur. Vətəndaş isə bu məsələdə rəqəmsal davranış mədəniyyətini formalaşdırmalı, şəxsi məlumatların qorunmasını şəxsi məsuliyyət kimi qəbul etməlidir.

Beləliklə, Azərbaycanda kibercinayətkarlıq risklərinin artması rəqəmsal transformasiyanın qaçılmaz nəticəsidir. Lakin bu risklər idarəolunandır. Əsas məsələ balansın düzgün qurulmasıdır. Başqa sözlə, texnoloji inkişaf davam etməli, lakin təhlükəsizlik arxitekturası paralel şəkildə gücləndirilməlidir. Azərbaycan Baş Prokurorluğunun vətəndaşlara ünvanladığı rəsmi xəbərdarlıq və eyni tarixdə ölkənin aparıcı maliyyə institutlarından biri olan Kapital Bankın müştərilərinə müraciəti isə cəmiyyətə açıq mesajdır.

Bu mesaj hazırda kibertəhlükəsizliyin ictimai məsuliyyət olduğunu diqqətə çatdırır. Bank kartını qorumaq, şəxsi məlumatı paylaşmamaq, şübhəli mesajlara reaksiya verməmək kimi məsələlər isə sadə davranış qaydaları kimi görünsə də, əslində, milli iqtisadi təhlükəsizliyin əsas elementləridir. Bu baxımdan rəqəmsal gələcəyin təhlükəsizliyi hər bir vətəndaşın bu gün atdığı addımlardan asılıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*

**Fərid ƏMİROV,**
**kibertəhlükəsizlik mütəxəssisi**



Sosial şəbəkələrdə müxtəlif məzmunlu mesajlar yayılır. Məsələn, onların bir qismində kredit borcunun bağlanması, ərzaq yardımı, dövlət layihələri, hansısa dövlət qurumunun və ya vəzifəli şəxsin adından iş yerlərinin açılması, dəstək verilməsi ilə bağlı elanlar paylaşılır. Bu kimi hallar kiberdələduzluqdur və kibertəhlükəsizlik terminologiyasında sosial mühəndislik adlandırılır.

Hazırda bu cür kiberdələduzluqlar olduqca geniş yayılıb. Sosial şəbəkələrin əlçatan olması, hər kəs tərəfindən istifadə edilməsi kiberdələduzluqların yaranması və genişlənməsi üçün münbit şərait yaradır. Bəs belə bir vəziyyətdə kiberdələduzlar nə edirlər? Onlar, ilk növbədə, müxtəlif yollarla xeyriyyəçi, sponsor, dövlət layihəsi icraçısı, dövlət rəsmisi, hətta bəzən yüksək səviyyəli rəsmi şəxslərin adından istifadə edirlər. Müxtəlif kontentlər, videolar, səs yazıları, saxta sənədlər hazırlayaraq insanlarda etimad yaratmağa, təqdim etdikləri məlumatlarla inandırıcı görünməyə çalışırlar.

Sosial şəbəkələr və texnologiyalar sürətlə inkişaf edir. Bu gün bir şəxsin səsini eyni formada başqa bir yerə köçürmək, onun videosunu istənilən mövzuda danışırmış kimi yaratmaq mümkündür. Bu cür imkanlardan istifadə edərək vətəndaşlarda etimad formalaşdırılır. Kiberdələduzlar tərəfindən daha sonra isə vətəndaşlar haqqında məlumat toplamağa başlanır, onların şəxsiyyət vəsiqəsi və bank kartları məlumatları, telefon nömrələri, WhatsApp hesabları, FİN kodları və digər şəxsi məlumatlar ələ keçirilir.

Növbəti mərhələdə isə artıq həmin şəxslərin adından müxtəlif üsullarla pul oğurluğu reallaşdırılır, bank kartlarından vəsait çıxarılır, mobil bank tətbiqləri ələ keçirilir və digər qanunsuz əməllər törədilir.

Burada əsas diqqət yetirilməli məqam ondan ibarətdir ki, fırıldaqçılar şəxsi mesajlar vasitəsilə vətəndaşlara müraciət edirlər. Məsələn, "siz lotereyanın qalibi olmusunuz" və ya "təcili yazın, ilk 30 və ya 50 nəfərə xüsusi hədiyyə veriləcək" kimi mesajlar göndərilir. Daha sonra SMS və ya WhatsApp üzərindən göndərilən kodlar tələb olunur, hətta bir sıra hallarda bank kartlarının arxa hissəsindəki gizli kodlar istənilir.

Bəzən isə ilkin mərhələdə bu prosesin uduşlu və gəlirli kimi görünməsi üçün vətəndaşlara kiçik məbləğdə pul və ya digər vasitələrlə ödənişlər edilir, növbəti mərhələdə qazancın daha böyük olacağı bildirilir. Digər hallarda isə kiberdələduzlar tərəfindən özləri kiçik məbləğdə ödəniş tələb edilərək bunun uduşun bir hissəsi olduğu və sonradan daha böyük məbləğin veriləcəyi deyilir.

Bu kimi hallarda diqqətli olmaq vacibdir. Əgər hansısa şəxs müəyyən bir qurum adından danışırsa, mütləq həmin qurumun rəsmi məlumatlarını təqdim etməlidir. Məsələn, bank adından müraciət edilirsə, rəsmi bank telefon nömrəsi olmalıdır və ya vətəndaş özü bankla əlaqə saxlayaraq məlumatı dəqiqləşdirməlidir. Eyni zamanda, heç bir halda şəxsi məlumatlar paylaşılmamalıdır. FİN kodu, bank kartı məlumatları, SMS kodları, istifadəçi adı və şifrə kimi giriş məlumatları üçüncü şəxslərə verilməməlidir.

Ümumiyyətlə, sosial şəbəkələrdə şübhəli hesablar aşkar edildikdə həmin şəxslər bloklanmalıdır. Çünki bu cür fəaliyyətlər çox ciddi fəsadlara səbəb ola bilər. Əgər hər hansı halda bank kartı məlumatları qarşı tərəfə təqdim edilibsə, dərhal bankın mobil tətbiqi vasitəsilə və ya bankın rəsmi nömrəsinə zəng edərək kartın bloklanması tələb olunmalıdır. Bununla yanaşı, 102 xidmətinə – Cinayətkarlıqla Mübarizə Baş İdarəsinə məlumat verilməlidir. Eləcə də "e-gov" üzərindən müraciət mərkəzinə də şikayət etmək zəruri hesab edilir.

Mümkünsə, sübut kimi kiberdələduzlara aid ekran görüntüləri, yazışmalar, profil linkləri və mesaj tarixçələri saxlanılmalı və şikayət zamanı mütləq təqdim edilməlidir. Təcrübədə "qızıl qayda" ondan ibarətdir ki, sosial şəbəkələrdə tanımadığınız şəxslər pul, yardım və ya dəstək tələb edirsə, bu halların 90 faizi dələduzluqdur və onlardan uzaq durmaq lazımdır. Hətta bəzi hallarda tanıdığımız şəxslərin adından da WhatsApp və digər sosial şəbəkələrdə mesajlar göndərilir. "Uşağım xəstədir", "atam xəstədir", "bu məbləğdə pula ehtiyacım var" kimi müraciətlər edilir.

Şəxsi təcrübəmdə də bu cür hallar olub. Tanıdığım şəxsin adından eyniməzmunlu mesajlar həmin vaxtda bir neçə adama göndərilib. Sonradan məlum olub ki, o şəxsin hesabı ələ keçirilib və onun dost siyahısındakı insanlardan pul istənilib. Belə vəziyyətlə qarşılaşdıqda mütləq şəkildə adından mesaj göndərilən şəxslə əlaqə saxlanılmalı və məlumat dəqiqləşdirilməlidir.

# Xəzərdə əməliyyat və texniki xidmət müqaviləsi yenilənib

**bp "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun və "Şahdəniz" yatağının operatoru kimi mövcud platformalardakı qazma qurğularının əməliyyatları və texniki xidmət işləri üzrə SOCAR AQŞ və ABŞ-ın "Helmerich & Payne" (H&P) şirkətinin birgə müəssisəsi olan "Turan Drilling & Engineering Company" MMC ilə müqavilənin yeniləndiyini elan edib.**

Yenilənmiş müqavilə Xəzər dənizində bp-nin idarə etdiyi 8 neft və qaz hasilatı platformasının (Mərkəzi Azəri, Şərqi Azəri, Qərbi Azəri, Dərinsulu Günəşli, Qərbi Çıraq, Çıraq, ACE və Şahdəniz Alfa) istismar əməliyyatları və texniki xidmət işlərini əhatə edir. Müqavilənin iş həcminə personal dəstəyi, texniki xidmət işlərinin icrası, ehtiyat hissələrinin idarə olunması, anbar təsərrüfatının təşkili, eləcə də qurğuların bütövlüyü və konstruksiyaların texniki xidməti üzrə yeni yaradılmış mühəndislik qrupunun idarə edilməsi daxildir.

Cari ilin mart ayından qüvvəyə minəcək bu müqavilənin ilkin müddəti 5 ildir, sonra isə üç dəfə birillik müddətə uzadılma imkanı da var. Müqavilənin ümumi dəyəri hər üç uzadılma müddətinin həyata keçəcəyi halda 1 milyard ABŞ dollarından çox ola bilər.

Yeri gəlmişkən, bu, Xəzər regionunda bp-nin güclü yerli tərəfdaşlığı olan şirkətlə bağladığı növbəti iri müqavilədir. Bu müqavilə bp və tərəfdaşlarının Azərbaycanda fəaliyyətə başladığı vaxtdan əsas öhdəlik kimi yerli potensialın inkişaf etdirilməsi üzrə həyata keçirdikləri uzunmüddətli strategiyanın daha bir əməli təsdiqidir. Yenilənmiş müqavilə, həmçinin bp-nin Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə sıx əməkdaşlıq edərək Xəzərdəki ehtiyatların daha səmərəli və rəqabətədavamlı şəkildə işlənməsinə dair biznes məqsədinə uyğundur.



bp-nin quyular üzrə vitse-prezidenti Rassel Morris "Turan Drilling & Engineering Company" ilə olan uzunmüddətli müqavilənin yenilənməsindən məmnunluğunu ifadə edərək deyib: "Xəzər regionunda uzun müddətdir təhlükəsiz, etibarlı və səmərəli şəkildə fəaliyyət göstərən operator kimi biz onilliklərə söykənən beynəlxalq təcrübəni, qabaqcıl qlobal yanaşma və texnologiyaları, SOCAR-ın Xəzərə dair dərin biliklərini və regionun qazma sənayesindəki aparıcı mövqeyini özündə birləşdirən bir şirkətlə əməkdaşlığımızın davam edəcəyindən, həqiqətən, çox razıyıq. bp regiondakı 33 illik uğurlu fəaliyyəti çərçivəsində Xəzərdə dünya səviyyəli platformaların istismarını həyata keçirir. İnanırıq ki, bu yeni müqavilə əməliyyatların təhlükəsiz, səmərəli şəkildə və qlobal sənaye standartlarına uyğun aparılması üzrə davamlı öhdəliyimizi dəstəkləyəcək".

Xatırladaq ki, Azərbaycan qarşısında güclü və uzunmüddətli öhdəliyi olan bp və tərəfdaşları 33 ildir ki, ölkədə həm iqtisadiyyat, həm də mədəniyyət sahəsində fəal iştirak edirlər. İndiyədək bp öz tərəfdaşları ilə birlikdə Azərbaycanda neft-qaz layihələrinə və əlaqədar sahələrə 89 milyard dollardan artıq sərmayə yatırıb, AÇG yataqlar blokundan 4,6 miyard barel neft və "Şahdəniz" yatağından 264 milyard kubmetr qaz hasil edib. Xam neft Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanında 6 mindən çox tanker yüklənərək dünya bazarına yola salınıb. Bütün bu nailiyyətlər Azərbaycanda enerji sahəsinin dəyişməsinə əhəmiyyətli təsir edib və regionun inkişafına töhfə verib.

bp-nin operatorluğu ilə həyata keçirilən layihələr öz əsas biznes məqsədlərindən əlavə yerli icmalar üçün geniş mənfəətlər gətirib–çoxsaylı iş yerləri açılıb, gəlir imkanları yaradılıb, iqdisadi inkişafa dəstək verilib, işbirlikləri yaradılıb, sahibkarlıq inkişaf etdirilib təhsil və yerli bacarıqların inkişafına, idman və mədəni irs layihələrinə dəstək verilib.

Ümumilikdə isə, bp öz tərəfdaşları ilə birlikdə indiyədək sosial dayanıqlılıq layihələrinə 115 milyon dollardan çox vəsait xərcləyərək əməliyyatlarının qonşuluğunda yaşayan icmalara uzunmüddətli müsbət faydalar gətirib.

***M.YAQUBZADƏ***
***XQ***

*“Şəhərsalma və Memarlıq İli” – 2026*

# Milli şəhərsalma irsimiz tarixin yaddaşında

**2026-cı ilin ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı 22 dekabr 2025-ci il tarixli sərəncam maddi-mədəni irsimizin qorunmasında, ənənəvi və innovativ dəyərlərin sintezi müstəvisində inkişaf etdirilməsində mühüm əhəmiyyət daşıyır. Sərəncamda deyilir: “Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq tendensiyalarına uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır”.**



Hazırda isə tarixi şəhərlərimiz keçmişlə müasir impulsları bir arada yaşadan mədəniyyət tolerantlığının başlıca mərkəzlərinə çevrilmişdir. Qədim dövrdən mövcud olmuş şəhərsalma və memarlıq ənənələri şəhərlərimizin tarixi simasını müəyyənləşdirməyə, keçilən inkişaf yolunu xronoloji ardıcıllıqla izləməyə və müasir şəhərlərimizdə ənənəviliklə innovativliyin harmoniyasının əhəmiyyətini qlobal miqyasda ortaya çıxarmağa stimul verir.

Azərbaycanda Tunc dövründən formalaşan şəhərsalma mədəniyyəti Dəmir dövrü, Antik dövr, Orta əsrlər dövrünün tələblərinə uyğunlaşaraq müxtəlif funksiyalar əxz etməklə yanaşı, tarixin hər mərhələsində özünəməxsus elementləri ilə də qlobal dəyərləri zənginləşmişdir.

***Qədim şəhərlərimiz sənətkarlıq və ticarət mərkəzləri olaraq ortaya çıxmış, “Boyalı qablar mədəniyyəti”nin ən gözəl sənət nümunələri ilə dünya mədəniyyətinə töhfə vermişdir.*** Naxçıvan, Şahtaxtı, Qızılburun, II Kültəpə ilkin şəhər sənətkarlığının formalaşdığı başlıca mərkəzlərdən olmuşdur. Yaxın Şərq-Anadolu-Cənubi Qafqaz üçbucağının qovşağında yerləşməsi iqtisadi-ticari əlaqələri artırdığı qədər bu əlaqələrin başlıca mərkəzləri olan şəhərlərin də burada erkəndən ortaya çıxmasına şərait yaratmışdır. Bu dövrdə yaşayış məskənləri planlı tikinti elementləri, müdafiə qurğuları və ictimai məkanların mövcudluğu ilə seçilir, şəhərlər əsasən təsərrüfat, sənətkarlıq və ticarət mərkəzləri kimi formalaşırdı. Tunc dövründən şəhər mədəniyyətinin formalaşdığını göstərən faktlar II Kültəpə, Şahtaxtı, Naxçıvan, Qızılburun kimi qədim yaşayış məskənlərində aparılmış arxeoloji qazıntılar zamanı üzə çıxarılmışdır. Bu abidələr özünəməxsus şəhərsalma ənənələri ilə yanaşı, “Boyalı qablar mədəniyyəti” fenomenini formalaşdıran nəfis keramika məmulatları ilə də diqqət çəkmişdir. Məhz xüsusi ustalıqla hazırlanan belə qabların bir qismi günümüzədək gəlib çatmış və dünya muzeylərində qədim Azərbaycan mədəniyyətini uğurla təmsil etmişdir.





***Antik dövrdə formalaşan paytaxt şəhərləri Azərbaycanda qədim dövlətçilik ənənələrinin varlığını təsdiq edən maddi mənbələr olaraq mühüm əhəmiyyət daşıyır.*** Antik dövr Azərbaycan şəhərlərinin funksiyasında nəzərəçarpacaq dəyişikliklər baş vermişdir. Bu dövrdə Qafqaz Albaniyasının paytaxt şəhərinə çevrilən Qəbələnin qədim tikili qalıqları şəhərlərin iqtisadi əhəmiyyətinə artıq yeni impulsun – siyasi funksiyanın əlavə olunduğunu göstərir. Eramızdan əvvəl I minillikdən başlayaraq eramızın ilk əsrlərinədək davam edən bu zaman kontekstində şəhərsalma daha da inkişaf etmiş, ictimai sənətkarlıq mərkəzləri olmaqdan çox siyasi-inzibati mərkəzlərə çevrilmişdir. Bu dövrdə Qəbələ, Bərdə, Şamaxı kimi şəhərlər Qafqaz Albaniya dövlətinin siyasi və iqtisadi mərkəzləri olmuş, küçə şəbəkəsi, ictimai binalar və müdafiə divarları ilə seçilmişdir. Şəhərlərin planlaşdırılmasında relyef və müdafiə amili ön plana çıxmışdır. Bu dövrdə şəhərlər əlavə müdafiə divarlarının olması ilə diqqəti cəlb edirdi. Bu da həmin dövrdə şəhərlərin sənətkarlıq mərkəzləri olmaqdan daha çox siyasi-inzibati mərkəzlərə çevrildiyini, siyasi əhəmiyyətinin artdığını göstərirdi. Qafqaz Albaniyasının Qəbələ və digər şəhər yerlərindən, Antik Naxçıvan şəhər yerindən, Oğlanqalanın Antik mərhələsindən, həmçinin 2024-cü ildə II Xələc abidəsinin Son Antik dövr təbəqəsindən aşkar olunan ictimai tikili qalıqları və sütun altlıqları bu dövrdə şəhərlər və ətrafındakı yaşayış yerlərində xüsusi plana malik memarlıq əlamətlərinin formalaşdığını təsdiq edir.

***Orta əsrlər dövründə Azərbaycan şəhərləri türk-islam mədəniyyətinə qiymətli memarlıq inciləri bəxş etmişdir.*** Bu dövrdə Azərbaycan şəhərsalma mədəniyyətinin ən parlaq mərhələlərindən birini yaşamışdır. Şamaxı, Bərdə, Bakı, Gəncə, Naxçıvan, Təbriz paytaxt şəhərlər olaraq inkişaf etmiş, eyni zamanda, beynəlxalq ticarət və mədəniyyət mərkəzlərinə çevrilmişdir. Bu dövrdə şəhərlərin siması qala divarları, məhəllə sistemi, bazarlar, karvansaraylar, məscidlər və hamamlarla səciyyələnirdi. Naxçıvandakı Möminə Xatun türbəsi və Bakıdakı İçərişəhər məhz bu şəhərsalma ənənələrinin bariz nümunələridir.

Orta əsrlərdə şəhərlərin funksiyası yeni bir məna kəsb etməyə başlayır. Onların memarlıq quruluşu təkcə müdafiə məqsədi daşımır, eyni zamanda, türk-islam memarlığının özünəməxsus əlamətləri ortaya çıxırdı. Bu əlamətlər daha çox şəhərin aparıcı şəxslərinə həsr olunan türbələrdə əks olunurdu. Həmçinin xüsusi memarlıq ənənələrinin ortaya çıxmasına rəvac verirdi. Və bəzən də belə memarlıq ənənələri ayrı-ayrı şəhərlərin simvoluna çevrilirdi.

Tarixin müxtəlif dövrlərindən yaxşı məlum olan bəzi abidələr var ki, onların adı çəkiləndə yerləşdikləri şəhərləri dərhal müəyyən etmək olur: Kolizeyin Roma şəhərini, Eyfel qülləsinin Parisi, Boğaz körpülərinin İstanbulu simvolizə etdiyi kimi Azərbaycanın tarixi-memarlıq abidələri də şəhərlərimizin simasına çevrilmişdir: Qız qalasının Bakını, Möminə Xatun türbəsinin Naxçıvanı, Xan sarayının Şəkini təmsil etməsi Orta əsr şəhər memarığının başlıca atributu olaraq tanınmışdır.

***Ümummilli lider Heydər Əliyev müasirliklə milli-mənəvi dəyərlərin vəhdətini əsas prinsip kimi irəli sürməklə şəhərlərimizin inkişaf dinamikasında yeni mərhələ açmışdır.*** Bu mərhələdə şəhərlərimizdə abadlıq-quruculuq işləri geniş vüsət almış, təkcə iqtisadi baxımdan deyil, tarixi-memarlıq irsimizin qorunmasına da xüsusi diqqət yetirilmiş, dünya mədəni irsində əhəmiyyətinin müəyyən edilməsi üçün vacib tədbirlər görülmüşdür. Bu sahədə ardıcıl həyata keçirilən mərasimlərin nəticəsi olaraq tarixi şəhərlərimizdən Bakı şəhəri İçərişəhərlə, Şəki şəhəri Xan sarayı ilə birlikdə UNESCO tərəfindən Ümumdünya İrs Siyahısına, Memar Əcəmi sənətinin şah əsəri olan Möminə Xatun türbəsi Ümumdünya İrsi üçün namizəd siyahısına daxil edilmişdir.

***2025-ci ildə Prezident İlham Əliyevin imzaladığı sərəncamlar tarixi-memarlıq abidələrinin qorunması və təbliği prosesinə töhfədir.*** Naxçıvan şəhərində yerləşən Möminə Xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında dövlət başçısının 22 may 2025-ci il tarixli sərəncamı Azərbaycanın Orta əsr memarlığının bu qiymətli incisinə yeni həyat bəxş etməkdə nə qədər əhəmiyyət daşıyırsa, Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında 30 dekabr 2025-ci il tarixli Prezident sərəncamı uzun əsrlər arxasından bu günə gəlib çatmış mədəniyyət zənginliklərimizin beynəlxalq arenada tanıdılmasında bir o qədər mühüm əhəmiyyət kəsb edir.

***Müasir Azərbaycan şəhərləri tarixi-mədəni irsi, keçmişlə gələcək arasında innovativ sintez yaradan memarlıq quruluşu ilə ümumdünya mədəniyyətini zənginləşdirməkdədir.*** Onlar tarixlə müasirliyin ən yaxşı memarlıq xüsusiyyətlərini özündə ehtiva edir. Bu gün qabaqcıl yanaşmalar və milli təcrübələri özündə birləşdirən memarlıq ənənələri innovativ arxitekturanın unikal nümunəsi olan Heydər Əliyev Mərkəzi, Alov qüllələri, Ağ şəhər memarlıq kompleksi ilə tarixiliyin qiymətli nümunələrindən olan Qız qalası, Şirvanşahlar sarayı ilə birlikdə İçərişəhər memarlıq kompleksinin yaratdığı əvəzolunmaz harmoniya timsalında paytaxtımızda ən gözəl şəkildə əks olunmuşdur.

2026-cı ildə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının (WUF13) Bakı şəhərində keçirilməsi qərarı Azərbaycan şəhərsalma mədəniyyətinin tarixi ənənələri və inkişaf dinamikasındakı innovativ nailiyyətlərin beynəlxalq müstəvidə təqdir edilməsinin təzahürüdür.

***Zeynəb QULİYEVA,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix elmləri doktoru***

# Anlayışlar, onların mənası və siyasi reallıq

**Azərbaycanın son onilliklərdə keçdiyi siyasi və tarixi yol göstərdi ki, bəzi anlayışlar sadəcə nəzəri kateqoriya deyil, dövlətin taleyinə birbaşa təsir edən real amillərdir. Azadlıq, demokratiya, ədalət, hakimiyyət və insan hüquqları müxtəlif dövrlərdə fərqli şəkildə başa düşüldü, fərqli şəkildə tətbiq olundu və bunun nəticələri də fərqli oldu. 1990-cı illərin əvvəllərində bu anlayışlara abstrakt, şüar kimi və məsuliyyətdən qopmuş yanaşma dövlətin zəifləməsinə, idarəolunmazlığa və siyasi xaosa gətirib çıxardı. Sonrakı mərhələdə isə eyni anlayışların dövlətçilik, siyasi məsuliyyət və real nəticə prizmasından dərk edilməsi sabitlik, suverenlik və inkişaf üçün əsas şərtə çevrildi. Bu araşdırmada məhz bu beş anlayışın seçilməsi təsadüfi deyil. Çünki müstəqil Azərbaycan təcrübəsində ən ağır səhvlər də, ən mühüm uğurlar da məhz bu anlayışların necə başa düşülməsi və necə tətbiq olunması ilə birbaşa bağlı olub.**



Burada problem anlayışın mahiyyətində deyil, onun hansı rakursdan, hansı kontekstdə və hansı məna yükü ilə təqdim olunmasında ortaya çıxır. Bu isə bəzən qəsdən edilən manipulyasiya; bəzən isə şüurda yaranmış sadələşdirmənin, vərdişə çevrilmiş yanlış istifadənin nəticəsidir.

Azadlıq, demokratiya, ədalət, hakimiyyət və insan hüquqları bu qəbildən olan anlayışlardır. Bu sözlər bu gün təkcə akademik mətnlərin və elmi araşdırmaların predmeti deyil; onlar ictimai debatların, siyasi ritorikanın və hüquqi polemikaların əsas dilinə çevrilib. Məhz buna görə bu anlayışların necə işlədilməsi artıq sadəcə nəzəri məsələ deyil, birbaşa siyasi və hüquqi nəticələr doğuran praktiki problemdir.

Gündəlik siyasi diskursda bu anlayışlar çox vaxt izaha ehtiyacı olmayan, hamı üçün aydın və mübahisəsiz qəbul edilən dəyərlər kimi təqdim olunur. Onlar dialoqun başlanğıcı deyil, yekunu kimi çıxış edir; arqumentin izahı yox, avtoritar istinad nöqtəsi rolunu oynayır. Nəticədə, anlayışlar analitik vasitə olmaqdan çıxır, tədricən siyasi alət funksiyası daşımağa başlayır. Eyni söz bir kontekstdə düşüncəni aydınlaşdırdığı halda, başqa kontekstdə mübahisəni susduran hökmə çevrilə bilir.

Bu fərqi anlamaq üçün XX əsr dil fəlsəfəsinin əsas tezislərindən biri açar rol oynayır. Təsadüfi deyil ki, Ludviq Wittgenstein sözlərin real mənasının onların abstrakt tərifində deyil, dildə necə istifadə olunmasında üzə çıxdığını vurğulayırdı.

Bu baxımdan azadlıq, demokratiya və ədalət kimi anlayışların real siyasi məzmunu yalnız onların necə izah edilməsindən deyil, həmin izahların hansı kontekstdə, hansı rakursda və hansı siyasi məqsədlə istifadə edilməsindən asılıdır.

Bu anlayışların mənası öz-özlüyündə dəyişmir; lakin onlar dil daxilində hansı məna yükü ilə təqdim olunması, hansı kontekstdə işlədilməsi, hansı baxış bucağından təqdim olunması cəmiyyətin onları necə qəbul edəcəyini müəyyənləşdirir.

Məhz burada anlayışların abstraklaşdırılması problemi ortaya çıxır. Azadlıq, ədalət və insan hüquqları real siyasi və hüquqi kontekstdən qoparıldıqda, sanki tarixi, institusional və məsuliyyət mexanizmlərindən asılı olmayan, öz-özünə mövcud dəyərlər kimi təqdim edilir. Halbuki siyasi təcrübə göstərir ki, bu anlayışlar yalnız konkret qərarlar, institutlar və məsuliyyət çərçivəsində real məna qazanır. Əks halda, onlar ümumi mənəvi çağırış və şüar səviyyəsində qalır, praktik nəticə doğurmur.

Bu problem siyasətə realist yanaşmanın əhəmiyyətini ön plana çıxarır. Realpolitik kimi tanınan bu yanaşma prinsiplərin inkarını deyil, onların real siyasi, tarixi və institusional şərtlər daxilində tətbiqini əsas götürür. Prinsiplər bu şərtlərdən kənarda, mütləqləşdirilmiş və kontekstdən qopmuş formada tətbiq edildikdə, öz daxili məntiqini itirir və ilkin məqsədlərinə xidmət etmir. Belə hallarda prinsip normativ istiqamət olmaqdan çıxır, ifrat tələblər toplusuna çevrilir.

Klassik dövlətçilik təcrübəsində siyasət niyyətlərin saflığı ilə deyil, nəticələrin məsuliyyəti ilə ölçülür. XX əsrdə bu fikir nəzəri səviyyədə Maks Veber tərəfindən daha aydın ifadə edilmiş, siyasətdə “məsuliyyət etikası” anlayışı ilə izah olunmuşdur. Burada əsas məsələ dəyərlərin rəddi deyil, onların tətbiqi zamanı siyasi nəticələrin və məsuliyyətin əsas götürülməsidir.

Bu yanaşma yalnız nəzəri konstruksiya deyil, siyasi tarixdə dəfələrlə özünü doğrultmuş praktik xəttdir. Məsələn, Abraham Lincoln ABŞ-da vətəndaş müharibəsi şəraitində köləliyin ləğvini abstrakt əxlaqi şüar kimi deyil, dövlətin bütövlüyünü qorumağa yönəlmiş siyasi qərar kimi həyata keçirdi. Onun qəbul etdiyi sərt tədbirlər dövrün bir hissəsi tərəfindən “azadlığa zidd” kimi qiymətləndirilsə də, nəticə etibarilə azadlığın real və institusional formaya düşməsinə xidmət etdi. Burada prinsip nəticə ilə öz doğruluğunu sübut etdi.

Oxşar məntiqi XIX əsrdə Otto fon Bismarkın dövlətçilik təcrübəsində görürük. Alman birliyinin yaradılması liberal-demokratik idealların mexaniki tətbiqi ilə deyil, siyasi reallığın məntiqi hesablanması ilə mümkün oldu. Bismark üçün azadlıq və hüquq məqsəd yox, dövlətin davamlılığını təmin edən alətlər idi. Onun siyasəti dövründə tez-tez tənqid edilsə də, tarixi nəticə bu yanaşmanın effektivliyini göstərdi.

Azərbaycan təcrübəsində də eyni məntiqi xətti görmək mümkündür. Müstəqillik əldə edildikdən sonra azadlıq, demokratiya və ədalət kimi anlayışların dövlətçilik məsuliyyətindən qopmuş və daha çox şüar səviyyəsində tətbiqi siyasi parçalanmaya, idarəetmə böhranına və hüquqi nizamsızlığa gətirib çıxardı. Məhz bu şəraitdə ümummilli lider Heydər Əliyev dühası həmin anlayışları abstrakt ideya kimi deyil, dövlətin yaşaması və suverenliyin qorunması ilə bağlı praktik siyasi kateqoriyalar kimi yenidən müəyyənləşdirdi. O göstərdi ki, azadlıq idarəolunmazlıq, demokratiya isə hərc-mərclik deyil; və bu anlayışlar yalnız güclü dövlət iradəsi və milli birliyin möhkəmləndirilməsi ilə real məna qazana bilər. Azərbaycançılıq ideyası məhz bu mərhələdə abstrakt çağırış olmaqdan çıxaraq, ümummilli lider Heydər Əliyevin təqdim etdiyi siyasi məna çərçivəsində dövlətin mənəvi dayağına və milli həmrəyliyin əsas platformasına çevrildi.

Prezident İlham Əliyev dövründə bu yanaşma ardıcıl şəkildə davam etdirilərək, bu anlayışların real nəticə ilə təsdiqi təmin olundu. Suverenliyin bərpası, təhlükəsizlik və inkişaf bu siyasətin ölçülə bilən nəticəsinə çevrildi. Bu nəticələr göstərdi ki, azadlıq, demokratiya və dövlətçilik bir-birinə qarşı qoyulan anlayışlar deyil; düzgün siyasi iradə və məsuliyyət çərçivəsində tətbiq edildikdə onlar suverenliyin möhkəmlənməsinə, daxili sabitliyə və davamlı inkişafa xidmət edən bir-birini tamamlayan reallıqlardır.

Bu misallar göstərir ki, siyasi dəyərlərin taleyi onların necə səslənməsindən yox, hansı məsuliyyət çərçivəsində və hansı nəticələrlə tətbiq olunmasından asılıdır.

Bu fərqi dərk etmək dövlət xadimini adi siyasətçidən ayıran əsas cəhətlərdən biridir. Normativ dəyərlərin hansı şərtlərdə və hansı nəticələrlə tətbiq oluna biləcəyini qiymətləndirmək siyasi qərarı idealist niyyətdən çıxarıb dövlətçilik məsuliyyəti səviyyəsinə qaldırır. Məhz bu nöqtədə siyasət abstrakt idealların yox, real tarixi məsuliyyətin sahəsinə çevrilir.

Bu yazının məqsədi anlayışlara yeni təriflər vermək deyil. Məqsəd azadlıq, demokratiya və ədalət kimi anlayışların kontekstdən qoparılaraq işlədildiyi hallarda siyasi düşüncədə problemlərin yarada biləcəyini göstərmək və bu məsələnin müzakirə olunmasının zəruriliyinə diqqət çəkməkdir.

Yekun olaraq demək olar ki, söz yalnız konkret kontekstdə və müəyyən perspektivə yönəldikdə siyasi və ictimai məna qazanır. Perspektivsiz söz ya sadəcə lüğət vahidi olaraq qalır, ya da əksinə, daşımalı olduğu məna ilə ziddiyyət yaradaraq destruktiv təsir göstərir. Sözün arxasında duran perspektivi görən və ona işarə edən natiq isə, əslində, bu perspektivə inanan və onu daşıyan liderdir. Azərbaycan tarixinin ən ağır dövrlərində belə “Qarabağ azad ediləcək” deyən və o vaxt çoxlarının görə bilmədiyi perspektivi görən Ulu öndərin mövqeyi də məhz bu baxımdan tarixi əhəmiyyət kəsb edir.

*(ardı var)*

***Mehdi ABDULLAYEV,***
***hüquq elmləri doktoru,***
***Prezident yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət İdarəçiliyinin hüquqi təminatı kafedrasının müdiri***

*(əvvəli 18 fevral tarixli sayımızda)*

Məqsəd qurultayın təşkilati işlərinin mərkəzi orqanlarla əlaqələndirilməsidir. Bu sənəddən konkret nəticələr çıxarmaq olar:

*1. Türkoloji Qurultayın təşkili yüksək səviyyədə koordinasiya olunurdu, qurultayın təşkili sırf elmi dairələrin deyil, həm də siyasi rəhbərliyin, konkret halda Azərbaycan K(b)P MK Rəyasət Heyətinin nəzarətində idi.*

*2. Məmmədzadə və Zifeldin Moskvaya ezam olunması həmin şəxslərin təşkilatçılıq baxımından önəmli fiqurlar olduğunu göstərir. Onların ezam olunması qurultaydan öncə sadəcə yerli təşəbbüs deyil, SSRİ səviyyəsində əhəmiyyət daşıdığını göstərir.*

*3. S.M.Kirovun məsələyə birbaşa müdaxilə etməsi faktı göstərir ki, məsələyə partiyanın yüksək rəhbərliyi də diqqət yetirir, Kirov kimi nüfuzlu bir şəxsin bu təklifi irəli sürməsi qurultayın siyasi əhəmiyyətini vurğulayır.*

*4. Qərarın yekdilliklə qəbul olunması partiya rəhbərliyi arasında fikir birliyi olduğunu və qurultayın keçirilməsinin ideoloji və təşkilati cəhətdən dəstəkləndiyini göstərir.*

*5. Əsas məqsəd mərkəzi orqanlarla əlaqələndirmə qurultayın yalnız elmi deyil, həm də ideoloji və siyasi bir tədbir kimi planlaşdırıldığını, mərkəzdən icazə və razılaşdırma olmadan keçirilməsinin mümkünsüz olduğunu göstərir.*

1926-cı il I Ümumittifaq Türkoloji Qurultayı sırf elmi tədbir olmaqla yanaşı, Sovet siyasi sistemində mərkəzi idarəetmə ilə sıx əlaqəli, ideoloji nəzarət altında hazırlanan bir hadisə idi. Onun təşkili SSRİ rəhbərliyinin ciddi nəzarəti və razılığı ilə həyata keçirilirdi.

Bakı Türkoloji Qurultayı elmi təşəbbüs kimi təqdim olunsa da, arxiv sənədləri göstərir ki, bu tədbirin hazırlanması və keçirilməsi sırf elmi müstəvidə deyil, yüksək siyasi və inzibati səviyyədə, mərkəzi sovet orqanları ilə sıx əlaqədə həyata keçirilirdi. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin həm Rəyasət Heyəti, həm də Katibliyi müxtəlif tarixli iclaslarında qurultayla bağlı məsələləri müzakirəyə çıxarmış, təşkilati təklifləri rəsmi qərarlarla təsdiqləmiş, əsas təşkilatçıların Moskvaya ezamını təmin etmiş və ideoloji nəzarəti əlində saxlamışdır.

Bu sənədlər, bir tərəfdən Sovet hakimiyyətinin türk xalqlarının dil və mədəniyyət məsələlərinə dair siyasətini sistemli şəkildə yönləndirdiyini göstərir; digər tərəfdən isə Azərbaycan elmi-mədəni mühitinin maddi-texniki şəraitinin yetərsizliyi (məsələn, Tədqiq və Tətəbbö Cəmiyyətinin yararsız binada fəaliyyət göstərməsi) fonunda ciddi strukturlaşmaya və təşkili dəstəyə ehtiyac olduğunu üzə çıxarır.

Beləliklə, qurultay həm elmi mərkəzləşmə, həm də ideoloji idarəetmə baxımından Sovet rejiminin Türk dünyasına münasibətinin konkret təzahürü kimi çıxış edir. Bu, eyni zamanda, yerli təşəbbüslərin yalnız mərkəzin razılığı və təsdiqi ilə həyata keçirilə biləcəyini, sovet sistemində elmi fəaliyyətin də siyasi nəzarətdən kənarda olmadığını nümayiş etdirir.

Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi gizli şöbəsinin 16 noyabr 1925-ci il tarixli iclasının 82 saylı protokoluna əsasən S.M.Kirovun məruzəsi dinlənilir, çıxışdan irəli gələn qurultayın keçirilməsinin təxirə salınması məsələsi müzakirə edilir.


Азербайджанская Коммунистическая Партия (большевиков) ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ
отдел СЕКРЕТНЫЙ
6
Слушали | Постановили

Qərara alınır ki, qurultayın çağırılması təxirə salınsın, keçirilmə vaxtı yoldaş Məmmədzadə və yoldaş Zifeld Moskvadan qayıtdıqdan sonra onların iştirakı ilə müəyyən edilsin. Yoldaş S.Ağamalıoğlu və R.Axundova tapşırılsın ki, Rəyasət Heyətinin növbəti iclasına qədər Türkoloji Qurultayın çağırılması üzrə yenidən təşkil olunmuş Təşkilat Komissiyasının tərkibini təqdim etsinlər.

* * *

Bu sənəd qurultayın vaxtının yenidən müəyyənləşdirilməsi və təşkilat komitəsinin tərkibinin yenilənməsi barədə qərarları ehtiva edir. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Gizli şöbəsinin 1925-ci il 16 noyabr tarixli iclasının protokolu bir daha göstərir ki, Türkoloji Qurultayın keçirilməsi təkcə elmi və təşkilati deyil, həm də ciddi şəkildə siyasi qərarlara bağlı bir məsələ idi. S.M.Kirovun çıxışı əsasında qurultayın keçirilməsinin təxirə salınması gündəmə gətirilmiş və iclasda rəsmi qərar kimi qəbul olunmuşdur.

Qərarda vurğulanan əsas səbəb, Qurultayın konkret vaxtının Moskvaya ezam olunmuş nümayəndələrin – Məmmədzadə və Zifeldin – qayıdışından sonra müəyyən olunmasıdır. Bu bir daha sübut edir ki, qurultayın vaxtı belə mərkəzdən gələn razılaşmalardan və əlaqələndirmələrdən asılı idi.

Eyni zamanda, Təşkilat Komitəsinin yenidən tərkibinin formalaşdırılması məsələsi də gündəmə gətirilmiş, iş S.Ağamalıoğlu və R.Axundova həvalə edilmişdir. Bu fakt göstərir ki, təşkilati strukturda dəyişikliklərə ehtiyac duyulmuş, işin daha səmərəli və uyğun şəkildə davam etdirilməsi üçün yeni bir heyətin hazırlanması vacib sayılmışdır. Bu sənəd bir daha sübut edir ki, qurultay tam şəkildə Sovet siyasi idarəçiliyi çərçivəsində planlaşdırılmış və həyata keçirilmişdi. Hətta qurultayın keçirilmə vaxtı belə yerli elm adamlarının və təşkilatçıların istəyi ilə deyil, Moskvadakı koordinasiyaların nəticəsinə əsasən müəyyən olunurdu. Bu isə sovet dövründə elmi təşəbbüslərin belə mərkəzləşdirilmiş ideoloji nəzarət altında həyata keçirildiyini göstərir.

Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin protokol çıxarışında tarix və protokol nömrəsi göstərilməsə də, Gizli şöbənin məxfi sənədinə əsasən Xalq Komissarları Sovetinə (XKS) təklif edilir ki, Türkoloji Qurultayın iclaslarının keçirilməsi üçün Maarif Sarayını (İsmailiyyənin binası – N.M.) tam şəkildə təchiz etsin.

* * *

Bu sənəd qurultay üçün fiziki məkan məsələlərinin, yəni Maarif Sarayının təchizatının yekunlaşdırılması ilə bağlı qərarı əks etdirir. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin tarixsiz protokol çıxarışına əsaslanan məxfi qərar göstərir ki, Türkoloji Qurultayın keçirilməsi üçün yalnız təşkilati və ideoloji hazırlıqla kifayətlənilmir, eyni zamanda, fiziki və maddi-texniki şəraitin təmin olunması məsələsi də dövlət səviyyəsində həll olunurdu. Xalq Komissarları Sovetinə ünvanlanan bu təkliflə partiya rəhbərliyi, qurultayın keçiriləcəyi məkan – Maarif Sarayının tam şəkildə təchiz edilməsini tələb edirdi. Bu isə sübut edir ki, qurultay sıradan elmi tədbir deyildi. Onun keçirilməsi siyasi simvolizm və dövlət prestiji daşıyırdı və buna uyğun olaraq ən yüksək şəraitin yaradılması zəruri hesab edilirdi. Belə bir yanaşma həm tədbirə verilən əhəmiyyətin, həm də tədbirin ideoloji nümayiş xarakterinin göstəricisidir.

*I Ümumittifaq Türkoloji Qurultay*

# 100 il sonra "danışan" məxfi sənədlər

## *Arxiv materiallarının xronoloji transkripsiyası, seçmə tərcümələr və şərhlər*


Азербайджанская Коммунистическая Партия (большевиков) ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ
отдел СЕКРЕТНЫЙ
7
Слушали | Постановили

Arxiv sənədlərinin təhlili göstərir ki, 1926-cı il I Ümumittifaq Bakı Türkoloji Qurultayı yalnız elmi təşəbbüs deyil, ideoloji, inzibati və simvolik baxımdan yüksək səviyyədə nəzarət olunan bir dövlət layihəsidir. Qurultayın keçirilmə prosesi çoxsəviyyəli sovet idarəetmə strukturlarında – Azərbaycan KP(b) MK-nın Gizli şöbəsi və Rəyasət Heyəti səviyyəsində müzakirəyə çıxarılır, onun bütün mərhələləri – vaxtı, təşkilat komitəsinin tərkibi və fiziki şəraitin təmin olunması – partiya qərarları ilə tənzimlənir.

***1. Vaxt:*** *Qurultayın keçirilməsi Moskvaya ezam olunmuş nümayəndələrin qayıdışından asılı olaraq təxirə salınır. Bu, mərkəzin razılığı olmadan heç bir təşəbbüsün həyata keçirilə bilməyəcəyini açıq şəkildə göstərir.*

***2. Təşkilat Komitəsinin yenilənməsi:*** *Partiya rəhbərliyi komitənin tərkibində dəyişiklik edilməsini tələb edir. Bu dəyişiklik yalnız təşkilati səmərəlilik deyil, həm də siyasi uyğunluq prinsipi ilə diktə olunur.*

***3. Maarif Sarayının tam təchiz olunması:*** *Qurultay üçün xüsusi məkanın (Maarif Sarayının) yüksək səviyyədə hazırlanması, onun sıradan elmi tədbir yox, ideoloji nümayiş və dövlət imici baxımından əhəmiyyətli bir akt kimi qəbul edildiyini sübut edir.*

Bu faktlar göstərir ki, Türkoloji Qurultay sovet rejimi üçün təkcə elmi əməkdaşlıq platforması yox, həm də türk xalqlarının dil və kimlik məsələləri üzərində dövlət nəzarətini möhkəmləndirmək üçün alət idi. Qurultayın harada, kim tərəfindən, nə zaman və necə keçiriləcəyi məsələləri ideoloji planlaşdırmanın tərkib hissəsi idi. Hər bir detal mərkəzi hakimiyyətin icazəsi və təsdiqi ilə həyata keçirilirdi.

Bu sənəd də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin Gizli iclas protokolundan çıxarışdır. Tarix və protokol nömrəsi göstərilməsə (səbəbə aydın deyil) də qərar məlumdur:

*a) Azərbaycanın nümayəndə heyətinin bütün üzvlərinə təklif edilsin ki, qurultaya hazırlıqda ən fəal şəkildə iştirak etsinlər;*

*b) Türkoloji Qurultayın çağırılması ilə bağlı MK ÜİK(b)P Katibliyinə məlumat vermək MK katibinə həvalə olunsun.*

*c) SSRİ Xalq Komissarları Sovetinə (XKS) tapşırılsın ki, Azərbaycanda qurultaya hazırlıq işləri üçün zəruri vəsaitləri ayırsın.*

*ç) Qurultayın çağırılması üzrə Təşkilat Komissiyasına tapşırılsın ki, Azərbaycanın hazırlığı ilə bağlı xərclər smetasını XKS-ə təqdim etsin.*

* * *

Bu sənəd, Azərbaycan nümayəndələrinin qurultaya hazırlıq işlərinə cəlb olunması, mərkəzi hakimiyyət orqanlarına məlumat verilməsi və maliyyə təminatının


Азербайджанская Коммунистическая Партия (большевиков) ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ
отдел СЕКРЕТНЫЙ
8
Слушали | Постановили

ayrılması ilə bağlı təşkilati qərarları əhatə edir. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin tarixsiz gizli protokolundan görünür ki, Türkoloji Qurultay yalnız ideoloji nəzarət baxımından deyil, eyni zamanda, maddi, inzibati və diplomatik səviyyədə koordinasiya olunan dövlət tədbiri idi.

Sənəddə:

*1. Nümayəndələrin fəal iştirakı təşviq olunur. Bu göstərir ki, təkcə rəsmi komitələr deyil, bütün nümayəndələr səfərbər olunmalı, təşəbbüsə cəlb edilməli idi;*

*2. Qurultay haqqında məlumat ÜİK(b)P Katibliyinə çatdırılır. SSRİ səviyyəsində mərkəzi partiya rəhbərliyinin məlumatlandırılması vacib sayılırdı;*

*3. Maliyyələşdirmə məsələsi birbaşa SSRİ Xalq Komissarları Sovetinə tapşırılır. Qurultayın sadəcə yerli imkanlarla deyil, birbaşa mərkəzin ayırdığı vəsaitlə reallaşdırılacağını sübut edir;*

*4. Xərclər smetasının hazırlanması və təqdim edilməsi. Tədbirin planlaşdırılmasında büdcə məsuliyyəti dəqiq bölüşdürülmüşdü və formal-maliyyə strukturu yaradılmışdı.*

Bu qərarlar göstərir ki, qurultay təşkilati-maliyyə baxımından da tam mərkəzləşdirilmiş şəkildə həyata keçirilirdi.

**A.** Qurultay yalnız elmi ictimaiyyətin təşəbbüsü deyil, birbaşa partiya rəhbərliyi tərəfindən formalaşdırılmış strateji layihə idi;

**B.** Qurultayın keçirilməsi SSRİ mərkəzi orqanlarının razılığına və nəzarətinə tabe idi;

**C.** Təşkilat Komitəsinin tərkibi dəyişdirilir, maarif məkanları xüsusi göstərişlə təchiz olunur, ezamiyyətlər həyata keçirilir, maliyyə vəsaiti ayrılır və bu proseslərin hamısı ideoloji uyğunluq və inzibati planlaşdırma ilə tənzimlənirdi;

**Ç.** Nümayəndələrin aktiv iştirakı, smetanın təqdim olunması və XKS-dan maliyyə tələb olunması isə bu tədbirin sıradan bir elmi simpoziumdan çıxaraq dövlətin siyasi vitrininə çevrildiyini göstərir.

I Ümumittifaq Türkoloji Qurultay Sovet hakimiyyətinin türk xalqlarına yönəlmiş dil, mədəniyyət və kimlik siyasətini formalaşdırmaq və yönləndirmək üçün seçdiyi alətlərdən biri olmuşdur. Onun hər bir mərhələsi – təşəbbüsdən tutmuş təchizata, vaxtlamadan tutmuş smetaya qədər – mərkəzi partiya strukturlarının razılığı və təlimatı ilə müəyyən edilmişdir.

Bu, sovet elmi və mədəni siyasətinin necə idarə olunan, nəzarətli və məqsədli bir aparat halına gəldiyini ən açıq formada göstərən nümunədir.

**Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Rəyasət Heyətinin tam məxfi 1926-cı il 25 yanvar tarixli 9 nömrəli iclasının protokolundan çıxarış.**

*Müzakirə edildi:*

*1. Türkoloji Qurultay haqqında.*

*(Məruzəçilər: yoldaş Cəbiyev və yoldaş Zifeld)*

*Qərar verildi:*

*a) Türkoloji Qurultayın keçirilmə tarixi 1926-cı il fevralın 25-nə təsdiq edilsin.*

*b) ASSR (Azərbaycan SSR) və NSSR (Naxçıvan MSSR) adından qurultaya aşağıdakı nümayəndələr təsdiq edilsin:*

*1. R.Axundov*
*2. F.Ağayev*
*3. Zeynallı*
*4. Pənah Qasımov*
*5. M.Quliyev*
*6. A.Sultanova*
*7. Əfəndizadə*

*c) Qurultayda Azərbaycan nümayəndə heyətinə dair meydana çıxacaq bütün məsələlər AK(b)P MK-nın Katibliyi ilə razılaşdırılmaqla Komissiyaya həvalə edilsin.*


Азербайджанская Коммунистическая Партия (большевиков) ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ
отдел СЕКРЕТНЫЙ
9
Слушали | Постановили

* * *

Bu artıq qurultayın konkret tarixini (25 fevral 1926-cı il) və Azərbaycan tərəfdən rəsmi nümayəndə heyətinin tərkibini təsdiqləyən olduqca mühüm bir sənəddir, qurultayın qərarlaşdırılmış mərhələyə keçdiyini sübut edir, həm təşkilati, həm də siyasi-diplomatik baxımdan əhəmiyyətlidir.

1926-cı il 25 yanvar tarixli tam məxfi protokol çıxarışı göstərir ki, artıq Türkoloji Qurultayın keçirilməsi ilə bağlı bütün əsas qərarlar yekunlaşdırılmış və rəsmiləşdirilmişdir. Məhz bu sənədlə:

*1. Qurultayın tarixi rəsmi şəkildə 25 fevral 1926-cı il olaraq təsdiq edilir – bu, əvvəlki sənədlərdə görülən qeyri-müəyyənlik və təxirəsalmaların başa çatdığını göstərir;*

*2. Azərbaycan və Naxçıvan MSSR nümayəndə heyətinin tam tərkibi açıqlanır və təsdiqlənir – bu da sübut edir ki, nümayəndələr sadəcə elmi əsaslarla yox, siyasi etibarlılıq və partiya ilə uzlaşma prinsipi ilə seçiliblər;*

*3. Nümayəndə heyətinə dair bütün məsələlərin partiya katibliyi ilə razılaşdırılması şərtidir, bu isə bir daha göstərir ki, Qurultayda iştirak edənlər yalnız elmi mövqeyə görə deyil, ideoloji uyğunluq və mərkəzi nəzarət çərçivəsində fəaliyyət göstərirlər.*

Bu sənəd, əvvəlkilərdən fərqli olaraq, hazırlıq, maliyyələşmə, təşkilat komitəsi və təchizat məsələlərinin artıq konkret nəticəyə gəldiyini və qurultayın siyasi və inzibati baxımdan tam hazırlandığını göstərir:

1925-ci ilin oktyabr, noyabrında təşkilati əsaslar müəyyən edilir, təkliflər təsdiqlənir, lakin qurultay Moskvadakı koordinasiyalara görə təxirə salınır. Maarif Sarayının təchizi və maddi vəsaitin ayrılması SSRİ Xalq Komissarları Sovetinə həvalə edilir, bu isə mərkəzin tədbirə yüksək səviyyəli simvolik əhəmiyyət verdiyini göstərir. Nümayəndə heyətinin fəaliyyəti, smetaların hazırlanması və Katibliklə razılaşdırma – bütün bu proseslərin mərkəzi partiya strukturlarının tam nəzarəti altında həyata keçirildiyini sübut edir. 25 yanvar 1926-cı il tarixli qərar isə bütün bu mərhələlərin nəticəsi olaraq siyasi və ideoloji baxımdan elmi nümayəndə heyətinin iştirakı ilə qurultayın rəsmi tarixini və heyətini təsdiqləyir.

I Bakı Türkoloji Qurultayı Sovet ideoloji aparatının türk xalqlarının dili, mədəniyyəti və milli kimliyi üzərində nəzarəti gücləndirmək üçün hazırladığı, mərkəzləşdirilmiş, siyasi və inzibati cəhətdən tam yönləndirilmiş bir tədbir olmuşdur. Onun bütün mərhələləri – təşəbbüsdən təsdiqə, təchizatdan iştirakçıların seçiminə qədər elmi müstəvidən çox, dövlət nəzarətində olan ideoloji-inzibati müstəvidə formalaşdırılmışdır.

I Türkoloji Qurultaya hazırlıqlar daha ciddi şəkildə 1924-cü ilin aprelindən başlamış və bunun üçün SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Təşkilat Komissiyası yaradılmışdı. Əvvəlcə konfransın Türküstanın mərkəzində – Orta Asiyada keçirilməsi planlaşdırılır, lakin siyasi və texniki səbəblər buna imkan vermədiyindən və təcili xarakter daşıdığından Azərbaycan, artıq konfrans keçirməkdə təcrübəli ölkə kimi, bu çətinliyi öz üzərinə götürdü. Azərbaycanı digər türk respublikalarından fərqləndirən cəhətlər çox idi: ilk növbədə güclü sənaye və neft ölkəsi, savadlı yerli və əcnəbi kadr potensialının olması. Moskvadakı mərkəzi qüvvələr də bir sıra mülahizələrdən sonra qurultayın 1925-ci ildə keçirilməsinə icazə verdilər. Qurultayın başlanmasından 1 il əvvəl – 1925-cı il yanvarından Bakıda elmi tədbirlər keçirilmisinə start verilir.

Dünya şərqşünaslarının türkologiyaya olan xüsusi marağını və bu elmin SSRİ-dəki xüsusi əhəmiyyətini nəzərə alaraq Bakıda Ümumittifaq Şərqşünaslıq Elmi Cəmiyyətinin 1925-ci il avqustun 6-da keçirilən iclasında bir sıra pedaqoji və elmi konfransların, bəzi sovet respublikalarının və vilayətlərinin qurultay və simpoziumlarının tövsiyələri nəzərə alınaraq qərar qəbul edilir və təsdiq olunur: "Qurultay SSRİ Şərqşünaslıq Elmi Assosiasiyası və Azərbaycanı Tədqiq və Tədqiqat Cəmiyyətinin təşəbbüsü ilə çağırılsın".

* * *

Bakıda I Türkoloji Qurultayın Çağırılması üzrə Təşkilat Komissiyasının elə həmin gün keçirilən iclasının 1 saylı protokolunda qeyd olunanlara əsasən qurultayın keçirilməsi ilə bağlı əsas gündəlik iş planı təsdiqlənir.


ПРОТОКОЛ № I 14
Комиссии по созыву тюркологического с'езда.
6-го августа 1925 г. гор. Баку.

| СЛУШАЛИ: | ПОСТАНОВИЛИ: |
|---|---|
| 1) Сообщение т. Джабиева о постановлении Первого Всеазербайджанского Краеведческого С'езда. Созвать Тюркологический С'езд. | Принимая во внимание необходимость совместного обсуждения с представителями тюрко-татарских республик важнейших вопросов культурно-просветительной работы среди тюрко-татарских трудящихся СССР вопросов, имеющих помимо чисто научного интереса, в первую очередь большое практическое значение, и ввиду особого интереса востоковедов всех стран к тюркологии и исключительного значения этой науки в СССР постановили: во исполнение постановлений Всесоюзной Научной Ассоциации Востоковедения, 1-го Азербайджанского Краеведческого с'езда, и пожелания ряда педагогических и научных конференций и с'ездов некоторых Советских республик и областей: 1) считать настоятельно необходимым созыв тюркологического с'езда, 2) принять все необходимые меры к скорейшему его созыву. |
| 2) Место созыва С'езда. | Ввиду того, что город Баку, своим культурным и географическим положением среди тюрко-татарских республик, является самым удобным местом, считать необходимым с'езд созвать в Баку, запросив мнение заинтересованных Советских Республик и надлежащих учреждений СССР. |
| 3) Время созыва С'езда. | С'езд созвать в конце 1925 г., не позже первых чисел декабря м-ца. Запросить по этому поводу мнение заинтересованных Советских Республик и областей с тюрко-татарским населением. |
| 4) Порядок дня С'езда. | Программу работ с'езда составить из ряда теоретических и практических вопросов, приняв следующий порядок дня: 1) Тюркология в настоящем и пути ее дальнейшего развития. 2) Классификация тюркских языков и наречий. 3) Происхождение и историческое развитие тюркских языков и наречий. 4) Сравнительная фонетика тюркских языков и наречий в связи с письменностью тюркских языков. 5) Сравнительная морфология тюркских языков и наречий в связи с созданием терминологии на тюркских языках. 6) Родственные связи тюркских языков и наречий с другими языками |

Türkoloji Qurultayın çağırılması ilə bağlı Komissiyanın Qərarı:

1. Yoldaş Cəbiyevin Birinci Ümumazərbaycan Etnoqrafik Qurultayın qərarı haqqında məlumatı. I Türkoloji Qurultayın çağırılması təklifi.

Türk-tatar respublikalarının nümayəndələri ilə birlikdə SSRİ-dəki türk-tatar zəhmətkeşləri arasında aparılan mədəni-maarifləndirmə işi ilə bağlı, sırf elmi maraqla yanaşı, ilk növbədə, böyük praktik əhəmiyyət daşıyan məsələlərin müzakirəsinin vacibliyini nəzərə alaraq, həmçinin bütün ölkələrin şərqşünaslarının türkoloji sahəyə xüsusi marağını və bu elmin SSRİ-dəki fövqəladə əhəmiyyətini nəzərə alaraq, Ümumittifaq Şərqşünaslıq Elmi Assosiasiyasının, I Azərbaycan Etnoqrafiya Qurultayının qərarlarının, bir sıra pedaqoji və elmi konfransların, bəzi Sovet respublikalarının və vilayətlərinin qurultaylarının arzularının icrası məqsədilə qərara alındı:

a) Türkoloji qurultayın çağırılmasını son dərəcə zəruri hesab etmək;

b) Onun ən qısa müddətdə çağırılması üçün bütün zəruri tədbirləri görmək.

2. Qurultayın keçirilmə yeri.

Bakı şəhərinin türk-tatar respublikaları arasında yerləşməsi baxımından mədəni və coğrafi mövqeyi nəzərə alınaraq, ən münasib yer hesab edilərək, qurultayın Bakıda çağırılması zəruri hesab edilsin. Sovet Respublikalarının və SSRİ-nin müvafiq idarələrinin maraqlı rəyləri sorğuya çıxarılsın.

3. Qurultayın keçirilmə vaxtı.

Qurultay 1925-ci ilin sonunda, dekabr ayının ilk günlərindən gec olmayaraq çağırılsın. Bu barədə türk-tatar əhalisinin yaşadığı Sovet respublikaları və vilayətlərin maraqlı rəyi sorğulansın.

4. Qurultayın gündəliyi.

Aşağıdakı gündəlik iş qaydasını nəzərə almaqla qurultayın iş proqramında bir sıra nəzəri və praktik məsələlər tərtib etmək:

1. Müasir dövrdə türkologiya və onun gələcək inkişaf yolları.
2. Türk dilləri və ləhcələrinin təsnifatı.
3. Türk dilləri və ləhcələrinin mənşəyi və tarixi inkişafı.
4. Yazı sistemlərinin müxtəlifliyi kontekstində türk dillərinin və ləhcələrinin müqayisəli fonetikası.
5. Türk dilləri və ləhcələrinin müqayisəli morfologiyası və türk dillərində terminologiyanın yaradılması ilə bağlı məsələlər.
6. Türk dilləri və ləhcələrinin digər dillər və ləhcələrlə (monqol və fin-uqor dilləri ilə) qohumluq əlaqələri, həmçinin etnik nəzəriyyə baxımından bu əlaqələrin izahı.
7. Türk xalqlarının və tayfalarının ilkin dini dünyagörüşləri.
8. Türk xalqları və tayfalarının ilkin tarixi.
9. Türk xalqlarının əlifbaları:
    1. Ərəb
    2. Monqol
    3. Rus
    4. Latın
    5. Çin
    6. Akademik
10. Türk dillərinin orfoqrafiyası.
11. Türk dillərinin tədris üsulları.
12. Türk dillərində terminologiya.
13. Təşkilati məsələlər.

1. Gündəliyə dəyişiklik və əlavələr.

Yuxarıda qəbul edilmiş gündəlik SSRİ MİK-in Millətlər Şurasına, Ümumittifaq Şərqşünaslıq Elmi Assosiasiyasına, Rusiya Elmlər Akademiyasına, RSFSR Xalq Maarif Komissarlığının Etnik Azlıqlar Şöbəsinə, Mərkəzi Etnoqrafiya Bürosuna, MİK-lərə, yerli cəmiyyətlərə və bütün ittifaq və muxtar Sovet respublikalarının xalq maarif komissarlıqlarına, həmçinin qurultaya SSRİ-dən şəxsi qaydada dəvət olunmuş şəxslərə göndərilsin.

***(ardı var)***

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

# Şuşa, Ordubad, bir də Ağdamın “İmarət”i

## Tariximizin daş yaddaşları ICESCO irs siyahısında



**Xəbər verildiyi kimi, bu günlərdə “Şuşa Şəhər Dövlət Qoruğu”, Ağdam “İmarət” Tarix-Memarlıq Muzey Kompleksi və qədim Ordubad şəhəri İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESCO tərəfindən İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilib. Qurumun Daşkənddə keçirilən 13-cü sessiyasında bu barədə rəsmi qərar verilib.**

Milli mədəniyyət beşiyimiz olan Şuşanın ICESCO-nun Siyahısına daxil edilməsi bu qoruq-şəhərin dirçəlməkdə olan tarixi-mədəni irsinə verilən dəyərin əyani təcəssümüdür. Xatırladaq ki, hələ 2023-cü ildə Şuşa “Türk dünyasının mədəniyyət paytaxtı”, 2024-cü ildə isə İslam Dünyasının Mədəniyyət Paytaxtı elan edilmişdi.

İlk dəfə olaraq beynəlxalq səviyyədə layiqli qiymətini alan Ağdamın məşhur tarixi-memarlıq kompleksində Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın imarəti, onun və oğlu İbrahimxəlil xanla nəvəsi Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Xurşidbanu Natəvanın, digər tanınmış şəxslərin məzarları yerləşir. “İmarət” bundan sonra daha etibarlı qorunacaq.

Ordubada gəlincə, bu şəhər 1977-ci ildən başlayaraq tarix-memarlıq qoruğu statusu daşıyır və 2001-ci ildən UNESCO-nun İlkin Siyahısındadır. 2024-cü il fevralın 21-də isə Prezident İlham Əliyev “Ordubad” qoruğunun yaradılması haqqında sərəncam imzalayıb. Budur, artıq həmin qoruq İslam Dünyası İrsinin İlkin Siyahısında yer alıb. Qədim tarixi ilə zəngin olan Ordubad haqqında bir qədər ətraflı söhbət açmaq istəyirik.

XVII əsr tarixçisi İsgəndər Münşi yazırdı: “Günəş Ordubadın ulduzudur. O, behiştə verilən tərifə layiqdir. Huri-mələklərin gözünü onun Nəzərə dağı işıqlandırır”. Doğru qənaətdir. Çünki bu şəhər İslam mədəniyyətinin yayıldığı, ticarət və tolerantlıq mərkəzi kimi tanınan bir məkandır. Görənlər bilir ki, onun dar küçələri, qədim tikililəri, türbələri, kəhrizləri regionun zəngin tarixini canlı şəkildə əks etdirir. Şəhərin orta əsrlərdən qalma strukturu - məscidlər, hamamlar, karvansaraylar, bazar meydanları, yaşayış evləri və ticarət yolları üzərindəki mövqeyi diqqət çəkir. Bu onun qədimdən hərbi və ticarət mərkəzi kimi mövcudluğunu göstərir.

Elə Ordubadın adı da öz mənşəyini “ordu” (ordu, hərbi düşərgə) və “bad” (şəhər, məskən) sözlərindən alır, mənaca isə “qədim şəhər” və ya “ordu şəhəri” mənasını verir. Bura VII əsrdən etibarən İslam dininin regiona yayılması ilə bu adda mədəniyyətin inteqrasiya mərkəzlərindən birinə çevrilib.

Əsrlər sonra ucalan Anbaras, Cümə, Dilbər, Mingis, Sərşəhər, Təkeşiyi kimi məscidlər, Ordubad hamamı, karvansaraylar və yaşayış kompleksləri İslam memarlığının tipik nümunələridir. Onlardan biri - Dilbər məscidi qadınların cəmiyyətdəki rolunu şərəfləndirmək üçün Naxçıvan xanı Kərim xanın qızı Dilbər xanım tərəfindən tikilib və regionda dini tolerantlığın nümunəsi kimi qəbul olunur.

Ordubadda baramaçılıq geniş yayılıb, bura ərik və üzüm bağları ilə zəngin olub. Tarixi qaynaqlarda qeyd olunur ki, istehsal edilən ipək və kənd təsərrüfatı məhsulları XVI əsrin 2-ci yarısından başlayaraq Ordubaddan Venesiyaya, Marsel, Amsterdam və sair kimi Avropa şəhərlərinə ixrac olunurdu. XX əsrin əvvəllərində keçirilmiş beynəlxalq sərgilərdə Ordubad ipəyi 13 dəfə qızıl medalla təltif edilib. Şəhərin Anbaras, Kürdatal, Mingis, Sərşəhər, Üçtürləngi adlı tarixi məhəllələrində orta əsr şəhərsalma ənənələri qorunub saxlanır və bu struktur İslam dünyasının şəhər mədəniyyətinin klassik nümunəsidir.

Qədim diyar tanınmış elm və mədəniyyət xadimləri ilə də məşhurdur. Məhəmməd Tağı Sidqi, Əhməd Ağa Şəmi, Usta Zeynal Nəqqaş, İbrahim Əbilov, Yusif Məmmədəliyev, Məmməd Səid Ordubadi, Əvəz Sadıq, Hüseyn Razi bu sıradadırlar. Buradan pərvazlanan və gələn il 70 yaşı tamam olacaq şair Rüstəm Behrudinin sərhədləri aşan şaman ruhlu poetik nağmələri dünyanı dolaşır.

*Səbrinə od düşən bu nağılların,*
*Sözü babaların köçündən keçər.*
*Araz Ordubadda dağ-daşdan deyil,*
*Axıb adamların içindən keçir.*

Ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında qeyd edilib ki, ölkə rəhbərliyi daim rayona diqqət və qayğı göstərir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq 2025-ci ildə Ordubad şəhərinin Baş Planının hazırlanması istiqamətində mühüm addımlar atılıb. Dövlət Proqramı üzrə rayonun avtomobil yollarında əsaslı təmir işləri aparılıb. Cümə məscidinin təmir və yenidənqurma işləri yekunlaşıb. Həmçinin Sərşəhər məscidinin və Ordubad Mədrəsəsinin bərpası ilə əlaqədar layihələndirmə işləri başa çatıb. Şəhərdə layihə-smeta sənədləri yekunlaşan Şahidlər Xiyabanı Abidə Kompleksinin abadlaşdırılması nəzərdə tutulur. Hazırda Ordubadın mərkəzindəki Ərbabın iş yeri tarixi binasında əsaslı təmir və bərpa işləri davam etdirilir.

Elektrik enerjisi və təbii qazla fasiləsiz təminat, poçt, rabitə və informasiya xidməti, avtomobil nəqliyyatı, məşğulluq, təhsil, səhiyyə, mədəniyyət, idman, ekoloji və digər sahələrdə görülən işlər də qənaətbəxşdir. Qarşıda duran vəzifələrin həlli sayəsində isə qədim diyar daha da gözəlləşəcək.

Nəhayət, qeyd edək ki, Şuşa Qoruğunun, Ağdamın “İmarət” Kompleksinin və Ordubadın ICESCO-nun İlkin Siyahısına daxil edilməsi, həmçinin 2026-cı ildə ölkəmizdə elan edilmiş “Şəhərsalma və Memarlıq İli”nə mühüm töhfədir. Növbəti mərhələdə Mədəniyyət Nazirliyi tərəfindən nominasiyaların ICESCO-nun Əsas Siyahısına daxil edilməsi yönümündə zəruri işlər aparılacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

**Şəmkirin ağsaqqalları ilə görüş, hər zaman olduğu kimi, bu dəfə də xüsusi ab-havada keçdi. Söhbət təkcə görülən işlərdən, rəqəmlərdən, layihələrdən getmirdi. Söhbət illərin təcrübəsindən, ömür yollarında qazanılmış hikmətdən, bu torpağa bağlılıqdan gedirdi.**

# Ağsaqqal sözünə ehtiyac və ehtiram



Şəmkirli ağsaqqallar rayonun ictimai-siyasi həyatında həmişə söz sahibi olublar. Onların bir kəlmə məsləhəti, bir xeyir-duası bəzən ən böyük qərarlardan daha təsirli olur. Bu görüşdə də vurğulandı ki, qarşıya qoyulan məqsədlərə doğru inamla addımlayarkən məhz belə insanların – zəngin həyat yolu keçmiş, ağlı və təcrübəsi ilə cəmiyyətə dayaq olan ziyalıların varlığına daim ehtiyac var.

Söhbət əsnasında ötən ilin Şəmkir üçün necə zəhmətli, eyni zamanda, uğurlu keçdiyi xatırlandı. Rayonda həyata keçirilən layihələrdən söhbət açıldı, görülən işlər bir daha yada salındı. Bu işlərin hər birində insanların rahatlığı, rifahı, sabahı dayanır. Qarşıda duran planlar da ağsaqqallarla bölüşüldü. Çünki onların bu torpağın gələcəyinə dair fikri hər zaman qiymətlidir.

Qeyd olundu ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Şəmkirdə geniş tikinti-quruculuq işləri davam edir. 2025-ci ildə dövlət başçısının müvafiq Sərəncamı ilə 20 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun tikintisinə başlanılması rayon üçün mühüm hadisədir. Təbii ki, yol kəndləri, insanları, həm də taleləri birləşdirən bir körpü olacaq.

Ötən il Şəmkir şəhərinin 5 küçəsinin ümumi uzunluğu 4 kilometr olan yollara yeni asfalt örtüyü salınıb, 6,9 kilometr yolda cari təmir işləri aparılıb. Yol infrastrukturunun yenilənməsi ilə yanaşı, rayonun tarixi mərkəzi də daxil olmaqla 9 küçə və parkda abadlıq işləri görülüb, idman qurğuları və uşaq əyləncə meydançaları quraşdırılıb. 237 yaşayış binasının dam örtüyünün əsaslı şəkildə dəyişdirilməsi isə yüzlərlə ailənin gündəlik həyatına rahatlıq gətirib.

Görüşdə Ağsaqqallar Şurası ilə birgə görülən işlərdən də danışıldı. Xatırlandı ki, ümummilli lider Heydər Əliyev ağsaqqallara hər zaman dərin ehtiram göstərib, onların sözünü uca tutub. Bu ənənə bu gün də davam edir. Dövlət səviyyəsində ağsaqqal sözünə verilən dəyər cəmiyyətin mənəvi sütunlarını daha da möhkəmləndirir.

Xüsusilə vurğulandı ki, Şəmkirdə yas mərasimlərinin sadələşdirilməsi, israfçılığın qarşısının alınması istiqamətində formalaşan sağlam ənənə məhz Ağsaqqallar Şurasının dəstəyi ilə mümkün olub. Bu bizim dəyərlərimizin qorunması, insanlara əlavə yükün olmaması üçün atılmış vicdanlı, gərəkli bir addımdır. Zəhmət çəkən ziyalılara, din xadimlərinə, icitmaiyyət nümayəndələrinə təşəkkür ifadə olundu.

Çıxış edən ağsaqqallar ölkəmizdə, eləcə də Şəmkirdə aparılan quruculuq işlərini yüksək qiymətləndirdilər. Onlar əhalinin rifahının yaxşılaşdırılması istiqamətində görülən tədbirlərə görə Prezident İlham Əliyevə Şəmkir ağsaqqalları adından minnətdarlıqlarını bildirdilər.

Görüş səmimi notlarla başa çatdı. Ağsaqqalların xeyir-duası, ürək sözləri bir daha göstərdi ki, Şəmkirin gücü yalnız tikilən yollarında, yenilənən binalarında deyil, həm də bu torpağın ağsaqqal sözündə, insanlarının birliyində, gələcəyə olan inamındadır.

***Hamlet QASIMOV,***
***XQ-nin Gəncəbasar müxbiri***

# Zəngilan qəddini dikəldir...

**İşğaldan azad edildikdən sonra müasir üslubda bərpa olunan Zəngilan rayonu yeni inkişaf mərhələsinə qədəm qoyub. Doğma yurda dönən sakinlər Ağalı və Məmmədbəyli kəndlərində torpağa yeni nəfəs verir, təsərrüfat fəaliyyətini genişləndirirlər.**

Artıq bu kəndlərdə torpaqların əkin məqsədilə istifadəyə verilməsi üçün Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) – eagro.az portalı vasitəsilə müraciətlərin qəbuluna başlanılıb. Məmmədbəyli sakinləri üçün müraciət prosesi martın 13-dək davam edəcək.



Kənd Təsərrüfatı Nazirliyinin məlumatında bildirilir ki, torpaqların güzəştli şərtlərlə icarəyə verilməsi Prezident İlham Əliyevin 2024-cü ildə imzaladığı Fərmanın 4.1-ci bəndinə və Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənmiş müvafiq Qaydalara əsasən həyata keçirilir.

Əkin üçün nəzərdə tutulan sahələr minimum 5 hektar olmaqla suvarılan və əkinə hazır vəziyyətə gətirilmiş torpaqlardır. Burada şaftalı, nektarin, ərik, nar, xurma, çiyələk, qarağat, pomidor, xiyar, badımcan, bibər, soğan, lobya, çuğundur, kök, kələm, qarpız, yemiş, soya, noxud, mərcimək, kartof, süfrəlik üzüm, tütün, şəkər çuğunduru, buğda, arpa, qarğıdalı, yonca və digər yem bitkilərinin əkilməsi nəzərdə tutulur. Əkin sahələrində müasir damlama və çiləmə suvarma sistemləri qurulmalıdır.

Eyni zamanda, Ağalıda kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədilə istifadəyə verilməsi üçün adıçəkilən sayt vasitəsilə sonuncu müraciətlərin qəbuluna başlanıb. Sakinlər EKTİS-də qeydiyyatdan keçərək fermer elektron kabineti əldə edir, sonra təlimlərə cəlb olunur, müqavilələri imzalayırlar. Onların torpaq sahələrinin yerində tanıdılması aprel ayından başlanacaq. İcarə müddəti birillik bitkilər və yonca üçün 2 il, çoxillik əkinlər üçün isə 5 il müəyyən edilib və istifadə nəticələrinə uyğun olaraq uzadılacaq.

Zəngilanlılar dövlətin qayğısını və təşəbbüsünü böyük sevinclə qarşılayırlar. Torpağa bağlılığı ilə tanınan fermer Bəhmən Amanov ilkin müraciət edənlərdəndir. Söhbət zamanı dedi ki, hər iki kəndin əhalisi zəhmətkeşliyi ilə tanınır. Onun anası – Sosialist Əməyi Qəhrəmanı Maral Quliyeva torpağa bağlılıq və zəhmətsevərlik ənənəsini gənc nəslə ötürənlərdən olub. Bu səbəbdən də Bəhmən Amanov və yerliləri həyatlarını “Öldür məni – dirildim səni” deyən torpaqla ünsiyyətsiz təsəvvür etmirlər.

Aqrar sahə üzrə ali təhsilli mütəxəssis olan digər sakin – Bərxudar Hüseynov da dövlət qayğısını yüksək qiymətləndirərək, bu imkanların kənd təsərrüfatının inkişafına və əhalinin güzəranının yaxşılaşdırılmasına böyük təkan verəcəyini vurğuladı.

Məcburi köçkünlük illərində də torpaqla həsbi-halda olmuş Famil Xankişiyev isə qazandığı təcrübəni doğma kəndində tətbiq etmək niyyətindədir. O, uzun illər sahibkarlıq fəaliyyəti ilə məşğul olduğunu və Qusar rayonunda yaratdığı fermer təsərrüfatını Məmmədbəyliyə köçürmək istədiyini bildirdi.

Bəli, bu gün Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri yurd yerlərinin bərəkətli torpaqlarından bəhrələnərək, məhsullarının soraqını ölkə hüdudlarından kənara yaymaq əzmindədirlər. 30 illik ayrılıqdan sonra doğma yurda qovuşan zəngilanlılar torpağı öz nəfəsləri ilə qızdırırlar. Sahələrə toxum səpilir, bağlara yeni pöhrələr əkilir.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Kitabdan boylanan lənkəranlılar

**AMEA Lənkəran Regional Elmi Mərkəzin əməkdaşı, Azərbaycan Jurnalistlər və Yazıçılar birliklərinin üzvü İltifat Əhmədovun bu adda sənədli povesti kitab halında çapdan çıxıb.**




Müəllifin sayca 5-ci olan bu kitabında ömrünün 70 ilini ümumtəhsil məktəblərində və universitetlərdə gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş, bir neçə fransız dili dərsliyinin müəllifi, filologiya üzrə fəlsəfə doktoru, professor Kamal Dadaşovun örnək ömür yolundan bəhs olunur. Sənədli povestdə alimin şəcərəsi, uşaqlıq, yeniyetməlik, gənclik illəri, tələbəlik, aspirantlıq, müəllimlik fəaliyyəti, beynəlxalq konfrans və simpoziumlarda iştirakı barədə hekayət onun öz dilindən nəql edilir. 152 səhifəlik kitab “Apostrof-A” mətbəəsində yüksək poliqrafik üsulla, nəfis, rəngli tərtibatda nəşr olunub.

Professor Kamal Dadaşov hazırda Lənkərandakı doğma ata ocağında, Aşağı Nüvədi qəsəbə inzibati ərazi dairəsinə daxil olan Küvənil kəndində ömrünün ahıl çağlarını yaşayır. Ötən ay 95 yaşı tamam olub.

İstedadlı qələm sahibi olan İltifat Əhmədov hazırda onun həmkarı olmuş digər bir lənkəranlı – 44 günlük Vətən müharibəsində müqəddəs şəhidlik zirvəsinə ucalmış, Mahsun Bağırzadəyə həsr etdiyi “Mahsunun Vətən sevgisi” adlı kitabı çapa hazırlanır.

***XQ***



**Noqay Ordası dövründə ədəbiyyat və mədəniyyət güclü inkişaf edirdi. Şifahi və yazılı ədəbiyyat nümunələri, Şərqin məşhur əsərləri məşhur idi. Folklor aləmində çoxsaylı ritual şeirlər və nağıllar, eləcə də şərq mövzularında olan əsərlər – “Min bir gecə”, “Totınamə”, “Kəlilə və Dimnə” və s. geniş yayılmışdı. Qəhrəmanlıq məzmunlu klassik epik nümunələr – “Kobılandı”, “Alpamış”, “Ər Sayın” kimi əsərlər bu dövrdə etnik özünüdərk nümunəsi idi. Eyni zamanda Noqay dövrünün tarixi hadisələrini təsvir edən “Ər Targın”, “Ər Kosai”, “Ər Kökşe” kimi genealoji sistem üzərində qurulmuş epik dastanlar meydana çıxmış, “Edigey”, “Orak-Mamai”, “Karasai-Qazı”, “Anşibəy Batırları”, “Parpariya”, “Kuttıkiya”, “Nurəddin”, “Musaxan” və s. kimi şeirlər toplusu yaradılmışdı.**

# Noqay Ordası–türk xalqları tarixində iz qoymuş dövlət



Məlumdur ki, Noqay ulusuna daxil olan bir çox türk tayfaları sonradan qazax xalqının etnogenezinin formalaşmasında mühüm rol oynayıb. Noqay erasının şifahi ədəbiyyatının nümayəndələrinə Ketbuqa, Sipira, Asan Kayğı, Kaztuqan, Dospambet, Şalqez (Şalkiz) daxil idi. Belə əsərlər qazax və noqay ədəbiyyatında günümüzə qədər gəlib çatıb, çap edilir və oxunur. Bunlardan “Aysıldın ulu Amet Batır”, “Bozjigit”, “Şora Batır”, “Adil Sultan”, “Takırlau qonğan qaz, tırna” dastanları var. Bu tarixi dövrdə ortaya çıxan yazılı ədəbiyyat nümunələri də mövcuddur.

1243–1503-cü illərdə yaşayan şairlərdən Xarəzminin “Məhəbbətnamə”, Seyf-Sarainin “Gülüstan bitt-Türki” və Məhəmməd Salihin “Şeybaninamə” kimi poemaları yazılı əsərlər sırasına daxildir.

## Noqay Ordasının yaranması

Noqay Ordası və ya Mangıt ulusu dövlətin qurucuları olan mangıtların şərəfinə Mangıt Ordası da adlanıb. 1392-ci ildən 1442-ci ilədək formalaşma dövrü yaşayıb, həmin ildən 1634-cü ilədək müstəqil dövlət kimi fəaliyyət göstərib, Qızıl Ordanın süqutundan, Ağ Ordanın zəifləməsindən sonra yaranan müstəqil dövlət, paytaxtı Ural çayının aşağı hövzəsində olan Saraycık şəhəri, dini İslam, dili qıpcaq türkcəsi və ya noqay dili idi.

Noqaylara ata tərəfindən Mangit, ana tərəfindən Cuçilər nəslindən olan sərkərdə Yedigey Qızıl Orda dövlətində qoşun komandanı kimi dövləti faktiki olaraq 15 il, 1396-cı ildən 1411-ci ilədək idarə edib.

Noqay Ordasının yaranmasında və möhkəmlənməsində Yedigey mühüm rol oynayıb. O, Ağ Orda əmiri də olub, Toxtamışa qarşı mübarizə aparıb, 1399-cu ildə Litva knyazı Vitovtun və Toxtamışın birləşmiş ordusunu məğlub edib. Keçmişdəki Cuçi uluslarını birləşdirib, 1406-cı ildə Toxtamışı öldürüb, 1408-ci ildə rus torpaqlarına hücum edərək bir çox şəhərləri dağıdıb. 1410–1412-ci illərdəki daxili müharibələrdən sonra hakimiyyətini itirib və Xarəzmə qaçıb. Ən nəhayət, bu cəsarətli sərkərdə Toxtamışın oğlanları ilə mübarizədə öldürülüb.

## Noqay Ordasının strukturu, ərazisi və etnik tərkibi

Noqay Ordasını biy (bəy) idarə edib, ikinci yerdə biyin oğlanları, qardaşları, rəsmi olaraq varis təyin olunan şəxs gəlirdi, aristokratlara mirzə deyilirdi və onlar da dövlətin idarə olunmasında yaxından iştirak edirdilər.

Noqay dili qazaxların, başqırdların, Krım tatarlarının və Volqa tatarlarının dilləri ilə kiçik fərqlə eyni olduğundan bir-birini anlayıblar.

Noqay Ordasının ərazisi Volqa və Ural çayları arasında yerləşsə də, şərqdə Ural çayının sol sahilini, şimal-şərqdə Qərbi Sibir düzənliyini, şimal-qərbdə Qazanı, cənub-qərbdə Aral və Xəzər dənizlərini, Manqıstau və Xarəzmi əhatə edib.

Noqay dövrü XIV-XVI əsrləri əhatə edib və o dövrdə noqaylar bir neçə-sarı, qara, Manqıt və Qafqaz noqayları qrupuna bölünüb.

Qızıl Ordanın süqutundan sonra sarı noqaylar (tatarlar) Qazan, Krım, Həştərxan və Qasım xanlıqlarını, qara noqaylar (Barabi tatarları) Ten-San Noqay xanlığını qurublar.

Mangıt noqayları indiki Qazaxıstanın Manqıstau bölgəsində yaşadıqlarından qazaxların Kiçik Cuzü ilə qaynayıb qarışıblar. Qafqaz noqayları Kiçik və Böyük Noqay ordalarının bir hissəsinə çevriliblər.

Noqaylar, həmçinin qırğız tayfaları arasında da mövcuddurlar. Məşhur dastana görə Manas Baba noqay olub.

## Yedigey Noqay Ordasında

Yedigey Qızıl Orda dövlətində xidmət etdiyi dövrdə bütün hakimiyyəti 15 ildən çox əlində saxladıqdan sonra ona tabe olan Noqay qəbiləsi parçalanmağa başlayıb. Kastiliya səfiri R.G.Klaviyo yazırdı ki, Yedigeyin qoşununda 200 mindən çox döyüşçü var idi. O, Qızıl Ordanı təyin etdiyi xanlar vasitəsilə idarə edib və bəylərbəyi və ya böyük əmir titulunu daşıyıb. İbn Ərəbşaha görə, onun iyirmi oğlunun hər biri atasının təyin etdiyi ərazilərdə hökmranlıq edib və onların ayrıca ordusu olub. Qızıl Ordanın süqutundan sonra yaranan digər qoşunlar kimi, Noqay Ordası da etnik deyil, siyasi quruluşa malik idi. Ali hakimiyyəti bəylərbəyi olan əmir həyata keçirib. Əhalinin əsas hissəsi ulis xalqı (noyan, mirzə, şik və s.) və ya “qara xalq” adlanırdı. Xanlıq Çingiz xan sülaləsinin bir hissəsi olsa da, Noqay Ordasının siyasi hakimiyyəti və iqtisadi həyatı Mangit əmirlərinin, yəni Yedigey nəslinin əlində idi və hakimiyyət atadan oğula keçirdi.

## Noqay Ordası XV əsrdə

XV əsrin ortalarında Noqaylar Sırdəryanın orta axını boyunca şəhərləri ələ keçirir və Yedigey, Uakas Bi, Musa Mirzə, Janbırşı və başqalarının nəsilləri Şərqi Dəşti-Qıpçağın siyasi həyatında mühüm rol oynayıblar. Uluslar və tayfalar daim hakimiyyət və otlaqlar uğrunda mübarizə aparıblar. Xalqın əsas məşğuliyyəti köçəri maldarlıq idi. Köçəri noqaylar əsasən qoyun, at və dəvə saxlayır, qonşu dövlətlərə satırdılar.

1628–1630-cu illərdə Kho-Urlukun rəhbərlik etdiyi kalmıklar Noqay Ordusuna hücum edərək Volqa və Yaik arasındakı torpaqları işğal edirlər. 1634-cü ildə kalmıklar yenidən Noqay Ordasına hücum edir, noqaylar döyüşü uduzur, kalmıklar noqayların böyük bir hissəsini öldürür. Döyüşdən sağ çıxanlar Volqanın sağ sahilinə köçərək Kiçik Noqay ordasına birləşirlər.

1634-cü ildə Noqay xalqı Volqanın sağ sahilinə köçür. Noqay Ordasının süqutundan sonra indiki Qazaxıstan torpağında qalan ərazi Qazax xanlığının tərkibinə daxil olub. Noqay Ordasının tərkibinə daxil olan xalqlar-qazax, qaraqalpaq, özbək, tatar, başqırd və digər türk xalqlarının millət kimi formalaşmasına Noqay Ordasının böyük rolu olub.



Noqay Ordasının bir hissəsi olan tayfalar (Konurat, Mangıt, Alşin, Jalair, Kanqlı, Kerey, Qıpçaq, Nayman, Arğın, Tama və başqaları) sonradan qazax xalqının etnik tərkibinin formalaşmasında da mühüm mövqeyə malikdirlər.

## Noqay Ordası XVI–XVII əsrlərdə

XVI əsrin əvvəllərində davamlı vətəndaş qarşıdurması səbəbindən Noqay Ordası zəifləməyə başlayır. 1520-ci ildə Qazax xanı Qasım xan Noqay Ordasının paytaxtı Saraycıki ələ keçirir.

1546-cı ildə Əli Mirzənin komandanlığı altında 10 min nəfərlik noqay ordusu Krım xanı I Sahib Gəray tərəfindən Həştərxanın ələ keçirilməsinin intiqamını almaq üçün Krım xanlığına qarşı yürüşə başlayır. Şiddətli və qeyri-bərabər döyüşdə noqayların bir hissəsi öldürülür, digər yarısı əsir düşür. Sahib Gəray əsir alınan nöqayları qətlə yetirməyi əmr edir. Noqaylar arasında daxili




mübarizə, ardından vəba epidemiyası başlayır, əhalinin təxminən 40–50 faizi tələf olur. Elə buna görə də noqaylar Şimali Qafqaza köç yolu tutur.

XVI əsrin ikinci yarısında Qazan və Həştərxan (Hacı-Tarxan) xanlıqlarının Rusiya tərəfindən fəth edilməsindən sonra baş verən daxili çəkişmələr Noqay Ordasını zəiflədir və bir neçə hissəyə parçalanmasına gətirib çıxarır.

**Noqay Ordasının hökmdarları:**

Yedigey biy, Noqay Ordasının qurucusu, sərkərdə və qəhrəman, Qızıl Ordanın sonuncu hökmdarı, 1392-1412-ci illərdə hakimiyyətdə olub.

Nurəddin biy, 1412-1419...
Mansur biy, 1419-1427...
Qazı biy, 1427-1428...
Uakas biy, 1428-1447...
Xarəzmi biy, 1447-1473...
Abbas biy, 1473-1491...
Musa biy, 1491-1502...
Janbırşı biy (noqayca yağış rəqsi), (rusca: Танец дождя), 1502-1504...
Həsən biy, 1504-1508...
Şeyx Məhəmməd biy, 1508-1510, 1516-1519...
Əlşağır biy, 1508-1516...
Aqiş biy,1521-1524...
Seyid Əhməd biy,1524-1541...
Sudya Məhəmməd biy, (rusca: Судья Мухаммад) 1537-1541...
Şeyx Mamay biy, 1541-1549...
Böyük İosif biy, (rusca: Иосиф Великий) 1549-1554...
İsmayıl biy, 1557-1563...

## Böyük Noqay Ordası

İsmayıl İlyasın komandanlığı altındakı noqaylar 1557-ci ildə Rusiyanın nəzarəti altına keçərək Volqaboyu əraziləri əhatə edən Böyük Noqay Ordasını yaradır və Böyük Noqay Ordasının bəyi özünü IV İvan Qroznının vassalı elan edir. Bu baxımdan Noqay Ordası və Qazı Mirzə bəyin rəhbərliyi ilə Şimali Qafqazda yenə də Moskvaya tabe olan Kuban Ordasına (Kiçik Noqay Ordasına) bölünür, Jema və Oyila çaylarının sahillərində Altı Ulus Ordası yaradılır. Təxminən o illərdə Yaik, Emba və Sırdərya çayları arasında köçəri həyat sürən Altıaul Ordası (Altyul ulusu) meydana çıxır.

1577-ci ildə Noqay Ordasının paytaxtı Saraycık rus knyazı Serebrının ordusu tərəfindən zəbt olunur. XVII əsrin əvvəllərində kalmıklar Yaikin hər iki sahilindəki Volqaya qədər olan noqay düşərgələrində məskunlaşırlar.

Noqayların bir hissəsi isə Şimali Qafqaza köç edir.

**Böyük Noqay Ordasının hökmdarları:**
Din Əhməd biy, 1563-1578...
Urus Biy, 1563-1578,
Dinbəy Mirzə, 1578-1584...
Səyid Əhməd Mirzə, 1584-1587…
Uraz Məhəmməd biy, 1584-1590…
Din Məhəmməd biy, 1590-1598, 1598-1600…
Yaş Tarak biy, Biy 1600-1619…
Din Əhməd, 1600-1604…
Qarakuli Məhəmməd Mirzə, 1604-1622…
Dinbay Mirzə biy, 1622-1634…

## Suvorov və Noqay məsələsinin sonu

17-ci əsrin əvvəllərindən etibarən Noqay Ordasının birdəfəlik ələ keçirilməsi Rusiya xarici siyasətinin əsas məsələsinə çevrilir. 1783-cü il aprelin 21-də II Yekaterina Krım xanlığının Rusiyaya birləşdirilməsi haqqında fərman verir. 18-ci əsrin sonunda Krım xanlığının Rusiyaya sonuncu dəfə ilhaq edilməsi ilə noqayların taleyi məsələsi ortaya çıxır və bu məsələnin həlli Suvorova həvalə olunur. 1783-cü il iyunun 21-də Novorossiya qubernatoru knyaz Potyomkin Suvorova noqayların Saratov və Tambov vilayətlərinə köçürülməsinə hazırlıq görməyi tapşırır. 1783-cü il iyulun 5-də Suvorov Eyskdə Noqay mirzələri və ağsaqqallarının İmperatriçaya sədaqət andı içmək üçün təntənəli bir mərasim təşkil edir, noqayları ələ almaq, sakitləşdirmək üçün şənlik qurulur.

## Edamdan əvvəl ziyafət

Bu ziyafətlə bağlı Britaniya jurnalisti Oliver Bulloughun “May We Save Free” kitabında dəhşətli bir epizod var. Jurnalist yazır: “Suvorov “Noqayların sayıqlığını boğmaq” üçün dəbdəbəli bir ziyafət təşkil edib, süfrələr açıb, 100 öküz və 800 qoç kəsilib, 500 çəllək araq gətirilib və insanlar yeyib-içdikdən sonra Suvarov qırğın əmri verib. Bu epizodun təfərrüatlarının dəqiqliyi mübahisəlidir, lakin ümumi hadisə çoxsaylı ifadələrlə təsdiqlənir”.

Rus hərbi tarixçisi V.A.Pottonun sözlərinə görə, müqaviməti yatırdıqdan sonra Suvorova “mükafat” olaraq 300 min at, 40 min baş mal-qara, 200 min qoyun və saysız-hesabsız qadın göndərilib.

## Noqayların üsyanı

1783-cü il iyulun 30-da Rusiyanın məkrli planlarından xəbər tutan noqayların üsyanı başlayır və yatırılması uzun müddət çəkir. Üsyan zamanı 7 mindən artıq noqay əsgər və zabiti öldürülür, qadın və uşaqlardan əlavə mindən çox kişi əsir götürülür. Rus tarixçisi Vladimir Qutakovun hesablamalarına görə, üsyanın yatırılması zamanı təxminən 10 minlərlə noqay qətlə yetirilib.

Bu zülmə dözməyən noqayların əksəriyyəti öz vətənlərini tərk etməyə məcbur olur, 700 minə qədər noqay Osmanlı İmperiyasına qaçır, sonradan assimilyasiya olunur. Vladimir Qutakov yazır: “Bu dövrdə daxili çəkişmələr və hərbi münaqişələr səbəbindən noqayların və digər türkdilli xalqların əhəmiyyətli bir hissəsi Volqa və Qara dəniz bölgələrindən Krım xanlığına və Osmanlı İmperiyasına, xüsusən də Balkanlara köç ediblər ki, bu da Noqay Ordasının zəifləməsi və son tənəzzülünün səbəblərindən biri olub”.

Noqayların çətin anlarda xalqa müraciəti:

Noqaylar çöl mədəniyyətinin keşikçiləridir.

Unutmayın: siz noqaysınız, Böyük Çölün oğlu və qızı, izləri min illər əvvələ gedib çıxan Türkün varisisiniz. İskitlər və sarmatlar, hunlar və türklər, xəzərlər və qıpçaqlar – bunlar bizim də bir parçası olduğumuz vahid tarixi zəncirin halqalarıdır.

Tariximiz iki yüz il əvvəl başlamayıb və tək bir tarix, dövr və ya dövlətlə məhdudlaşmır. Biz iki min ildən çoxdur ki, bu torpaqda yaşayırıq, müharibələrə, köçürülmələrə və bizi tarixdən silmək cəhdlərinə baxmayaraq, çölün dilini, yaddaşını, həyat tərzini və ruhunu qoruyub saxlayırıq.



Krım və Sibir çöllərinə qədər uzanan Türk torpaqları sadəcə bir ərazi deyil. Bu bizim Vətənimiz, beşiyimiz, Noqay dünyasının formalaşdığı, çölün insanla danışdığı və insanların onunla harmoniyada yaşadığı məkandır. Bura ailələrin, adət-ənənələrin və qanunların yarandığı, nəsildən-nəslə ötürüldüyü yerdir.

Bunu xatırlamaq kim olduğunuzu bilmək deməkdir.

Unutmaq özünü itirməkdir.

## Noqayların yaşadıqları ərazilər

Hazırda noqaylar əsasən Quzey Qafqazda – Dağıstan, Stavropol, Qaraçay-Çərkəz, Həştərxan (Hacı-Tarxan) bölgələrində, Türkiyə və Rumıniya ərazilərində, həmçinin Çeçenistanda yaşayırlar. Moskva və Sankt-Peterburq şəhərlərində noqay diasporları fəaliyyət göstərir.

2005-ci ilin yayında Qaraçay-Çərkəz Respublikasında noqayların milli rayonunun yaradılması haqqında qərar verilib. Bu respublikada yaşayan 5 çoxsaylı xalqlar biri də noqaylardır. Onu da demək lazımdır ki, 2021-ci ildə aparılan siyahıyaalmaya görə Rusiyada 1009 mindən artıq noqay yaşayır.

Beləcə, rus şovinizmi mərhələ-mərhələ Noqay Ordasının və Böyük Noqay Ordasının yaşadığı 192 il ərzində zaman-zaman digər türk xalqları kimi, noqayları da öz dədə-baba torpaqlarından didərgin salıb, onlara qarşı soyqırımı siyasəti həyata keçirib.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*

**Daşkənd**

# İtkin şəhid doğma torpağa qovuşdu



**Göyçayda Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən Vüqar Səlim oğlu Babayevlə vida mərasimi keçirilib.**

Vida mərasimində şəhidin doğmaları, rayonun rəsmi şəxsləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Vida mərasimindən sonra şəhidin nəşi Göyçayın Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Vüqar Babayev 1972-ci il aprelin 16-da Göyçayın Qarabaqqal kəndində anadan olub. 1994-cü il fevralın 12-də Kəlbəcər rayonunun Yanşaq kəndi istiqamətindəki döyüşlərdə itkin düşmüşdü.

*XQ*

**Araz Dadaşzadə – 90**

# Klassik poeziyamızın unudulmaz tədqiqatçısı

**Azərbaycan Yazıçılar Birliyində tanınmış ədəbiyyatşünas, ensiklopediyaçı naşir və yurdsevər ziyalı Araz Dadaşzadənin 90 illik yubileyinə həsr olunmuş yubiley mərasimində unudulmaz alimin əziz xatirəsi dərin ehtiramla yad edildi, elmi-ictimai fəaliyyətinə yüksək qiymət verildi.**



Məclisi giriş sözü ilə açan AYB-nin sədri, Xalq yazıçısı Anar uşaqlıq illərindən yaxın dost olduğu Araz Dadaşzadənin ötən əsrin 60-cı illərində mədəni intibaha yol açmış, müstəqillik arzusu ilə yazıb-yaratmış, cəmiyyətdə demokratik dəyərləri dirçəltmiş dərin zəkalı alim olduğunu söylədi. Sədr bildirdi ki, Azərbaycan ədəbiyyatşünaslığının parlaq simalarından olan Araz Dadaşzadə həm tədqiqatçı, həm də yüksək mənəvi keyfiyyətləri ilə seçilən ziyalı idi. Onun hazırcavablığı, səmimi ünsiyyəti və ictimai-siyasi hadisələrə ayıq, obyektiv münasibəti çevrəsindəki insanlarda yüksək duyğu-düşüncələr yaradırdı.

Xalq yazıçısı qeyd etdi ki, 1990-cı ilin 20 Yanvar faciəsi Arazı dərindən sarsıtmışdı. O, baş verən milli qırğına biganə qalmamış, xalqımızın haqq səsini yaxın-uzaqlara yaymağa çalışmışdı. Bütün bunlar əlacsız xəstəliklə çarpışan dostumuzun ömrünü bir az da qısaltmışdı. Böyük elmi potensialını özü ilə aparmış alimin vaxtsız itkisi ədəbiyyat elmində və ictimai düşüncədə boşluq yaratsa da onun zəngin irsi və işıqlı xatirəsi adını və kimliyini daim yaşadacaq.

AMEA-nın prezidenti İsa Həbibbəyli görkəmli alim Araz Dadaşzadə ilə tanışlıq illərini xatırladaraq, onun Azərbaycan ədəbiyyatşünaslığındakı xidmətlərini yüksək qiymətləndirdi və alimin 90 illiyinin qeyd edilməsinin elmi-mədəni baxımdan əhəmiyyətini vurğuladı. Akademik bildirdi ki, onun Molla Pənah Vaqif və XVIII əsr Qarabağ şairləri barədə tədqiqatları ədəbiyyat tariximizi zənginləşdirib.

Araz Dadaşzadənin Vaqifə həsr olunmuş monoqrafiyası zəngin arxiv materiallarına və əhatəli araşdırmaya və obyektiv mövqeyə əsaslandığı üçün dəyərli elmi mənbə sayılır. XVIII əsr Azərbaycan poeziyasını ümumiləşdirən ilk fundamental araşdırmanın da müəllifi Araz müəllim olub.

AYB-nin katibləri Xalq yazıçısı Çingiz Abdullayev, yazıçı Elçin Hüseynbəyli və filologiya elmləri doktoru Vaqif Yusifli Araz Dadaşzadənin Azərbaycan ədəbiyyatşünaslığındakı məxsusi yerini açıqladılar. Bildirildi ki, Araz Dadaşzadə yalnız nüfuzlu alim deyil, həm də yüksək mənəviyyat sahibi idi. Bu gün onun dərin ehtiramla yad edilməsi də məhkəmil şəxsiyyət olması ilə bağlıdır. Onun fiziki ömrü başa çatsa da, mənəvi mövcudluğu davam edir.



Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov Araz önəmli tədqiqatları ilə milli ədəbi-ictimai fikrə verdiyi sanballı töhfələrdən söz açdı. O bildirdi ki, alim Vaqif yaradıcılığında realizm, sosial müşahidə və dərin fəlsəfi qatların mövcudluğunu elmi əsaslarla üzə çıxarmışdı.

"Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə söylədi ki, Arazlı günlər unudulmaz xatirələr toplusu, şirin həyat romanıdır. O, yeni elmi meyarları ilə dərin və əhatəli araşdırmalara yol açıb. Arazın "XVIII əsr Azərbaycan lirikası" kitabında Azərbaycan ədəbiyyat tarixinin mühüm bir mərhələsi sistemli yanaşma ilə təqdim olunub.

Məclisdə Araz Dadaşzadənin "Azərbaycan Sovet Ensiklopediyası" 10 cildliyinin hazırlanıb nəşr edilməsində müstəsna xidməti də xüsusi qeyd oludu. Bu böyük elmi layihənin möhkəm özülünü qoymuş Xalq şairi Rəsul Rza ətrafına yaradıcı qüvvələrin ən istedadlı nümayəndəsi kimi Araz Dadaşzadə bu prosesdə bütün qüvvə və zəkasını səfərbər edib.

Daha sonra professor Rüstəm Kamal, Əməkdar jurnalistlər – "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu və BDU-nun müəllimi, fəlsəfə doktoru Namiq Əhmədov yubilyarın həyat və yaradıcılığının onlara məlum məqamlarından bəhs ediblər, xatirələrini bölüşüblər.

Sonda mərhum alimin ailə üzvləri oğlu fəlsəfə doktoru Aqşin, qızı Əməkdar incəsənət xadimi, professor Zümrüd və gəlini, professor Kamilə Dadaşzadələr akademik Məmməd Arif Dadaşzadə ilə başlayan alimlər şəcərəsinə qızıl kərpiclər qoymuş yubilyarın xatirəsinə göstərilən ehtiram və qədirbilənliyə görə razılıqlarını ifadə etdilər. Mərasim iştirakçılarına və təşkilatçılarına minnətdarlıqlarını bildirdilər.

Xatırladaq ki, Araz Dadaşzadə 1936-cı il yanvarın 30-da Bakı şəhərində akademik Məmməd Arif və pedaqoq Zümrüd Axundovanın ailəsində doğulub. Ömrünün böyük bir hissəsi Azərbaycan Ensiklopediyasının baş redaktor mavini kimi məsul vəzifədə keçib. Onun 1968-ci ildə M.P.Vaqifin anadan olmasının 250 illik yubileyinə həsr edilmiş "Molla Pənah Vaqif" kitabçası Azərbaycan, ingilis, fransız, türk, ərəb, fars, rus dillərində nəşr edilib. Alim "Molla Pənah Vaqif", "Həyat müğənnisi", "XVIII əsr Azərbaycan lirikası", "Xeyirxahlıq və gözəllik poeziyası" kimi dəyərli əsərlərin müəllifi kimi tanınıb.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Britaniya kralı bp-nin azərbaycanlı vitse-prezidentini təltif edib

**Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli Böyük Britaniya Kralı Əlahəzrət III Çarlz Britaniya İmperiyası Ən Ali Ordeninin fəxri zabiti adına layiq görülüb. Bu barədə qərar dünən elan olunub.**



Kral III Çarlz soydaşımızı Böyük Britaniya–Azərbaycan münasibətlərinə verdiyi əhəmiyyətli töhfələrə görə təltif edib. O, bu nüfuzlu fəxri titula layiq görülmüş ilk Azərbaycan vətəndaşıdır.

"Bu, böyük bir şərəfdir və belə bir mükafata layiq görüldüyümə görə qürur duyuram", – deyə B.Aslanbəyli bildirib: "bp-dəki həmkarlarımla, Böyük Britaniyanın Bakıdakı səfirliyi, Azərbaycanın Londondakı səfirliyi, SOCAR və hökumət nümayəndələri ilə birlikdə çalışaraq Azərbaycan və Böyük Britaniya arasındakı münasibətlərin möhkəmləndirilməsinə töhfə vermək mənim üçün böyük qürurdur. Mən həm Azərbaycana, həm də Böyük Britaniyaya faydalar gətirmək üçün birlikdə çalışdığım hər kəsə borcluyam. Bu fəxri ad mənim olduğu qədər onların da səylərinə verilmiş qiymətdir. Layiq görüldüyüm bu şərəfli ada görə öz dərin təşəkkürümü bildirir və ölkələrimiz arasındakı möhkəm əlaqələrin daha da gücləndirilməsinə bundan sonra da xidmət edəcəyimi bir daha vurğulamaq istəyirəm".

Xatırladaq ki, fəxi zabit adı Birləşmiş Krallıq daxilində və eləcə də beynəlxalq səviyyədə çox mühüm töhfələr vermiş şəxslərə təqdim edilən ən yüksək 5 titulundan biridir.

bp şirkətinin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində çalışan Bəxtiyar Aslanbəyli isə enerji sektorunda 25 illik peşəkar təcrübə qazanıb. O bu müddət ərzində kommunikasiya və xarici əlaqələr, strategiya, vergi və gömrük məsələləri, etik normalar, tələblərə uyğunluq və biznes xidmətləri kimi sahələrdə bir sıra rəhbər vəzifələrdə çalışıb.

***XQ***

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi**
**Bakı Dövlət Universiteti**

***aşağıdakı kafedralarda boş olan vəzifələri tutmaq üçün***

**MÜSABİQƏ ELAN EDİR**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Genetika kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Botanika və bitki fiziologiyası kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>0,5 |
| Molekulyar biologiya və biotexnologiyalar kafedrası | Dosent<br>Baş müəllim<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>0,5<br>1 |
| Biofizika və biokimya kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>1 |
| Zoologiya və fiziologiya kafedrası | Dosent<br>Müəllim<br>Müəllim | 1<br>1<br>0,5 |
| Biotibbi materiallar İCESCO kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 0,5<br>0,5<br>1 |
| Fiziki coğrafiya kafedrası | Baş müəllim | 1 |
| Hidrometeorologiya kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>0,5 |
| Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası kafedrası | Professor<br>Dosent<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>1<br>3*1 |
| İqtisadi və sosial coğrafiya kafedrası | Professor<br>Dosent<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>1<br>3*1 |
| Geodeziya və kartoqrafiya kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>1 |
| Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>1 |
| Ekoloji kimya kafedrası | Baş müəllim | 1 |
| Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>4*1 |
| Bioekologiya kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>1 |
| Coğrafi ekologiya kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 1<br>1<br>1 |
| Həyat fəaliyyətinin təhlükəsizliyi kafedrası | Dosent | 1 |
| Ümumi fizika və fizikanın tədrisi metodikası kafedrası | Müəllim | 0,5 |
| Maddə quruluşu kafedrası | Müəllim | 2*1 |
| Astrofizika kafedrası | Dosent | 1 |
| Nanomaterialların kimyəvi fizikası kafedrası | Baş müəllim<br>Baş müəllim<br>Müəllim | 1<br>0,5<br>1 |
| Yarımkeçiricilər fizikası kafedrası | Müəllim | 2*1 |
| Hidrogeologiya və mühəndis geologiyası kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 0,5<br>2*1<br>1 |
| Faydalı qazıntılar kafedrası | Müəllim | 2*1 |
| Kristalloqrafiya, mineralogiya və geokimya kafedrası | Professor<br>Müəllim | 1<br>2*1 |
| Seysmologiya və yer təkinin fizikası kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Üzvi kimya kafedrası | Professor<br>Dosent | 0,5<br>1 |
| Fiziki və kolloid kimya kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>1 |
| Ümumi və qeyri-üzvi kimya kafedrası | Baş müəllim | 1 |
| Analitik kimya kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 0,5<br>2*1<br>1 |
| Yüksək molekullu birləşmələr kimyası kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Kimyanın tədrisi metodikası kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>0,5 |
| Riyazi analiz və funksiyalar nəzəriyyəsi kafedrası | Müəllim | 1 |
| Ali riyaziyyat və riyaziyyatın tədrisi metodikası kafedrası | Professor<br>Dosent | 1<br>0,5 |
| Cəbr və həndəsə kafedrası | Dosent<br>Müəllim | 0,5<br>1 |
| Hesablama riyaziyyatı və riyazi modelləşdirmə kafedrası | Professor<br>Baş müəllim | 0,5<br>1 |
| Differensial tənliklər və idarəetmə nəzəriyyəsi kafedrası | Müəllim<br>Müəllim | 1<br>0,5 |
| Mexanika kafedrası | Professor<br>Dosent<br>Baş müəllim | 1<br>1<br>1 |
| Tətbiqi riyaziyyat kafedrası | Baş müəllim | 1 |
| Optimallaşdırma və idarəetmə kafedrası | Dosent<br>Müəllim | 1<br>0,5 |
| İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrası | Müəllim | 3*1 |
| Riyazi kibernetika kafedrası | Professor<br>Müəllim | 0,5<br>1 |
| Riyazi fizika tənlikləri kafedrası | Professor | 1 |
| Ehtimal nəzəriyyəsi və riyazi statistika kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>2*1 |
| İqtisadi kibernetika kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| İnformatika kafedrası | Professor<br>Baş müəllim<br>Müəllim | 0,5<br>1<br>3*1 |
| İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası | Müəllim<br>Müəllim | 2*1<br>0,5 |

**Qeyd –** Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" 1996-cı il 07 avqust tarixli 401 saylı əsasnaməyə uyğun elan olunduğu gündən 30 gün müddətində qəbul edilir.

**Ünvan – AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 33.**

AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

*ştatda boş olan aşağıdakı vəzifələri tutmaq üçün*

MÜSABİQƏ ELAN EDİR

- "İdarəetmə" fakültəsi – dekan
- "İqtisadi nəzəriyyə" kafedrası – kafedra müdiri

Sənədlər bu elan dərc olunan gündən 1 ay müddətində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları"na uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Telefon**: (012) 561-29-72.

**Ünvan**: Az- 1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93, 205-ci otaq.

***Rektorluq***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 33 (31002) 20 fevral 2026-cı il, cümə

## İDMAN

## Mingəçevirdə avarçəkmə birinciliyi keçiriləcək




**27-28 fevral tarixlərində Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının birgə təşkilatçılığı ilə avarçəkmənin akademik, kayak və kanoe növlərində Azərbaycan birinciliyi keçiriləcək. Mingəçevirdə, "Kür" Olimpiya Tədris-İdman Mərkəzində baş tutacaq yarış handikap sistemi üzrə olacaq. İdmançılar fərdi olaraq bir nəfərlik qayıqlarla akademik avarçəkmədə 4000 metr, kayak və kanoedə isə 2000 metr məsafə qət edəcəklər. Qaliblər vaxt göstəricilərinə əsasən müəyyənləşəcək.**

Azərbaycan birinciliyində Bakı və Mingəçevirdən 2008–2013-cü il təvəllüdlü ümumilikdə 80 idmançı mübarizə aparacaq. Qaliblər diplom və medallarla mükafatlandırılacaqlar. Fərqlənən idmançılar ümummilli lider Heydər Əliyevin 103-cü ildönümünə həsr ediləcək "Prezident Kuboku-2026" və digər beynəlxalq yarışlarda ölkəmizi təmsil edəcək komandanın heyətinə cəlb olunacaq.

## Londonda antidopinq müzakirələri



**Azərbaycan Milli Antidopinq Agentliyindən (AMADA) verilən məlumata görə, Böyük Britaniyanın paytaxtı Londonda Birləşmiş Krallığın Antidopinq Agentliyinin (UKAD) dəstəyi ilə Avropa Şurasının Antidopinq Konvensiyasının Uyğunluq üzrə Məsləhətçi Qrupunun (T-DO COMP) və Hüquqi işlər üzrə Məsləhətçi Qrupunun (T-DO LI) iclasları keçirilib. Tədbirdə ölkəmizi AMADA-nın nəticələrin emalı və təhqiqat şöbəsinin müdiri Nicat Əmiraslanlı təmsil edib.**

İclaslarda Avropa Şurasının Antidopinq Konvensiyasına tərəf olan ölkələrin həmin Konvensiyanın tələblərinə uyğunluğunun qiymətləndirilməsinə dair səfərlərin nəticələri və yeni səfərlərin tarixləri müzakirə edilib. Müzakirələrə əsasən, 2026-cı ildə Şimali Makedoniya, Türkiyə, San-Marino və Mərakeşə qiymətləndirmə səfərlərinin keçirilməsi müəyyənləşdirilib. Azərbaycanda həyata keçirilməsi planlaşdırılan səfərin tarixi bir il uzadılaraq 2033-cü ilə keçirilib.

Daha sonra qrup üzvləri 2027-ci il yanvarın 1-dən qüvvəyə minəcək yeni Ümumdünya Antidopinq Məcəlləsinin qəbulu ilə əlaqədar yeni antidopinq qanunvericiliyinə əlavə və dəyişikliklərlə bağlı ölkələrində görülmüş işlər və digər aktual məsələlər ətrafında müzakirələr aparıblar.

## Çempionlar Liqasında son "pley-off"lar



**UEFA Çempionlar Liqasında pley-off mərhələsinin ilk görüşlərinə yekun vurulub.**

Son oyun günündə 4 qarşılaşmanın yalnız birində ev sahibləri sevinən tərəf olub: "Qarabağ" (Azərbaycan) – "Nyukasl" (İngiltərə) 1:6, "Olimpiakos" (Yunanıstan) – "Bayer 04" (Almaniya) 0:2, "Budyo Qlimt" (Norveç) – "İnter" (İtaliya) 3:1, "Brügge" (Belçika) – "Atletik" (İspaniya) 3:3.

Qeyd edək ki, pley-off mərhələsinin cavab qarşılaşmaları gələn həftə keçiriləcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

*11 ayın sultanı*

# Ramazan – imanın qalxanı, şeytanın qandalı

**On bir ayın sultanı dediyimiz Ramazan ayını möminlərin əməl və ibadətlərini bərəkətləndirən, onların savablarını artıran yaz yağışına bənzədə bilərik. Quranın nazil olduğu, nur damcılarının qəlbləri paklaşdırdığı bir ayda sırf Allah rizası üçün oruc tutan bəndə qəlbində məhz Onun lütfünü qazanma düşüncəsini daşıyar. Oruclu iftara qədər gözləyər, bu müddətdə təkcə nəfsini deyil, əlini, dilini, gözünü haramdan qoruyar və bununla Rəbbinə qulluğunu və sevgisini göstərər. Oruc ibadətində nümayişkarlıq yoxdur. Buna görə üləmalar orucu bəndə ilə Tanrı arasında gizli təmasa bənzədiblər. Ətrafdakıların tanımadığı və kimsənin görmədiyi bir yerdə orucu pozmamaq mükəmməl imanın ifadəsidir.**



İman saflığının sınağa çəkildiyi bu müqəddəs ayda tutulan oruc möminin şeytan adlı nəfsə qarşı cihadı, onun Şər əməllərinə sipəridir. Təsəvvüf alimlərinin əksəriyyəti Ramazanı imanlının qalxanla qorunduğu, şeytanın isə qandallandığı ay kimi dəyərləndirib. Peyğəmbərimiz (s.ə.s) hədislərinin birində buyurur: "Hər şeyin zəkatı var, bədənin də zəkatı orucdur. Oruc isə səbrin yarısıdır".

### Bu əməllər orucu batil edər

→ Yemək və içmək. İstər az, istərsə çox, istər bərk, istərsə maye, istər yeyilən, istərsə yeyilməyən qidanı qəbul etmək orucu pozar;

→ Hər cür qatı toz və tüstünü udmaq. Məsələn, un tozu, siqaret tüstüsü, su buxarı və s. qatı halda olarsa, onları udmaq orucu pozar;

→ İnsan qəsdən Allahın, peyğəmbərlərin və imamların adından yalan danışsa, yəni Quran ayələrini qəsdən təhrif etsə, orucu batil olar;

→ Siqaret çəkən insanın ciyərinə qatı tüstü getdiyindən orucu batil hesab olunur;

→ İstər kişi, istərsə də qadın cinsi əlaqədə olarsa, tutduğu oruc pozular.

### Hansı hallarda oruc pozulmaz?

→ Oruc tutan şəxsin ağız suyunu udması orucu pozmaz;

→ Diş çəkdirərkən insan qan, su, yaxud dərman udmazsa, orucu düzgün sayılır.

→ Xəstələnmiş şəxsin bədəninə iynə vurulması orucu pozmaz. Yalnız qidalandırıcı təyinatlı ampulalar orucu pozar;

→ Oruc tutan şəxsə çimmək arzuolunmaz əməl sayılır, amma çimməklə oruc batil olmaz. Çimən şəxs başını su ilə tam islatmamalı, damcıları udmamalıdır.

→ Evdar qadın xörək bişirərkən oruc tutduğunu unudub, xörəyin dadına baxsa, orucu pozulmaz.

### Kimlər üçün oruc vacib deyil?

Dörd təbəqədən olan adamlar oruc tutmaya bilərlər. Onlar həm qəza orucundan, həm də kəffarədən azaddırlar:

→ Həddi-büluğa çatmamış uşaqlar;

→ Psixi cəhətdən qeyri-sağlam şəxslər;

→ Qocalıb əldən düşmüş insanlar;

→ Aclıq və susuzluğa tab gətirə bilməyən xəstələr.

Bu sualı tez-tez eşidirik: namaz qılmayan şəxsin oruc tutması düzgündürmü? Müsəlman yetkinlik yaşına çatan gündən həm namaz qılmalı, həm də növbəti Ramazan ayından başlayaraq oruc tutmalıdır. Amma bu iki ibadət bir-birindən asılı deyil. Yəni namaz qılmayan şəxs oruc tuta bilər və bu ibadət qəbuldur.

Şəriətimizə görə, Ramazana təsadüf edən yas məclislərində ehsan süfrəsi iftar vaxtı açılmalıdır. Ümumiyyətlə, oruclu müsəlmanı iftara dəvətin çox böyük savabı var. İmam Sadiq bu barədə buyurub: "Hər kəs oruc tutan şəxsə iftar versə, özü də oructutan qədər savab qazanar".

Uca Yaradan bu müqəddəs ayda tutulan orucları, edilən ibadətləri, verilən zəkatları qəbul eləsin. İbadətlərimizdə şəhidlərimizin ruhuna dua oxumağı, qazilərimizə şəfa diləməyi unutmayaq. Tanrıdan Vətənimizin, Türk dünyasının daim sülh və əmin-amanlıq içində olmasını diləyək.

*İ.HƏSƏNQALA*
*XQ*

# Şəhid övladları üçün qış düşərgəsi

**Naxçıvan Muxtar Respublikasında şəhid övladları üçün 3 günlük qış düşərgəsi təşkil olunub.**



Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəliyi ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tərəfdaşlığı, "Azərbaycan Hava Yolları" QSC və Naxçıvan Həmkarlar İttifaqları Şurasının dəstəyi, "YAŞAT" Fondunun təşkilatçılığı ilə gerçəkləşdirilən layihənin məqsədi uşaqlarda qış idman oyunlarına maraq oyatmaq, şəhid övladlarına xoş əhval bəxş, cəmiyyətin onlara arxa-dayaq olduğuna əminlik yaratmaqdır.

Layihənin ilk günündə iştirakçılar "Duzdağ" müalicə mərkəzinə ekskursiya edib və AHİK-in fəaliyyətindən bəhs edən videoçarxı izləyiblər. Sonrakı günlərdə uşaqlar "Ağbulaq" istirahət mərkəzində xizək məşğələsində, kirşə yarışında və digər əyləncəli oyunlarda iştirak ediblər.

"YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov və AHİK sədrinin müavini, Naxçıvan Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev uşaqlarla çay süfrəsi ətrafında vətənpərvərlik mövzusunda söhbət apardılar.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Şəhriyar Məmmədyarov da finaldadır

**Şahmat üzrə Azərbaycan çempionatında son finalçı məlum olub.**

Yarımfinalda iki partiyadan sonra qalibin müəyyənləşmədiyi Şəhriyar Məmmədyarov-Aydın Süleymanlı duelində tay-brek keçirilib.

Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, tay-brekdə qələbə qazanan Şəhriyar Məmmədyarov 3,5-2,5 hesablı qələbəylə adını finala yazdırıb.

Sabah Azərbaycan çempionatında final partiyalarına start veriləcək. Kişilərin yarışında çempionluq uğrunda Şəhriyar Məmmədyarov Məhəmməd Muradlıyla, qadınlarda isə Ülviyyə Fətəliyeva Ayan Allahverdiyeva ilə mübarizə aparacaq.

Üçüncü yer uğrunda görüşlərdə Aydın Süleymanlı–Read Səmədov və Gülnar Məmmədova–



Türkan Məmmədyarova partiyaları keçiriləcək.

Qeyd edək ki, Azərbaycan çempionatının bağlanış mərasimi fevralın 22-də "Landmark" Biznes Mərkəzində təşkil olunacaq.

*Q.YUSİFOĞLU*
*XQ*

"AZƏR-ASİYA MÜŞTƏRƏK SIĞORTA ŞİRKƏTİ" ASC səhmdarlarının nəzərinə!

2026-cı il aprelin 1-i saat 11:00-da "AZƏR-ASİYA MÜŞTƏRƏK SIĞORTA ŞİRKƏTİ" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir. (VÖEN-1400335181)

Ümumi yığıncağın gündəliyi:

1. Cəmiyyətin ləğv olunması və bundan irəli gələn məsələlərin həll edilməsi.

Gündəliyin məsələlərinə aid materiallarla ümumi yığıncağın keçirilməsinə 1 iş günü qalmış, hər iş günü saat 11:00-dan 13:00-dək cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Səhmdarlar şəxsiyyətini təsdiq edən sənəd, nümayəndələr isə müvafiq qaydada rəsmiləşdirilmiş etibarnamə təqdim etməlidirlər.

Ümumi yığıncaqda iştirak etmək üçün səhmdarların qeydiyyatı yığıncağın başlanmasına 30 dəqiqə qalmış aparılacaqdır.

Əlaqə telefonu: +994 51-252-00-74.

Ünvan: Bakı şəhəri, Səbail rayonu, Ü.Hacıbəyov küçəsi 30.

## HAVA

## Gecə çiskinli, yağış və qar, gündüz yağmursuz

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır.**

Fevralın 19-dan 20-nə keçən gecə isə bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi səhər şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 4-7, gündüz 12-16 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 773 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Səhər yağıntılar tədricən kəsiləcək, gündüz əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim qərb küləyi gecə və səhər bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 4-7, gündüz 15-19, dağlarda gecə 2-6, gündüz 6-11 dərəcə isti olacaq.



*Q.ƏLİYEV*
*XQ*

✓ 2024-cü il noyabrın 27-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Lənkəran penitensiar kompleksinin mühafizə alayının əməkdaşı Niftiyev Nicat Rasım oğlunun adına verilmiş (seriya nömrəsi PX6573) xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

✓ Xaçmaz rayon sakini Bayev Elman Əlixan oğluna məxsus TOYOTA PRIUS markalı avtomobilin 50 ET 731 nömrəli dövlət nömrə nişanı itdiyi üçün etibarsız sayılır.

✓ Xaçmaz rayon sakini Cavadova Fərəh Adil qızına məxsus LADA VAZ 09 markalı, 27 BJ 908 nömrəli dövlət nömrə nişanlı avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

### ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi politologiya və siyasi idarəetmə kafedrasının dosenti

**SEVDA RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2954
SİFARİŞ 242
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00